# 27 Sentyabr Azərbaycanda Anım Günüdür


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 207 (30901) 27 sentyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Torpaq əgər uğrunda ölən varsa, Vətəndir!




*Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## BMT tribunasından səslənən həqiqət

*Prezident İlham Əliyevin BMT Baş Assambleyasındakı çıxışı beynəlxalq hüququn aliliyinə çağırışdır*

**Hər ilin payızında Nyu-Yorkda toplaşan BMT Baş Assambleyası dünya ölkələrinin eyni masa arxasında əyləşərək bəşəriyyətin taleyini müzakirə etdiyi ən böyük qlobal tribunadır. Baş Assambleyanın sessiyasının gündəliyinə çıxarılan məsələlər təkcə diplomatik protokol deyil, qitələri silkələyən silahlı münaqişələrdən iqlim böhranına qədər milyonlarla insanın həyatına bilavasitə toxunan problemlərdir.**

Baş Assambleyanın tribunası kiçik ölkələrə səslərini böyük güclərin, necə deyərlər, qulaqlarına çatdırmaq, ədalətsizliklərə etiraz etmək üçün nadir fürsət yaradır. Bu platformada qəbul olunan sənədlər hər zaman məcburi qüvvəyə malik olmasa da, beynəlxalq ictimaiyyətin ümumi iradəsini ifadə etməsi ilə önə çıxır. Qlobal problemlərin həllində tərəfdaşlıq ruhunu gücləndirmək, etimadı bərpa etmək və qarşıdurmaları dialoqla əvəzləmək üçün BMT Baş Assambleyası bənzərsiz rol oynayır. Ona görə də bu sessiya təkcə diplomatik təqvimin növbəti tədbiri deyil, bəşəriyyətin gələcəyini müzakirə etmək üçün açılan geniş meydandır.


*(ardı 3-cü səhifədə)*






## Azərbaycan dünyanın logistik xəritəsini yenidən çəkir


Səhifə ⇨ 11


## Azərbaycan–BMT: bəşəri dəyərlərə sədaqət

*Regional təhlükəsizlikdən qlobal liderliyə doğru*



**Azərbaycanın 2 mart 1992-ci ildə BMT-yə qəbul edilməsi ilə ölkənin beynəlxalq müstəvidə tanınması və müstəqilliyinin legitimləşdirilməsi prosesi başa çatdı. Quruma üzvlük Azərbaycanın yeni dünya nizamında öz yerini müəyyənləşdirməsi baxımından tarixi dönüş nöqtəsi idi. Sonrakı dövrlərdə Bakı BMT platformasından istifadə edərək həm regional, həm də qlobal problemlərin müzakirəsinə aktiv töhfə verib.**

SSRİ-nin dağılması ilə yaranmış yeni dövlətlər üçün beynəlxalq tanınmanın ən ali mərhələsi BMT üzvlüyü idi və bu, onların qlobal hüquq və siyasət sisteminə inteqrasiyasını təmin edirdi. O dövrdə Ermənistanın təcavüzü və Qarabağ münaqişəsi ölkənin varlığını təhdid edirdi. Buna görə də, Azərbaycanın BMT üzvlüyü dövlətin mövcudluğunu və suverenliyini qlobal hüquqi sistem çərçivəsində qorumaq cəhdi idi. Baş Assambleyanın 46/230 saylı qətnaməsi Azərbaycanın suverenliyinin təsdiqi olmaqla yanaşı, ölkəyə beynəlxalq hüquq normalarına istinad etmək üçün güclü siyasi əsas verdi.


*(ardı 5-ci səhifədə)*


## Vətən müharibəsi tarixi zərurət, ədalətin bərpası idi




Səhifə ⇨ 8


## Türkiyə–ABŞ: ortaq maraqlara qapı açılır




Səhifə ⇨ 12


## Ermənistan rəhbərliyinin “ziqzaqvari” siyasəti




Səhifə ⇨ 4

# Milli Məclis deputatlarının dünyaya Anım Günü müraciəti

**Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları 27 Sentyabr – Anım Günü ilə əlaqədar beynəlxalq parlament təşkilatlarındakı və xarici ölkələrin parlamentlərindəki həmkarlarına müraciət ünvanlayıblar.**



Müraciətdə ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğu, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı aktları həyata keçirildiyi bildirilir.

Sənəddə 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı hücumundan sonra Azərbaycanın BMT Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək dövlətimizin ərazi bütövlüyünün bərpasının təmin edildiyi xatırladılır. Sənəddə, həmçinin 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son qoyulduğu diqqətə çatdırılır.

Avqust ayının əvvəllərində ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin Vaşinqtonda görüşüb danışıqlar aparmasının, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanmasının münaqişəyə birdəfəlik son qoyulmasına əlverişli şərait yaratdığı xatırladılır.

Eyni zamanda, əldə edilmiş razılaşmalara uyğun olaraq, reallaşacaq "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu"nun qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevriləcəyi vurğulanaraq, perspektivdə yekun sülh sazişinin imzalanmasının Azərbaycanla Ermənistan arasında davamlı və uzunmüddətli sülhü bərqərar etməklə, bütün Cənubi Qafqaz regionu qarşısında sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açacağına inam ifadə olunur.

# Kritik informasiya təhlükəsizliyinin qiymətləndirilməsinin ilkin mərhələsi

**Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyi, həmçinin kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli qurum olan Dövlət Təhlükəsizliyi Xidmətindən əldə edilmiş məlumata əsasən, müvafiq sahədə normativ-hüquqi aktlarla təsbit edilmiş tələblərə riayət edilməsi vəziyyətinin yoxlanılması istiqamətində həyata keçirilmiş tədbirlər, qarşıya çıxan çətinliklər, eləcə də onların aradan qaldırılmasına dair məsələlər aidiyyəti Komissiyanın iclasında müzakirə edilib.**

Məlumatda Komissiyanın DTX və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən olan üzvlərinin iclasda tam tərkibdə iştirak etdiyi bildirilib.

Qeyd edilib ki, iclas zamanı kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlı həyata keçirilmiş ilkin qiymətləndirmələrin nəticələri kollegial formada müzakirəyə çıxarılıb. Həmçinin vurğulanıb ki, bəzi kritik informasiya infrastrukturlarında aşkar olunmuş bir sıra nöqsanların aradan qaldırılması da təmin edilib. Müzakirələr nəticəsində ölkənin kritik informasiya infrastrukturunun müasir kibertəhdidlərə qarşı dayanıqlığının gücləndirilməsi istiqamətində yeni hədəflər müəyyən olunub. Bununla yanaşı, səlahiyyətli qurum tərəfindən təsdiq edilmiş plan əsasında kritik informasiya infrastrukturu subyektlərində ümumi və xüsusi təhlükəsizlik tələblərinə riayət olunmasına dair Komissiya tərəfindən həyata keçiriləcək yoxlamalarla bağlı məsələlərə baxılıb.

İclasın gündəliyində nəzərdə tutulmuş cari mövzularla yanaşı, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin olunması ilə əlaqədar bir sıra digər məsələlərin də müzakirəsi aparılıb. Beynəlxalq təcrübəyə (NIS-2, CSF 2.0) uyğun olaraq, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi tələblərin təkmilləşdirilməsi, habelə risklər və müasir kibertəhdid modelləri nəzərə alınmaqla, kritik informasiya infrastrukturu obyektlərinin siyahısının daim yenilənməsi milli maraqların təmin olunması baxımından vacib hesab edilib. Göstərilənlər nəzərə alınaraq, kritik informasiya infrastrukturu obyektlərinin siyahısında əlavə və dəyişikliklərin edilməsi ilə bağlı layihə təklifinin aidiyyəti üzrə təqdim olunması, habelə ölkədə xüsusi əhəmiyyətli sənaye idarəetmə sistemlərinin (SCADA) diqqətdə saxlanılması və siyahısının təkmilləşdirilməsinin zəruri olduğu bildirilib. Bununla yanaşı, kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə xüsusi tələblərə riayət olunmasına nəzarətin gücləndirilməsi də müzakirə edilib.

Müzakirələr zamanı, kritik informasiya infrastrukturunda təhlükəsizlik risklərinin müntəzəm olaraq müəyyən edilməsi və qiymətləndirilməsi, həmçinin bu risklərin maliyyə yükünün hesablanaraq idarəetmədə nəzərə alınmasının ciddi aktuallıq kəsb etdiyi vurğulanıb. Habelə, kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyi ilə əlaqədar kibertəhlükəsizlik xidməti provayderinə dair tələblərə uyğun olmayan hüquqi şəxslər tərəfindən göstərilən xidmətlərdən asılılığın aradan qaldırılmasının vacibliyi qeyd olunub.

Komissiyanın iclasında Milli kibermərkəzin aidiyyəti subyektlərlə kriptoqrafik mühafizə vasitəsindən istifadə etməklə məlumat mübadiləsi apardığı bildirilib və bu təcrübənin sahə üzrə standartlar nəzərə alınmaqla daha da təkmilləşdirilməsinin əhəmiyyəti qeyd edilib.

Məlumat üçün qeyd edək ki, sözügedən Komissiya kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair tələblərə riayət olunması vəziyyətinin yoxlanılmasının təşkili ilə yanaşı, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün kritik informasiya infrastrukturu subyektləri tərəfindən həyata keçirilən tədbirlərin qiymətləndirilməsi, görülmüş işlərin nəticələrinə dair dövri hesabat və məlumatların hazırlanması, habelə kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin pozulmasına səbəb ola bilən ciddi nöqsanlar aşkar edildikdə və ya təhlükəsizlik üzrə kritik hal baş verdikdə, təxirəsalınmaz tədbirlərin görülməsi məqsədilə müvafiq qaydada məsələnin qaldırılmasına məsuldur.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Aprel döyüşləri ilə bağlı hərbi cinayətlər araşdırılıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 26-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Məhkəmədə Azərbaycan Respublikasının Milli Qəhrəmanı İbrahimov Mübariz Ağakərim oğlunun, habelə Abdullayev Əhməd Hüseynağa oğlunun ("İgidliyə görə" medalı ilə təltif edilib – red.) və Əhmədov Fərid Güloğlan oğlunun ("İgidliyə görə" medalı ilə təltif edilib – red.) və digər şəxslərin öldürülməsi faktları ilə bağlı sənədlər elan olunub.

Bundan başqa, Bayramov Pərviz Əlimahir oğlunun öldürülməsi, Rəşidov Səxavət Məmməd oğlunun, İbrahimov Aqil Vahid oğlunun, Məmmədov Tural Ağabala oğlunun, Əliyev Şamil Əlvan oğlunun, Əliyeva Ruqiyyə Rüstəm qızının xəsarət alması ilə bağlı sənədlər elan edilib.

Bundan başqa, Şahkərəmov Ağadadaş Şahkərəm oğlunun, Ağayev Ruslan Qabil oğlunun öldürülməsi, 2015-ci il iyulun 22-də N saylı hərbi hissənin hərbi qulluqçularının xəsarət almaları, Əliyeva Müşgünaz Əsgər qızının, Əhmədova Mədinə Əsgər qızının və Əliyeva Zəhra Samir qızının xəsarət almaları, Məmmədov Anar Yaşar oğlunun və Əhmədov Fuad Şaməddin oğlunun mina partlayışı nəticəsinə xəsarətlər almaları, habelə digər faktlar üzrə sənədlər elan olunub.

Daha sonra 2016-cı ilin aprel ayında baş vermiş hadisələrlə (Aprel döyüşləri – red.) bağlı sənədlərin bir hissəsi elan edilib. Elan olunan sənədlərdən biri N saylı hərbi hissənin hərbi qulluqçularının 2016-cı il aprelin 2-də Tərtər-Ağdam rayonları ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış atəşlə öldürülmələri və xəsarət yetirilmələri faktları ilə bağlı olub. Sənədə əsasən, Ermənistan silahlı qüvvələri Ağdərə, Tərtər-Ağdam istiqamətində Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı və artilleriya silahlarından intensiv atəşə tutması nəticəsində ölənlər və xəsarət alanlar olub.

Sənədlərlə eyni vaxtda, habelə bir sıra fotoşəkillər nümayiş etdirilib.

Məhkəmə prosesi sentyabrın 29-da davam etdiriləcək.

***XQ***

# DİN-də Anım Günü mərasimi



**Sentyabrın 26-da Daxili İşlər Nazirliyinin şəxsi heyəti Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.**

***

Daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən silahlı qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini vurğulayıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Komandanının müavini - Şəxsi Heyət üzrə İdarənin rəisi, general-mayor İnqilab Muradov Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının keçdiyi şərəfli döyüş yolundan danışıb. Tədbirin sonunda sənədli film nümayiş olunub.



**Həmin gün Daxili İşlər Nazirliyində 27 Sentyabr – Anım Gününün beşinci ildönümünə həsr olunmuş mərasim keçirilib. Toplantıda Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.**

***XQ***

# Baş prokurorun Özbəkistana səfəri



**Özbəkistana rəsmi səfəri çərçivəsində Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının Daşkənddə keçirilən 6-cı iclasında iştirak edib.**

Baş prokuror çıxışında ekologiya və ətraf mühitin qorunması sahəsində qanunun aliliyinin təmin olunmasında prokurorluq orqanlarının roluna toxunaraq, ekoloji cinayətlərin qlobal problemə çevrildiyini vurğulayıb. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər, xüsusilə də COP29-un Bakıda uğurla təşkil olunması və "Baku Call to Action" təşəbbüsünün qəbul edilməsinin regional və beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli hüquqi əsas yaratdığı diqqətə çatdırılıb.

Tədbir çərçivəsində "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 6-cı iclasının Daşkənd Bəyannaməsi" qəbul olunub.

***XQ***

# Çili parlamentariləri Milli Məclisdə



**Sentyabrın 26-da Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov Çili Milli Konqresi Senatının nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Əli Əhmədov Azərbaycanın Çili ilə əlaqələrin inkişafına maraq göstərdiyini deyib. O, hər iki ölkənin parlamentlərində qarşılıqlı dostluq qruplarının olmasını yüksək qiymətləndirib, parlamentlərarası münasibətləri ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirib. O, Çili senatorlarının bu səfərinin Azərbaycan-Çili əlaqələrinin daha da inkişafına və möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Çili Milli Konqresi Senatının İnsan hüquqları daimi komitəsinin sədri, Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Fransisko Çauhan ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi imkanları ilə bağlı fikirlərini bölüşüb, bu münasibətlərin intensivləşməsində parlamentlərin rolunu vurğulayıb.

Sonra Çili Senatının İqtisadiyyat daimi komitəsinin sədri Roxo Edvards, Çilinin Azərbaycandakı müvəqqəti işlər vəkili Xuan Karlos Salazar Alvares Azərbaycanla Çili münasibətlərinin hazırkı vəziyyəti, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi perspektivləri barədə fikirlərini səsləndiriblər.

***XQ***

# BMT tribunasından səslənən həqiqət



(əvvəli 1-ci səhifədə)

Məlumat üçün bildirək ki, Baş Assambleyanın 80-ci sessiyası 2025-ci il sentyabrın 9-da açılıb və 2026-cı il sentyabrın 8-də bağlanacaq. Sessiyanın mövzusu "Birgə çalışmaq: sülh, inkişaf, insan hüquqları və irəliyə doğru 80 il birgə çalışmaq"dır. Sentyabrın 23-dən sessiya çərçivəsində ümumi müzakirələr başlayıb. Ayın 27-dək davam edən müzakirələrdə dövlət başçıları çıxış edərək beynəlxalq təhlükəsizlikdən tutmuş regional münaqişələrə, iqlim dəyişikliyindən texnoloji bərabərsizliyə qədər ən aktual məsələlərə münasibət bildiriblər. Bu çıxışlarda BMT Nizamnaməsinin prinsiplərinə sadiqlik, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət çağırışları ön plana çəkilib.

BMT Baş Assambleyasının 80-ci sessiyası Prezident İlham Əliyevin sentyabrın 25-də etdiyi çıxışla bizim üçün daha əlamətdar oldu. Dövlətimizin başçısı bildirdi ki, 1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar.

Prezident bildirdi ki, otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu: "Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi".

Dövlətimizin başçısı qeyd etdi ki, 2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü.

***

Qeyd etmək lazımdır ki, Baş Assambleyanın 80-ci sessiyası Azərbaycan üçün təkcə diplomatik gündəmin bir hissəsi deyil. Bu mötəbər toplantı Prezident İlham Əliyevin dünyaya ünvanladığı mesajlarla ölkəmizin mövqeyini bir daha ortaya qoydu. Dövlətimizin başçısının səsləndirdiyi fikirlər 30 illik münaqişə tarixinin beynəlxalq hüquq prizmasından qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin çıxışının əsas vurğusu ondan ibarət idi ki, 1992-ci ildə münaqişənin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupu mandatına uyğun öhdəliklərini yerinə yetirmədi. Uzun illər ərzində bu qrup münaqişənin ədalətli həlli istiqamətində konkret addımlar atmaq əvəzinə, status-kvonu qoruyub saxlamağa və faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yummağa üstünlük verdi. Bu yanaşma bölgədə gərginliyi artırmaqla yanaşı, beynəlxalq hüquq normalarının kağız üzərində qalmasına gətirib çıxardı. Prezidentin bu çıxışı göstərdi ki, Azərbaycanın səbrinin tükənməsi təsadüfi yox, məhz bu səmərəsiz və birtərəfli vasitəçilik nəticəsində idi.

Çıxışında dövlət başçısı diqqəti həm də BMT Nizamnaməsinin 51-ci maddəsinə yönəltdi. Məlumdur ki, bu maddə hər bir dövlətə silahlı hücuma məruz qaldıqda özünümüdafiə hüququ verir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan da məhz bu hüquqa əsaslanaraq 2020-ci ildə Vətən müharibəsinə başlamağa məcbur oldu. Ermənistanın 44 gün ərzində törətdiyi müharibə cinayətləri – şəhərlərin və kəndlərin ballistik raketlərlə, kasetli mərmilərlə bombalanması, 100-dən çox mülki vətəndaşın həlak olması çıxışda qətiyyətlə xatırladıldı. Bu faktların beynəlxalq tribunada səsləndirilməsi Ermənistanın münaqişədəki məsuliyyətini bir daha ortaya qoymaqla yanaşı, Azərbaycanın hərbi əməliyyatları beynəlxalq humanitar hüquqa uyğun apardığını nümayiş etdirdi.

Prezidentin nitqində xüsusi vurğulanan məqam Azərbaycanın müharibə zamanı mülki şəxslərin təhlükəsizliyini təmin etməsi, qeyri-hərbi infrastrukturu hədəf almamasıdır. Bu, Azərbaycanın beynəlxalq hüquqa hörmət edən dövlət kimi davranışını təsdiqləyir və müharibə zamanı belə qanun çərçivəsindən kənara çıxmadığını göstərir. Əksinə, Ermənistanın mülki obyektləri və mülki əhalini məqsədli şəkildə hədəfə alması regiondakı humanitar böhranın əsas səbəblərindən biri kimi beynəlxalq ictimaiyyətə təqdim olundu.

Dövlətimizin başçısının çıxışında səslənən "2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 illik işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü" fikri həm simvolik, həm də siyasi baxımdan mühüm mesaj idi. Bu tarix yalnız hərbi qələbənin tarixi deyil, həm də beynəlxalq hüququn və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin gec də olsa reallaşdığı bir dönəmin başlanğıcıdır. İlham Əliyevin bu vurğusu göstərdi ki, Azərbaycan münaqişəni hərbi yolla həll etməyə məcbur qalsa da, nəticə etibarilə beynəlxalq hüquq normalarını bərqərar etdi.

Əslində, bu çıxış həm də beynəlxalq vasitəçilərə ünvanlanan mesaj idi: əgər otuz ilə yaxın müddətdə səmərəli addımlar atılmırsa, hüquqa hörmət etməyən işğalçıya qarşı münaqişənin ədalətli həlli yalnız güc tətbiqi ilə mümkündür. Prezidentin BMT tribunasından səsləndirdiyi fikirlər Azərbaycanın münaqişədəki mövqeyinin haqlı olduğunu, həyata keçirilən antiterror əməliyyatının da legitim əsaslara söykəndiyini və ölkəmizin beynəlxalq ictimaiyyətin qəbul etdiyi prinsiplərdən kənara çıxmadığını bir daha təsdiqlədi.

Beləliklə, BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevin çıxışı Azərbaycan üçün həm diplomatik qələbə, həm də tarixi ədalətin bərpa olunmasının dünyaya nümayişi oldu. Bu nitq həm keçmişin dərslərini xatırlatdı, həm də gələcək üçün bir mesaj göndərdi. Həmin mesajın mahiyyəti bundan ibarətdir ki, beynəlxalq hüququn bərqərar olması yalnız sənədlərdə deyil, real addımlarda öz təsdiqini tapmalıdır. 2020-ci ilin payızında ölkəmizin atdığı addımlar da məhz bu prinsipin təntənəsi idi.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**İlqar VƏLİZADƏ,**
**politoloq**

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı Azərbaycanın qlobal tribunada öz mövqeyini, həmişə olduğu kimi, qətiyyətlə ifadə etməsi baxımından diqqəti cəlb edir. Dövlətimizin başçısı əsas diqqəti keçmiş münaqişənin nəticələrinə deyil, onun səbəblərinə yönəldərək beynəlxalq vasitəçilik mexanizmlərinin iflasa uğradığını vurğuladı. ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini sərt tənqid etməsi ilə illərlə davam edən danışıqların nəticəsiz qalmasının, bölgədə sabitliyi pozan status-kvonun saxlanmasının məsuliyyətini açıq şəkildə gündəmə gətirdi.

Çıxışın digər önəmli tərəfi ölkəmizin apardığı Vətən müharibəsinin beynəlxalq hüquq çərçivəsində əsaslandırılması oldu. Prezident İlham Əliyev BMT Nizamnaməsinin 51-ci maddəsinə istinad edərək bildirdi ki, müharibəyə başlamağımız özünümüdafiə hüququndan irəli gəlib və bu, birtərəfli seçim yox, zərurət idi. Dövlətimizin başçısı Ermənistanın müharibə dövründə mülki əhalini hədəfə almasını xatırladaraq, Azərbaycanın humanitar hüquqa riayət etdiyini vurğuladı.

Bütövlükdə, bu çıxış həm də beynəlxalq ictimaiyyətə mesaj idi ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası yalnız hərbi qələbə deyil, həm də beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi kimi dəyərləndirilməlidir. Nitq ölkəmizin haqlı mövqeyini bir daha təsdiqləməklə yanaşı, münaqişənin nəticələrinə dair ikili standartlara qarşı prinsipial mövqe nümayiş etdirilməsi ilə də yaddaşlara həkk olundu.

# Qalib Liderin qlobal təşəbbüsləri

## *İlham Əliyev BMT-yə vəziyyətdən çıxmaq üçün konkret imperativlər təqdim etdi*

**Azərbaycan bu il qlobal hüquq və beynəlxalq təhlükəsizliyin təminatçısı sayılan 5 əsas dövlətin (P5) rəhbərliyi ilə fəaliyyət göstərən Birləşmiş Millətlər Təşkilatı ilə (BMT) münasibətlərinin 33-cü ildönümünü qeyd edir. 80 illik tarixə malik BMT-nin 33 il ərzində Bakı ilə sıx təmasları olsa da, keçmiş Qarabağ münaqişəsi bu qurum tərəfindən həll edilə bilmədi. Əksinə, Azərbaycan təşkilat tərəfindən qəbul edilmiş və Ermənistanın işğalçı olduğunu təsdiqləyən 4 qətnaməni BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanan özünümüdafiə hüququ çərçivəsində icra etdi. Nəticədə, P5-nin 28 il ərzində həyata keçirə bilmədiyi öhdəliklər Azərbaycan tərəfindən BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməklə reallığa çevrildi və ədalət təmin olundu.**

Bir çox tarixi nəzəriyyə və inanclarda 33 rəqəmi kamillik, tamlıq və səmərə ilə əlaqələndirilir. BMT ilə əlaqələrin qurulmasının 33 ili ərzində Azərbaycan bu mənada öz inkişaf yolunu aydın şəkildə göstərdi: ölkə iqtisadi gücünü artırdı, regiondakı nüfuzunu və strateji mövqeyini möhkəmləndirdi. Qarabağ məsələsi kimi mürəkkəb problem İlham Əliyevin qətiyyətli liderliyi, səbr və dəqiq strateji qərarları sayəsində həll olundu. Bu prosesdə BMT qlobal çərçivədə fəaliyyət göstərsə də, struktur və qərarvermə səmərəliliyi baxımından zaman-zaman geridə qaldı.

1992-ci ildən etibarən BMT müxtəlif regionlarda bir sıra qətnamələr qəbul etmişdir, lakin onların icrası və təsiri çox vaxt məhdud olmuşdur. Məsələn, Qərbi Sahara üzrə 690, Suriya müharibəsi üzrə 2118, 2165 və 2254, 1994-cü il Ruanda genosidində 872 və 918, İsrail–Fələstin münaqişəsində 2334, Bosniyada Srebrenitsa üçün 819, Somali üzrə 814, Konqo üzrə 1925, Liviya üzrə 1973 və Haiti üzrə 1542 saylı qətnamələr hələ də icra edilməyib.

Məhz bu acı reallıq fonunda BMT bu həftə yubiley sessiyasını keçirir. ABŞ-ın Nyu-York şəhərində baş tutan təşkilatın Baş Assambleyasının 80-ci sessiyasının əsas mövzusu təşkilatın hələ də həll edə bilmədiyi münaqişələrdən birinə həsr olunub. Dünyanın bir çox dövlət və hökumət başçıları ali tribunadan çıxış ediblər. Nitqlərin sayı çox olsa da, xüsusilə ölkə başçımız İlham Əliyevin çıxışı öz natiqliyi və fikirləri ilə seçilirdi. Çıxışında İlham Əliyev həm Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi qələbəni dünya ictimaiyyətinə bir daha təqdim etdi, həm də müasir qlobal proseslərdən geri qalmış BMT üçün vəziyyətdən çıxış yollarına dair konkret və əsaslı imperativlər ortaya qoydu. Ölkə başçısı bəyan etdi ki, Azərbaycan yeni bir dövrə qədəm qoyub: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq. Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur".

***

Əgər avqust ayında Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı tarixi uğura – Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanmasına, Azərbaycan–ABŞ münasibətlərində tamamilə yeni səhifə açan, iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanmasına nail olundusa, BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Donald Tramp və İlham Əliyev arasında səmimi təmaslar, yüksək səviyyəli dialoq və liderlərinin bir-birinə böyük dəyər vermələrinin əyani təzahürü kimi yadda qaldı.

Dövlətimizin başçısı BMT-nin ali kürsüsündə təşkilatın böhrandan xilası üçün yollar təqdim edir, dünyanı sülh üçün həmrəyliyə çağırır: "Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq."

Təəssüf ki, hələ də yeni dünya düzəni qurula bilmir. İnsan cəmiyyəti tarixi boyunca universal ədalət, bərabərlik və harmoniya ideallarına can atsa da, fərqli mədəniyyətlər, siyasi maraqlar və iqtisadi güc oyunları bu arzuların reallaşmasına mane olur. Hər bir qlobal təşəbbüs zaman-zaman dövlətlərin suveren maraqları və lokal problemlərlə qarşılaşır, nəticədə ideal tarazlıq və sivilizasiyalararası uzlaşma perspektivi uzanır. Qalib liderin dediyi kimi, həqiqi qlobal nizam yalnız dialoq, həmrəylik və uzunmüddətli strateji vizyon vasitəsilə əldə edilə bilər.

BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevin səsləndirdiyi çağırış beynəlxalq münasibətlər sisteminə yeni baxış gətirir. Dövlət başçısının sülh və inkişafı beynəlxalq hüquqa əsaslanaraq təmin etmək, ikili standartlara son qoymaq, ədalətin selektivlikdən azad olduğu dünya qurmaq kimi hədəfləri, əslində, Azərbaycan diplomatiyasının uzunmüddətli strategiyasının qlobal miqyasda elanıdır. Çıxış dünya nizamının transformasiya mərhələsində səsləndi. Qlobal güc mərkəzləri dəyişir, yeni iqtisadi və siyasi bloklar yaranır, köhnə alyansların mövqeyi zəifləyir. Belə bir şəraitdə Azərbaycanın qətiyyətli mövqeyi həm regionda, həm də beynəlxalq səhnədə yeni güc balansının formalaşmasına təsir edən amillərdən biridir. Bu kontekstdə, Azərbaycanın qlobal miqyasda təklif etdiyi ədalət modeli praktik yanaşmadır. Regional müstəvidə Bakı yeni əməkdaşlıq formatlarını təşviq edir. Türkiyə, Pakistan, Mərkəzi Asiya ölkələri ilə qurulan çoxtərəfli ittifaqlar Azərbaycanı nəinki regional logistik mərkəzə, həm də siyasi dialoq platformasına çevirib. Bu, həm iqtisadi inteqrasiyanı, həm də təhlükəsizlik mühitini möhkəmləndirir.

İndiki mərhələdə əsas vəzifə regionda sülhün davamlılığını təmin etməkdir. Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması yalnız iki ölkə arasında deyil, bütün region üçün təhlükəsizlik arxitekturasını dəyişdirəcək. Bakı bu prosesi irəli aparmaqla yanaşı, beynəlxalq güclərin vasitəçilik təşəbbüslərinə yeni məzmun gətirir – real, nəticəyönümlü diplomatiyanın nümunəsini göstərir.

Nəticə etibarilə, Azərbaycan dünya nizamının bərpası üçün yalnız prinsipial mövqeyini ifadə etmir, həm də praktiki mexanizmlər təklif edir. Prezident İlham Əliyevin Nyu-Yorkdan səsləndirdiyi çağırış bu strategiyanın ən yüksək səviyyədə təsdiqi oldu və bu, Azərbaycanın gələcəkdə qlobal proseslərdə daha fəal rol oynayacağının anonsu kimi dəyərləndirilə bilər.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Tahir RZAYEV,**
**Milli Məclisin deputatı**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı yeni geosiyasi reallıqların dünyaya elan olunması idi. Prezident Azərbaycanın son illərdə qazandığı tarixi uğurların, xüsusilə 44 günlük müharibədəki möhtəşəm Qələbənin siyasi və hüquqi mənasını beynəlxalq tribunalda bir daha bəyan etdi. Bu, həm milli, həm də qlobal səviyyədə ədalətə çağırış kimi qiymətləndirilə bilər. Prezident nitqində düşmən üzərində qazanılmış tarixi qələbəni, xalqımızın birliyini və ordumuzun gücünü xatırladaraq, Azərbaycanın suverenliyinin bərpa edilməsinin əhəmiyyətini xüsusi vurğuladı. Azərbaycan lideri eyni zamanda beynəlxalq hüququn norma və prinsiplərinə laqeyd yanaşan dövlətləri, beynəlxalq təşkilatları və BMT Təhlükəsizlik Şurasını tənqid edərək ATƏT-in Minsk qrupunun fəaliyyətinin iflasa uğradığını diqqətə çatdırdı. İlham Əliyev bu qələbəni təkcə hərbi və siyasi yox, həm də beynəlxalq hüququn bərpası kimi səciyyələndirdi.

Reallıqları beynəlxalq auditoriyanın diqqətinə çatdıran Prezident İlham Əliyev həm də qlobal ədalət mexanizmlərinin təkmilləşdirilməsi zərurətinə işarə etdi. Onun çıxışı BMT-nin islahatlara, daha çevik və ədalətli qərarvermə mexanizmlərinə ehtiyac duyduğunu bir daha göstərdi. Azərbaycanın tarixi qələbəsi beynəlxalq hüquqi müstəvidə yeni presedent yaratdı: işğal faktı hərbi-siyasi iradə və beynəlxalq hüquq çərçivəsində aradan qaldırıldı.

Sonda, Prezident İlham Əliyevin səsləndirdiyi mesajlar həm region dövlətləri, həm də qlobal güclər üçün aydın siqnaldır - ədalət yalnız bəyanatlarla deyil, əməli addımlarla bərpa olunmalıdır.

# Mina təhlükəsi – fəlakət kabusu

## *Bu, erməni faşistlərinin torpaqlarımızda əkdikləri ölüm tələləridir*

**Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışında ölkəmizin üzləşdiyi humanitar problemləri də dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Əsas problemlərdən biri Ermənistanın işğal dövründə Azərbaycanın ərazilərində basdırdığı minaların yaratdığı təhlükə ilə bağlıdır. Bu təhlükə nəinki bugünədək insanların həyatına son qoyur, onları şikəst edir, eyni zamanda, münaqişə sonrası sülh prosesini, bərpa-quruculuq işlərini və köçkünlərin doğma yurdlarına təhlükəsiz şəkildə qayıdışını əngəlləyir.**

2020-ci ilin noyabrında başa çatan 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın üzləşdiyi ən böyük çağırışlardan biri məhz mina təhlükəsidir. Rəsmi məlumatlara görə, Ermənistan tərəfindən işğal dövründə Azərbaycanın azad olunmuş ərazilərində 1,5 milyondan çox mina və partlamamış hərbi sursat yerləşdirilib. Müharibənin başa çatmasından beş ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu təhlükənin birbaşa nəticəsi olaraq 400-dən çox vətəndaşımız mina partlayışlarında həlak olub və ya müxtəlif dərəcəli xəsarətlər alıb. Onların arasında uşaqlar, qadınlar, qocalar və hərbçilər var.

Son dövrlər baş verən hadisələr bu təhlükənin miqyasını və ciddiliyini bir daha ortaya qoyur. Elə bu günlərdə Cəbrayıl və Ağdam rayonlarında mina partlayışları nəticəsində 4 nəfər, o cümlədən uşaqlar ağır yaralanıb. Ağdam rayonunun Mirəşelli kəndində daha bir faciə yaşanıb. 1971-ci il təvəllüdlü Baharlı kənd sakini Səyyaf Əhmədov təmizlənməmiş qəbiristanlıq ərazisində mina partlayışı nəticəsində həyatını itirib. Bu faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır. Baş vermiş hadisələr bir daha təsdiqləyir ki, mina təhlükəsi keçmişdə qalmayıb, müharibə bitsə də, ermənilərin basdırdığı minalar dəhşət saçmaqda davam edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva baş verən hadisələrə dərhal reaksiya verərək Ermənistanı bu humanitar faciəyə görə məsuliyyət daşımağa çağırıb. O qeyd edib ki, minaların geniş və məqsədli şəkildə basdırılması beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il tarixli Cenevrə konvensiyalarının və onların Əlavə protokollarının açıq şəkildə pozulmasıdır. Ombudsman bildirib ki, bu, təkcə fiziki təhlükə deyil, eyni zamanda, insanların psixoloji vəziyyətinə, sosial rifahına və gündəlik həyatına zərbə vurur.

Ombudsmanın sözlərinə görə, mina problemi yalnız təhlükəsizlik məsələsi kimi deyil, eyni zamanda geniş miqyaslı humanitar, sosial və iqtisadi problem kimi qiymətləndirilməlidir: "İşğaldan azad olunmuş ərazilərdə həyatın bərpası, infrastrukturun qurulması, sosial xidmətlərin göstərilməsi və ən əsası, əhalinin doğma torpaqlarına qayıdışı bu təhlükənin aradan qaldırılmasından asılıdır".

* * *

Azərbaycan liderinin BMT tribunasından mina problemini beynəlxalq gündəmə çıxarması bu baxımdan olduqca əhəmiyyətli və strateji addımdır. Bakı problemi yalnız özünün milli təhlükəsizlik məsələsi kimi təqdim etmir, həm də regional və beynəlxalq təhdid məsələsi olduğunu bildirir. Çünki minalar təkcə əraziyə səpələnmiş partlayıcı qurğular deyil, onlar həm də sülhə, əməkdaşlığa və insan həyatına yönəlmiş terrordur. Bu gün mina problemi dünyanın bir çox münaqişə bölgələrində mövcuddur, lakin Azərbaycanın yaşadığı miqyas və intensivlik bir çox hallarda analoqu olmayan faciəvi nəticələr doğurur.

Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısındakı tələbi sadə və haqlıdır: insan həyatı hər şeydən önəmlidir. Əgər insanın təhlükəsizliyi təmin olunmursa, insanlar öz yurdlarına qayıdanda həyatlarını itirirsə, uşaqlar yetim qalırsa, bu, artıq təkcə lokal problem deyil, bütün dünyanın vicdanına ünvanlanmış bir çağırışdır.

Ermənistan isə bu günə qədər tam mina xəritələrini ya təqdim etməkdən boyun qaçırır, ya da təqdim etdiyi xəritələr natamam və etibarsız olur. Bu onu göstərir ki, İrəvan minaları yalnız hərbi məqsədlə deyil, həm də siyasi təzyiq və manipulyasiya aləti kimi istifadə edir. Bu, təcavüzkar tərəfin beynəlxalq hüquqa hörmətsizliyidir. Ermənistan məsuliyyətdən yayınmaqla nəinki beynəlxalq hüququ pozur, həm də bölgədə sabitlik və sülhə qəsd edir. Belə bir şəraitdə mina təhlükəsinə qarşı mübarizə yalnız texniki və praktiki fəaliyyətlə yekunlaşmamalı, bu məsələ eyni zamanda, beynəlxalq hüquqi və siyasi müstəviyə daşınmalıdır. Artıq Azərbaycan problemin qlobal miqyasda qəbul olunması üçün təşəbbüslərlə çıxış edir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində ayrıca bir məqsəd – "DİM 18" kimi tanınması təşəbbüsünü irəli sürüb. Bu addım Azərbaycanın mina problemini yalnız regional deyil, eyni zamanda, beynəlxalq məsələ kimi qəbulunu və bu sahədə qlobal həmrəyliyə çağırış etdiyini göstərir. "DİM 18" təşəbbüsü mina təmizləmənin sülh, təhlükəsizlik və davamlı inkişaf strategiyalarının ayrılmaz hissəsi olduğunu vurğulayır.




Onu da xatırladaq ki, Minatəmizləmə Agentliyinin (ANAMA) açıqladığı rəsmi məlumatlara əsasən, son 4 il ərzində (2021-2024-cü illər) 179 min 186 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib. Ümumilikdə bu müddətdə işğaldan azad olunmuş ərazilərdə 18 min 411 ədəd tank, 29 min 250 ədəd piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Prezident İlham Əliyevin BMT tribunasından çıxışında diqqət çəkilən başqa bir mühüm məsələ 1990-cı illərin əvvəllərindən etibarən Ermənistanın təcavüzü nəticəsində itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi ilə bağlıdır. Bu barədə **Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini**




**Eldar Səmədov** "XQ"yə bunları dedi: "Məlumdur ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmiz silahlı münaqişəyə cəlb edilmiş və bunun da nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşmişdir. Münaqişə davam etdiyi müddətdə mülki azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilmiş, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qalıb. Bütün bu hallar xeyli sayda soydaşımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri- müəyyən qalmasına səbəb olub. 1 avqust 2025-ci il tarixə olan məlumata əsasən, Dövlət Komissiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 min 990 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 min 984 nəfəri I Qarabağ müharibəsində, 6 nəfəri isə Vətən müharibəsində itkin düşənlərdir. Onlardan 3 min 211 nəfəri hərbçi, 779 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 284-ü qadın, 316-sı qocadır".

Bu insanların aqibətinə aydınlıq gətirilməsi, təkcə onların ailələrinin deyil, bütün cəmiyyətin vicdan borcudur. Ermənistanın bu məsələyə laqeyd yanaşması və əməkdaşlıqdan imtina etməsi, münaqişədən sonra sülhə doğru atılan addımlara ciddi zərbə vurur və yeni ədalətsizliklərin yaranmasına zəmin yaradır.

Beləliklə, bu gün Azərbaycan yalnız işğalın nəticələrini aradan qaldırmır, eyni zamanda, müharibədən sonrakı humanitar çağırışlara necə cavab verilməli olduğunu dünyaya nümayiş etdirir. Azərbaycan Prüezidenti İlham Əliyevin BMT tribunasından səsləndirdiyi çağırışlar yalnız bir ölkənin dərdi deyil, bütün bəşəriyyətin ortaq məsuliyyəti kimi qəbul edilməlidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*Replika*

# İrəvanın etirafı səmimidirsə...

**Ermənistan isteblişmentinin ayrı-ayrı nümayəndələri tərəfindən reallığın mərhələ-mərhələ etiraf edilməsi müsbət tendensiya sayıla bilər. Doğrudur, bu zaman hay xislətinin axıra qədər səmimi olmasına daim şübhə ilə yanaşmaq, bunu onların növbəti taktiki siyasi gedişi kimi qəbul etmək daha məqsədəuyğundur. Yəni, hətta gözlə görünən, amma özlərinə sərf etməyən reallıqdan danışanda da arxada hansısa siyasi dividentləri, məkrli planları düşünərək hərəkət etdiklərini unutmamalıyıq.**



"Ermənistan hərbi xərclərdə Azərbaycan və NATO-da ikinci böyük orduya malik Türkiyə ilə rəqabət apara bilməz". Bu etirafı Ermənistan parlamentinin sədri Alen Simonyan edib. "Bu məsələdə ən vacib məqam vəsaitlərin rasional istifadəsidir", – deyən siper ölkənin hərbi büdcəsinin azaldılmasının heç bir "xarici tələb"lə bağlı olmadığı barədə açıqlama verib: "Birincisi, heç kim bizə qarşı belə bir tələblə çıxış etməyib. İkincisi, bütün qərarlar, bütün islahatlar ölkəmizin maraqlarından irəli gəlir".

Hayların baş parlamentarisi, həmçinin özünəməxsus arxayınlıqla onu da deyib ki, hazırda ölkədə növbədənkənar seçkilərə heç bir ehtiyac yoxdur. Simonyanın qənaətinə görə, bu, müxalifətin erkən seçkilərə hazır olmaması ilə izah olunur. Spiker hesab edir ki, bütün müxalif qüvvələr seçkilərdə uduzacaqlarını və parlamentdə yer qazanmayacaqlarını yaxşı bilirlər.

Əslində, Simonyanın dilə gətirdiyi təzə fikir deyil. Bu etirafı Ermənistan Baş naziri Nikol Paşinyan iki həftə bundan əvvəl İrəvanda keçirilən "Mürəkkəb Təhlükəsizlik və Davamlılıq 2025" konfransında edib. O, çıxışında birmənalı şəkildə bəyan edib ki, Ermənistan heç vaxt Azərbaycan ordusunu üstələyə bilməz. Ardınca baş nazir sözlərinə onu da əlavə edib ki, Ermənistana ordu lazım deyil: "Ordumuz nə qədər güclü olursa olsun, yenə də Azərbaycan ordusunu, üstəlik güclü müttəfiqləri olan Azərbaycan ordusunu üstələyə bilməz". Tamamilə haqlıdır. On mindən çox fərarisi olan bir ordunun ali baş komandan başqa nə cür danışa bilər?

Buna rəsmi İrəvanın revanşist və separatçı xəyallardan əl çəkib haqqın yoluna qayıtması, Azərbaycanın bölgədə yaratdığı reallığı, nəhayət, həzm etdiyi kimi qəbullanmaq istərdik. Amma qarşıda Ermənistan hakimiyyətinin yerinə yetirməli olduğu "ev tapşırıqları" da var. Paşinyan komandasının səmimiyyətinə yalnız həmin tapşırıqların düzgün və vicdanla həllindən sonra inana bilərik.

Hələlik oxucuların diqqətinə bir maraqlı statistikanı çatdıraq. İki gün bundan əvvəl Ermənistan hökuməti 2026-cı il üçün dövlət büdcəsi layihəsini təsdiqləyib. Bu layihə müdafiə xərclərinin təxminən 16 faiz azalaraq 560 milyard dram (təxminən 1,46 milyard dollar) təşkil etməsini nəzərdə tutur. Təxminən bir ay əvvəl Ermənistan baş naziri Nikol Paşinyan 2026-cı il üçün müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artırılmasının planlaşdırılmadığını bəyan etmişdi. O, həmçinin vurğulamışdı ki, səlahiyyətlilər vəziyyəti operativ şəkildə izləməyə və təhlil etməyə davam edəcəklər.

Bəli, sülhə can atdığını bildirən İrəvan silahlanmadan əl çəkdiyinə və ölkə konstitusiyasının preambulasında yer alan qonşularına qarşı ərazi iddialarını aradan qaldıracağına Bakını inandırmalıdır. Ermənistan isteblişmenti yalnız bunlar baş verəndən sonra qonşu kimi əməkdaşlığa xeyir-duamızı eşidə bilər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistan rəhbərliyinin "ziqzaqvari" siyasəti

## *Paşinyan sağ əli ilə Moskvaya salam verir, sol əli ilə Minskin qolunu itələyir*

**Nikol Paşinyan Müstəqil Dövlətlər Birliyi (MDB) hökumət başçılarının Minskdə keçiriləcək iclasında (29-30 sentyabr) iştirak etməyəcək. Ermənistanı bu toplantıda baş nazirin müavini təmsil edəcək. Bu barədə Belarus XİN məlumat yayıb. Xatırladaq ki, Paşinyan MDB Hökumət Başçıları Şurasının ötənilki iclasına da qatılmamışdı. Onu ölkənin Belarusdakı səfiri Razmik Xumaryan təmsil etmişdi.**

Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan son illər rəsmi İrəvanın xarici siyasətində anlaşılmaq və ziddiyyətli bir tablo yaradıb. Baş nazir bir tərəfdən MDB hökumət başçılarının Minskdə keçiriləcək iclasına qatılmaqdan imtina edir, digər tərəfdən isə ötən gün Moskvada "Atom Enerji Həftəsi"nin qonaqları sırasında yer alır, hətta Rusiya Prezidenti Vladimir Putinlə görüşür. Bu davranış nədən xəbər verir? Ermənistan həqiqətən Rusiyadan uzaqlaşır, yoxsa, sadəcə, görüntü yaradır? Yəni, sözdə bir cür, əməldə başqa cür davranır.

MDB Ermənistan üçün bir zamanlar mühüm tribuna idi. SSRİ dağıldıqdan sonra keçmiş sovet respublikalarını yenə bir nəzarət altında saxlamaq məqsədilə yaradılmış siyasi-iqtisadi qurumdur. Bura Rusiya təsirinin güclü olduğu platformalardan biridir. Ermənistan isə uzun illərdir ki, Rusiyanın Cənubi Qafqazdakı "forpostu" rolunu oynayır. Yəni, İrəvan daim regionda Moskvanın maraqlarını həyata keçirən, onun təsirini saxlayan ölkə kimi ad çıxarıb. Amma son illər Paşinyanın bu qurumun toplantılarına qatılmaması, MDB-yə saygısız yanaşmalar, əslində, Moskva rəhbərliyinə yönəlmiş soyuqluqdur. Bunun səbəbi Paşinyanın 2020-ci il İkinci Qarabağ müharibəsində Rusiyanı Ermənistanın təhlükəsizliyini təmin etməməkdə isuçlamasıdır. 44 günlük müharibəsindən və 2023-cü ildə Qarabağdakı separatçı rejimin tamamilə süqutundan sonra İrəvanın Moskva ilə münasibətlərində gözlə görünən çatlar yaranıb.

Nəzərə alaq ki, hazırda dünyanın, demək olar ki, bütün dövlətlərinin liderləri, hökumət başçıları və xarici işlər nazirləri BMT Baş Assambleyasının illik toplantısında iştirak edir. Amma Nikol Paşinyanın bu zaman "Atom Enerji Həftəsi"ndə iştirak üçün Moskvaya getməsi onun "ziqzaqvari" siyasətinin doğurduğu ziddiyyətlərin kulminasiyası sayıla bilər. Bunun səbəbi Ermənistanın enerji sahəsində Rusiyadan tam asılı olmasıdır. Metsamor AES-dən tutmuş, ölkənin təbii qazla təminatına qədər bütün enerji infrastrukturu Moskvanın nəzarətindədir. Ermənistan bu reallığı dəyişə bilmir. Minskə getməməklə "siyasi müstəqillik" nümayiş etdirmək olar, amma Moskvadakı enerji platformasından imtina etmək heç cür mümkün deyildi. Obrazlı desək, Paşinyan bir əli ilə Moskvaya məcburi salam verir, digər əli ilə Minskin qapısını bağlayır.

Məlum olduğu kimi, Paşinyan Qərbə yaxınlaşmaq üçün MDB ilə yanaşı, KTMT-ni də boykot edir. Ermənistan bu il də KTMT-nin hərbi təlimlərində iştirak etməyib. Ölkənin Xarici Kəşfiyyat Xidmətinin hesabatında qeyd olunur ki, KTMT-nin Cənubi Qafqaz problemlərinə reaksiya verməkdə "yararsızlığı" və "həyat qabiliyyətsizliyi" 2025-ci ildə çətin ki, dəyişsin. Bu səbəbdən, Ermənistanın KTMT-yə üzvlüyünün dondurulması üçün əsasların aradan qalxması ehtimalı azdır. Bundan əlavə, Ermənistan 2024-cü ilin may ayında KTMT-nin 2024-



cü il büdcəsini maliyyələşdirməkdən imtina edib və təşkilatın fəaliyyətinin maliyyələşdirilməsində iştirak etməyəcəyini bəyan edib. Bu addım Ermənistanın KTMT ilə əlaqələrini daha da zəiflədib. Ermənistanın KTMT-yə üzvlüyü 2023-cü ildən etibarən faktiki olaraq dayandırılıb.

Bütün bunlar onu göstərir ki, Ermənistanın siyasətində paradoksal oyun gedir. Paşinyan hökuməti Moskvadan tam qopmağın fəsadlarını anlayır. Ermənistan iqtisadiyyatı və enerji sektoru Rusiyadan asılı olduğu üçün Moskvanı tam incitmək onun üçün olduqca təhlükəlidir. Bu dolaşıqlıq çətin ki Ermənistana fayda verə. İkili siyasət yürüdən rəsmi İrəvan hələlik nə Qərbin tam dəstəyini qazana bilir, nə də Rusiyanın etimadını doğruldur. Nəticədə, ölkənin geosiyasi təcridə sürüklənmək ehtimalı artır.

Mövzu ilə bağlı **siyasi icmalçı Tofiq Abbasov** XQ-yə bildirdi ki, Paşinyan hazırda yalnız manevrlərlə məşğuldur: "Onun özü də başa düşür ki, indiki dövrdə Avropa İttifaqı və ümumiyyətlə, Qərb öz problemləri ilə məşğuldur. Digər tərəfdən, Amerika və Avropa İttifaqı arasında ciddi fikir ayrılıqları mövcuddur. Ukrayna böhranı hələ də həllini tapmayıb. Rusiyanın isə həm Ukrayna, həm də ümumiyyətlə, Avropa üzərində təsiri davam edir.

Paşinyan yaxşı anlayır ki, Ermənistanın Avropaya inteqrasiyası və Qərbə yaxınlaşması hazırda, sadəcə, formal prosesdən ibarətdir. Avropa heç vaxt Ermənistanın yükünü öz üzərinə götürmək istəməyib və gələcəkdə də götürməyəcək. Qərb institutları və dövlətləri daim çalışır ki, öz məsuliyyətlərini başqalarının üzərinə atsınlar. Ermənistan isə çalışır ki, öz işini yüngülləşdirsin və həll edə bilmədiyi problemlərin məsuliyyətini Avropanın boynuna yıxsın. Düzdür, parlament səviyyəsində müzakirələr aparılıb, qanun qəbul edilib. Yəni, rəsmi İrəvan artıq Avropa İttifaqına inteqrasiyaya qanunvericilik səviyyəsində başlayıb. Amma bütün bu proseslər Avropada ciddi maraq yaratmayıb. Qərb üçün demək olar ki, heç nə baş verməyib".

Ekspertin fikrincə, Ermənistanın gələcəyi daha çox Rusiyadan asılıdır. Onun sözlərinə görə, qərbdən ciddi bir dəstək gözləmək mümkün deyil: "Ölkənin iqtisadi və digər imkanları Rusiyanın təsiri ilə bağlıdır. Hazırda Paşinyan Rusiyaya qarşı vəziyyəti tarazlaşdırmağa çalışır, çünki bunun ona həyati əhəmiyyəti var. Rusiyadan həm təhdidlər gələ bilər. Digər tərəfdən, kilsə təsisatları Paşinyanla mübarizə aparır və onu sıxışdırmağa çalışır. Bütün tərəflərlə açıq müharibə elan etmək Paşinyan üçün böyük bir səhv ola bilər. Ona görə də o, Rusiyaya qarşı sözdə sərt olsa da, əməldə nümayəndələrinin və bəzən özünün iştirakı ilə yumşalmanı təmin etməyə çalışır. Məqsəd Rusiyanı razı salmaq və göstərməkdir ki, Ermənistan Rusiyaya qarşı aqressiv davranmayacaq".

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycan–BMT: bəşəri dəyərlərə sədaqət



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan BMT-yə üzv olduğu gündən etibarən təşkilatın Nizamnaməsində əks olunmuş prinsiplərə – suverenlik, sərhədlərin toxunulmazlığı, beynəlxalq mübahisələrin sülh yolu ilə həllinə xüsusi önəm verib. Bakı üçün beynəlxalq hüquqa sadiqlik regional münaqişənin çərçivəsini aşaraq universal siyasi mövqeyə çevrildi. Azərbaycan inkişaf, təhlükəsizlik və humanitar gündəmlərdə də BMT ilə əməkdaşlığı dərinləşdirərək özünü məsul tərəfdaş kimi göstərdi. Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində qəbul edilən milli proqramlar ölkənin qlobal çağırışlara adaptasiya qabiliyyətini nümayiş etdirdi. Azərbaycan sosial və iqtisadi məsələlərdə beynəlxalq təşəbbüslərə qoşulan, bəzən onları təşviq edən aktora çevrildi.

* * *

Azərbaycanın BMT Baş Assambleyasının illik ümumi müzakirələrində ən yüksək səviyyədə təmsil olunması ölkənin beynəlxalq siyasətdə özünü təsdiqləməsi baxımından strateji əhəmiyyət daşıyır. 1994-cü ildə Heydər Əliyevin Baş Assambleyada ilk çıxışı Azərbaycanın müstəqil dövlət kimi BMT tribunasından öz mövqeyini dünyaya bəyan etməsinin başlanğıcı oldu. Heydər Əliyevin nitqində Qarabağ münaqişəsinin beynəlxalq hüquq müstəvisində izah edilməsi Azərbaycanın əsas diplomatik strategiyası idi. 1995-ci ildə BMT-nin 50 illik yubileyinə həsr olunmuş xüsusi iclasda Heydər Əliyev münaqişələrin sülh yolu ilə həllini, beynəlxalq əməkdaşlığı və təhlükəsizliyi ön plana çıxardı. 2000-ci ildə Minillik Zirvə Toplantısındakı çıxışı isə artıq Azərbaycanın qlobal gündəmdə iştirak niyyətini göstərirdi. Burada ölkə yalnız regional münaqişə mövzusu ilə yox, beynəlxalq inkişaf və qlobal əməkdaşlıq məsələləri ilə çıxış etməklə öz xarici siyasətinin üfüqlərini genişləndirdi.

İlham Əliyev 2003-cü ildə Baş nazir qismində, daha sonra isə Prezident kimi (2004, 2010, 2017) etdiyi çıxışlarda Azərbaycanın mövqeyini daha da sərtləşdirilmiş və sistemli şəkildə təqdim etdi. Əsas vurğu beynəlxalq hüququn aliliyinə, xüsusilə də ərazi bütövlüyü prinsipinin təmin olunmasına yönəlmişdi. 2010-cu ildən sonra enerji təhlükəsizliyi və iqtisadi əməkdaşlıqla bağlı vurğular isə Azərbaycanın BMT gündəmində "təhlükəsizlikdən inkişafadək" geniş spektrdə çıxış edən tərəfdaş statusunu möhkəmləndirdi.

2017-ci ildəki çıxış artıq Azərbaycanın qlobal güc balansında özünü daha güclü mövqedə hiss etdiyini göstərirdi. Bakı bu dövrdə həm enerji layihələri ilə Avrasiya məkanında strateji aktor, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə təhlükəsizlik təminatçısı rolunu ön plana çıxarırdı. İlham Əliyevin BMT tribunasından verdiyi mesajlar Azərbaycanın beynəlxalq imicini "problemin qurbanı"ndan "həllin tərəfdaşı"na çevirmə istiqamətində mühüm addımlar idi.

2020 və 2021-ci illərdə pandemiya səbəbindən onlayn formatda edilən çıxışlar Azərbaycanın qlobal humanitar məsələlərdə təşəbbüskar mövqeyini ön plana çıxardı. İlham Əliyev qlobal səhiyyə təhlükəsizliyi və beynəlxalq həmrəylik mövzularını qabardaraq Azərbaycanın qlobal miqyasda da humanitar liderlik iddiası ilə çıxış etdiyini göstərdi. Beləliklə, Azərbaycanın BMT Baş Assambleyasındakı yüksək səviyyəli iştirakı ölkənin beynəlxalq siyasətdə öz mövqeyini sistemli şəkildə formalaşdırmasının göstəricisidir. Heydər Əliyevin çıxışları müstəqilliyin legitimləşdirilməsi və



münaqişənin dünyaya çatdırılması mərhələsini təmsil edirdisə, İlham Əliyevin nitqləri Azərbaycanın qlobal çağırışlarda aktiv tərəfdaş və təşəbbüskar aktor kimi çıxış etməsinin siyasi sübutudur.

* * *

2012–2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi müstəqillik tarixində mühüm diplomatik qələbə kimi qiymətləndirilməlidir. Ən diqqətçəkən məqam isə 2013-cü ilin oktyabrında sədrliyə təsadüf edən dövrdə Azərbaycanın təşəbbüsü ilə Təhlükəsizlik Şurasında İslam Əməkdaşlıq Təşkilatına həsr olunmuş ilk yüksək səviyyəli iclasın keçirilməsi oldu. İƏT məsələsinin Təhlükəsizlik Şurasının gündəminə gətirilməsi Azərbaycanın daha geniş sivilizasiya və konfessiyalararası əməkdaşlıq ideyasını müdafiə etmə niyyətini göstərirdi.

Azərbaycanın 2003–2005, 2017–2019-cu illərdə və üçüncü dəfə 2025-ci ildən etibarən İqtisadi və Sosial Şuranın (ECOSOC) üzvü seçilməsi ölkənin beynəlxalq əməkdaşlıqda inkişaf yönümlü gündəmi önə çıxarmasının sübutudur. ECOSOC üzvlüyü Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi prosesində daha fəal rol almasına imkan yaradıb. Burada Bakı regional əməkdaşlıq platformaları təqdim edən, iqtisadi müxtəlifləşmə təcrübəsini paylaşan tərəfdaş kimi çıxış edib. Azərbaycanın enerji resurslarından əldə olunan gəlirləri sosial-iqtisadi inkişafa yönəltməsi və postmünaqişə dövründə yenidənqurma modelini BMT platformasında gündəmə gətirməsi bu üzvlüklərin praktik əhəmiyyətini artırır.

2006–2009-cu illərdə Azərbaycanın BMT İnsan Hüquqları Şurasına üzv seçilməsi isə daha fərqli bir meydanda ölkənin diplomatik bacarıqlarını sınadı. Çox zaman Qərbin tənqidlərinə hədəf olan ölkə, eyni zamanda, inkişaf etməkdə olan dövlətlərin insan hüquqları sahəsində özünəməxsus yanaşmalarını dəstəkləyərək balanslı mövqe sərgilədi.

* * *

Azərbaycanın BMT ilə əməkdaşlığının önəmli istiqamətlərindən biri həm qlobal dialoqun təşviqi, həm də humanitar gündəmin gücləndirilməsi ilə bağlıdır. 2016-cı ildə Bakıda keçirilən Sivilizasiyalar Alyansı üzrə Qlobal Forum Azərbaycanın mədəniyyətlərarası dialoq platforması kimi qlobal səviyyədə tanıdılmasının bariz nümunəsidir. Bakı burada gündəm müəyyən edən aktor rolunu oynadı; xüsusilə radikalizmlə mübarizə, tolerantlıq və dinlərarası əməkdaşlıq kimi məsələlərin müzakirəsi Azərbaycanın daxili siyasi modelinin beynəlxalq auditoriyaya təqdim olunması demək idi. Ənənənin davamı kimi, 2024-cü ildə COP29-un Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda artan əhəmiyyətini göstərdi. İqlim dəyişikliyi kimi qlobal çağırışın müzakirə edildiyi ən böyük beynəlxalq platformalardan birinə ev sahibliyi etməsi ölkəmizi regional enerji ixracatçısından qlobal iqlim gündəminin formalaşdırıcılarından birinə çevirdi.

Azərbaycanın humanitar fəaliyyətinin ən diqqətçəkən tərəfi onun donor ölkə statusunu qazanmasıdır. İndiyə qədər 140-dan artıq ölkəyə humanitar yardım göstərməsi, təbii fəlakətlərdən əziyyət çəkən regionlara maliyyə və resurs dəstəyi verməsi, həmçinin müxtəlif münaqişə zonalarında yardımlar həyata keçirməsi Azərbaycanın beynəlxalq imicini "yardım edən" dövlət kimi formalaşdırıb.

* * *

Azərbaycanın BMT ilə münasibətlərində ən həssas və uzunmüddətli mövzulardan biri Ermənistanın hərbi təcavüzü və onun nəticələri ilə bağlıdır. 1990-cı illərin əvvəllərində münaqişənin ən gərgin dövründə Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul edərək Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasını tələb etmişdi. Bundan əlavə, Təhlükəsizlik Şurası yeddi dəfə sədrin bəyanatı ilə vəziyyətə münasibət bildirib. Baş Assambleya da "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı iki qətnamə qəbul etməklə beynəlxalq hüququn pozulduğunu təsdiqləyib.

Lakin bu sənədlərin icra olunmaması BMT sisteminin əsas paradokslarından birini üzə çıxardı: beynəlxalq hüququn aliliyini təsbit edən qətnamələr böyük güclərin siyasi maraqları qarşısında təsirsiz qaldı. Bakı dəfələrlə qeyd edib ki, beynəlxalq təşkilatların qəbul etdiyi qərarların icrasız qalması qlobal idarəetmə sisteminə etimadı sarsıdır və "selektiv yanaşma" anlayışını möhkəmləndirir. Əslində, Qarabağ məsələsində BMT-nin passivliyi Azərbaycanı öz gücünə arxalanmağa sövq etdi və 2020-ci ildə Vətən müharibəsində bu qətnamələrin faktiki icrası məhz Azərbaycan tərəfindən təmin olundu.

Münaqişənin humanitar aspektləri isə Azərbaycanın BMT gündəmində mütəmadi olaraq qaldırdığı məsələlərdəndir. 3890 Azərbaycan vətəndaşının hələ də itkin düşmüş statusda olması, o cümlədən mülki şəxslərin taleyi humanitar diplomatiyanın əsas istiqamətlərindən birinə çevrilib. Azərbaycan BMT Baş Assambleyasında bu məsələnin iki ildən bir gündəmə gətirilməsi təşəbbüsü ilə çıxış edir. Məqsəd beynəlxalq ictimaiyyəti itkin düşmüş şəxslərin taleyi ilə bağlı daha sistemli və effektiv yanaşmaya sövq etməkdir. Məhz bu kontekstdə Azərbaycanın irəli sürdüyü əsas təkliflərdən biri itkin düşmüş şəxslər üzrə BMT Xüsusi məruzəçisinin mandatının yaradılmasıdır. Təşəbbüs, əslində, həm humanitar hüququn qorunması, həm də münaqişə bölgələrində cavabdeh tərəflərin məsuliyyətinin artırılması baxımından əhəmiyyətlidir. Bakı bununla bir daha göstərir ki, münaqişədən sonrakı dövrdə də beynəlxalq hüquqi mexanizmlərin işlək vəziyyətə gətirilməsində maraqlıdır.

* * *

2025-ci ilin avqustunda BMT Baş katibinin bəyanatı Azərbaycan–Ermənistan münasibətlərində yeni mərhələnin başlanğıcını təsdiqlədi. ABŞ Prezidentinin şahidliyi ilə imzalanan çərçivə sazişinin BMT tərəfindən yüksək qiymətləndirilməsi Azərbaycan diplomatiyasının effektivliyini və qlobal aktorlarla koordinasiyalı fəaliyyət qabiliyyətini ortaya qoyur. BMT ilə əməkdaşlığın digər perspektivli nümunəsi 2026-cı ildə Bakıda Dünya Şəhər Forumunun 13-cü sessiyasının keçirilməsi olacaq. Forum həm şəhər planlaması, həm də dayanıqlı inkişaf məsələlərində beynəlxalq təcrübənin paylaşılması üçün platforma yaradır.

Beləliklə, Azərbaycan–BMT münasibətləri ölkənin beynəlxalq siyasətdə mövqeyini gücləndirən, qlobal gündəmləri formalaşdırmaq və regionda stabilliyi təmin etmək üçün davamlı diplomatik strategiya kimi qiymətləndirilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# TRIPP Ermənistanın dalandan çıxmaq şansıdır

## *Azərbaycan Prezidenti BMT Baş Assambleyasının tribunasından bu gerçəyi dünyaya bəyan etdi*

**Tarix bəzən bir anda dəyişir. İllərlə bitməyən münaqişələr, əsrlərlə davam edən ziddiyyətlər bir imza ilə çözülür. Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı məhz zamanın hökmü və şəxsiyyət qətiyyəti sayəsində yaranan reallığın dünyaya bəyan edilməsi ilə yadda qalacaq.**

Avqustun 8-də Vaşinqtonda keçirilən görüş də bunlardan biri oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə Cənubi Qafqazın müasir tarixində dönüş nöqtəsi kimi yadda qaldı. Sənəd uzun illər davam edən münaqişənin siyasi, hüquqi və psixoloji müstəvidə sonlanmasının simvolu idi. Birgə Bəyannamədə yer alan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması tərəflərin siyasi öhdəlik götürdüyünü göstərdi. 1969-cu il Vyana Konvensiyasına görə paraflama o anlama gəlir ki, müqavilənin obyekti və məqsədi artıq qəbul olunub, dəyişdirilməsi yalnız qarşılıqlı razılıqla mümkündür. Ratifikasiya mərhələsi isə sənədin daxili hüquqi prosedurlar vasitəsilə qüvvəyə minməsi və tam hüquqi rejiminə keçidi deməkdir. Bəyannamədə diqqətçəkən məqamlardan biri Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında maneəsiz əlaqənin yaradılmasıdır. Dövlət başçımızın çıxışında vurğuladığı kimi, bu, Azərbaycanın tranzit suverenliyinin tanınması anlamına gəlir, eyni zamanda, Ermənistanın beynəlxalq ticarət şəbəkəsinə çıxışını təmin edir və regionu yeni iqtisadi inteqrasiyalara hazırlayır. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" – TRIPP layihəsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluq, ÜTT prinsiplərinə inteqrasiya və ABŞ-ın siyasi zəmanəti altında regional iqtisadi əməkdaşlıq üçün hüquqi əsas yaradır.

İlham Əliyevin Baş Assambleyanın sessiyasında çıxışı zamanı söylədiyi fikirlər bunu bir daha təsdiqləyir: "Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP)". Bəli, illər boyu kəsilmiş əlaqələrin yenidən qurulması tarixi ədalətin təntənəsidir. TRIPP dəhlizi ölkəmizi Mərkəzi Asiyadan Avropaya, Şimaldan Cənuba uzanan beynəlxalq yolların əvəzsiz mərkəzinə çevirir. Rəsmi İrəvanın da layihədən kifayət qədər faydalanmaq imkanı var. Hətta Ermənistan üçün Zəngəzur dəhlizi (TRIPP) yeni iqtisadi nəfəs qazanmaq anlamına gəlir desək, yanılmarıq. Məhz TRIPP rəsmi İrəvanı beynəlxalq ticarət şəbəkəsinə bağlaya, inkişaf yoluna apara bilər. Bu isə siyasi iradə və tarixi fürsəti dəyərləndirmək bacarığı ilə mümkündür. Daha geniş miqyasda isə Zəngəzur dəhlizi (TRIPP) Cənubi Qafqazın geoiqtisadi xəritəsinin gələcəyini müəyyənləşdirəcək. Azərbaycan bu gün bütöv regionu birləşdirən strateji mərkəz rolunu oynayır. Zəngəzur dəhlizinin (TRIPP) işə salınması ilə ölkəmizin tranzit imkanları daha da genişlənəcək. Marşrut həm də regional əməkdaşlıq üçün yeni imkanlar açacaq. Respublikamızın ərazisindən keçən yüklər dəniz limanları vasitəsilə beynəlxalq bazarlara çıxacaq, bu isə siyasi-iqtisadi mənada ölkəmizin rolunu möhkəmləndirəcək. Yeri gəlmişkən, TRIPP layihəsinə sadəcə logistika nöqteyi-nəzərindən baxmaq yanlışdır. Çünki bu marşrutlar yeni münasibətlərin, qarşılıqlı etimadın və regional sabitliyin təməl daşıdır. Azərbaycan da məhz bu yanaşmanı rəhbər tutur.

Azərbaycan liderinin BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı toxunduğu digər vacib məqam 907-ci düzəlişin dayandırılmasının əhəmiyyətini vurğulaması idi: "Eyni zamanda, Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi".

Şübhəsiz ki, ABŞ Konqresinin 1992-ci il avqustun 6-da qəbul etdiyi "Azadlığı Müdafiə Aktı"na əlavə etdiyi 907-ci düzəlişin ləğvi Azərbaycan diplomatiyasının uğurlarından biri kimi tarixə düşüb. Düzəliş, əslində, müstəqilliyini yeni bərpa etmiş, siyasi və iqtisadi təlatümlərlə üz-üzə qalmış ölkəmizə qarşı böyük ədalətsizlik idi. 1992-ci ilin ağır və qaranlıq günlərini xatırlayaq... Azərbaycan bir tərəfdən Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarını itirir, yüz minlərlə insan evindən didərgin düşür, digər tərəfdən isə SSRİ-nin dağılması ilə bütün iqtisadi bağlar qırılır, sosial həyat iflic vəziyyətinə düşüb. Bu cür gərgin zamanda beynəlxalq institutların dəstəyinə ən çox ehtiyac duyan Azərbaycan ABŞ Konqresinin ədalətsizliyi ilə üzləşir. Ermənistan bu illər ərzində ABŞ-dan milyardlarla dollar yardım alaraq həm iqtisadi güc topladı, həm də beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə çalışdı. Halbuki Azərbaycanın şəhərləri yerlə-yeksan edilir, kəndləri viran qalır, qaçqın və məcburi köçkünlər çadırlarda yaşamağa məhkum edilirdi. Elə məsələnin ironiyası da bunda idi. Ona görə də Tramp administrasiyasının 907-ci düzəlişi qüvvədən salması keçmiş ədalətsizliyin aradan qaldırılmasından əlavə, Azərbaycan–ABŞ strateji tərəfdaşlığının yeni mərhələyə yüksəlməsinə verilən töhfədir. Bu addım iki ölkə arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişlənməsinə, qarşılıqlı maraqların qorunmasına və regional sabitliyin möhkəmlənməsinə əhəmiyyətli stimul verir. Vaşinqton görüşündən yaranmış yeni imkanlar, Bakı–Vaşinqton əlaqələrinin qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsipləri üzərində qurulduğunun təsdiqidir.

*Nəzrin ELDARQIZI*
*XQ*

### Ekspert rəyi



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı təkcə Azərbaycanın mövqelərinin beynəlxalq auditoriyaya təqdimatı deyil, həm də son dövrlərdə regionda formalaşmış yeni geosiyasi reallıqların təsdiqi idi. Dövlət başçısı beynəlxalq tribunadan həm Vaşinqtonda əldə olunan razılaşmalar, həm də TRIPP dəhlizi və 907-ci düzəlişin icrasının dayandırılması barədə verdiyi mesajlarla ölkəmizin diplomatik üstünlüyünü bir daha nümayiş etdirdi. Vaşinqtonda əldə olunan razılaşmalar Azərbaycan diplomatiyasının ən mühüm uğurlarından biri kimi qiymətləndirilməlidir. Bu razılaşmaların mahiyyəti ondan ibarətdir ki, artıq Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olunması prosesi Azərbaycanın diktə etdiyi şərtlər əsasında irəliləyir. Ölkə başçısının çıxışında diqqətçəkən mühüm məqam Zəngəzur dəhlizi – TRIPP marşrutu ilə bağlı idi. Bu nəqliyyat marşrutu Azərbaycanın təşəbbüsü ilə formalaşan və Avrasiya məkanını birləşdirən strateji layihədir. TRIPP marşrutu təkcə region ölkələri üçün deyil, həm də Avropa və Asiya arasında yükdaşımaların sürətli və etibarlı təmin olunması baxımından qlobal əhəmiyyət daşıyır.

907-ci düzəlişin icrasının dayandırılması barədə Prezident İlham Əliyevin vurğuladığı məqam isə Azərbaycanın ABŞ siyasətində əldə etdiyi qəti diplomatik uğurun ifadəsidir. Uzun illər ərzində bu ədalətsiz düzəliş Azərbaycanın maraqlarına zidd məhdudiyyətlər yaratmış, ABŞ-la münasibətlərdə gərginlik mənbəyi olmuşdur. Lakin reallıqlar, Azərbaycanın regionda yaratdığı yeni siyasi və hərbi vəziyyət Vaşinqtonu bu düzəlişin icrasını dayandırmağa məcbur etdi. Prezident İlham Əliyev bu faktı BMT tribunasından diqqətə çatdırmaqla göstərdi ki, Azərbaycan artıq beynəlxalq münasibətlərdə mövqelərini qəbul etdirən, siyasi gücü ilə yeni reallıqlar formalaşdıran dövlətdir. Bu, həm də ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü və regional sabitlikdəki rolunu açıq şəkildə tanımasının göstəricisidir.



# Türk Dövlətləri Təşkilatı: yeni çağırışlar

**III məqalə**

### “Bir millət, iki dövlət”: birliyin təməl tezisi

Keçən əsrin 90-cı illərində dünyanın çox qarışıq və ziddiyyətli geosiyasi mənzərəsi fonunda Azərbaycandan birləşdirici və aydınlaşdırıcı bir səs yüksəldi: Bir millətin iki dövləti bir-birinə dayaq olmalıdır! Həmin dönəmdə bədxah dairələr Azərbaycanı dövlət və ölkə olaraq “külə döndərmək” planlarını davamlı həyata keçirirdilər. Yüzillər boyu ermənilərə aşıladıqları türkə və müsəlmana nifrət ideologiyası fonunda faktiki olaraq “türk torpaqları sənindir və orada öz dövlətin olmalıdır” kimi şizofrenik təbliğat öz amansız fəsadlarını verməkdə idi. Onun praktiki təzahürü 1988-ci ildən başlayaraq Qərbi Azərbaycandan və Qarabağdan amansızcasına həyata keçirilən deportasiya oldu.

Həmin dönəmdə hansısa mənada real türk birliyindən və ya həmrəyliyindən danışmaq mümkün idimi? Mərkəzi Asiyadan Özbəkistandan başqa səsi çıxan olmadı. Ankara praktiki dəstək verə bilmədi, bəyanatlar, sözlər nəticəverici olmadı. İndi də “Türkiyə nə üçün Kəlbəcərdən insanlarımızı təxliyə etmək üçün helikopter vermədi” kimi sualları bəzən müzakirə edirik. Bu sualdan dostlar və qardaşlar həmin dövrdə türk ölkələrinin münasibətlərinin real mənzərəsini yaratmaq üçün yararlanırlarsa, dost olmayanlar “Türkiyə Azərbaycanı nəzərə almadı” kimi təxribatçı suallar ortaya atmaq üçün istifadə etməkdədirlər.

Yeri gəlmişkən, hətta II Qarabağ müharibəsindən sonra “Osmanlı filan vaxtda elə etdi, Batumidəki danışıqlarda belə etdi” kimi aravurucu sualları beynimizə yeritməyə çalışırlar. Bu yararsız işdə Azərbaycandakı məhdud sayda “tarixçi alimlər” də iştirak edirlər. Türkiyədə kökü, mənşəyi bəlli olmayan elmi, siyasi və ideoloji kəsimlər də bir qədər başqa formada iki qardaş arasını pozmağa çalışırlar.

Bu müqayisəni niyə aparırıq? İndi bir çox məsələlərin iki qardaş dövlətin birgə uğurla həll etdiyi mərhələdə aramızı vurmaq istəyənlər vardırsa, təsəvvür edin XX əsrin 90-cı illərinin əvvəllərində tənha qalmış Azərbaycan hansı halda idi? Qardaş dediyi dövlətlərdən bir kəramət yoxdu. Beynəlxalq aləm adlandırılan dünyadan qərəzli münasibətdən başqa bir siqnal gəlmirdi. Ermənilərə tam tərəfkeşlik edən və hətta bizləri hədələyən Moskva isə işindən qalmırdı. Obrazlı desək, türk birliyi haqqında düşünməli olan dövlətin Azərbaycan olacağı kimsənin ağlına gəlmirdi. Azərbaycan özünün ölkə və respublika kimi qalıb-qalmaması məsələsi ilə çarpışırdı.

Belə bir şəraitdə bir Ulu Türk Liderin möhtəşəm səsi ucaldı: “Bir millət, iki dövlət”! Bu, möcüzə deyildi, əsrlərdir öz türklüyünü hər kəsə sübut etməklə məşğul olan Böyük Azərbaycan ruhunun ənənəsinin növbəti təzahürü idi! O mənada qanuni hal idi, gözlənilən idi! İdeyalar məkanı Azərbaycan öz varlığını, yenilməz iradəsini bir daha nümayiş etdirdi!

Şübhəsiz, “bir millət, iki dövlət” kəlamını, səslənişini, dəvətini məhdud dərk edənlər burada hansı anlamda bütövlükdə türk dövlətlərinin birliyindən söhbət getdiyi haqqında şübhəyə düşə bilərlər. Lakin bu tezisə son yüzillərdə türk xalqlarının real vəziyyətləri və 90-cı illərin sərt geosiyasi gerçəkliyi kontekstində baxanda, bir millətin iki dövlətinin olmasının çox geniş və dərin anlamına vara bilərik.

### 1-ci arqument

Səfəvi və Osmanlının süqutundan sonra böyük dövlətlər müxtəlif bəhanələrlə, ümumiyyətlə, türk dövlətçiliyini yer üzündən silmək kursunu götürmüşdülər. Bunun fonunda türk xalqlarının bir-birinə laqeydliyi getdikcə artırdı və yad dövlət, mədəniyyət, sosial elementlər daha mütərəqqi reallıq sayılırdı. XX əsrin sonlarına qədər tam müstəqil türk dövlətindən danışmaq çox çətin idi.

### 2-ci arqument

Türk ölkələri arasında əlaqələr türk kimliyi üzərində deyil, onların daxil olduqları siyasi rejimlərin dominant yad ideologiyası əsasında qurulurdu. Məsələn, Türkiyə, ümumiyyətlə, düşmən dövlət kimi təqdim edilirdi. Onu NATO-nun üzvü kimi müharibə oluna biləcək ölkələr sırasında ali məktəblərin hərbi kafedralarında anladırdılar. Avtomatik olaraq azərbaycanlı, qazax, özbək, qırğız və türkmən gənc, Türkiyəyə qarşı savaşmağa hazır kadr kimi yetişdirilirdi.

SSRİ tərkibində olan Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan başlıca olaraq Moskvanın maraqlarına uyğun olan sferalarda və səviyyədə əlaqə qura bilərdilər. İstənilən özünütəsdiq dərhal düşmənçilik sayılır və “günahkarları” cəzalandırırdılar. Bu “cəza” da vəhşi üsulla həyata keçirilirdi.

Hətta iqtisadi sferada sürətli inkişafa nail olan türk respublikalarının rəhbərləri belə cəza hədəfinə minbir bəhanə ilə çevrilirdilər. Azərbaycan və Özbəkistanın bununla bağlı çəkdikləri zülm məlumdur.

### 3-cü arqument

Belə alınır ki, türk dövlətlərinin birliyinə rəvac verə biləcək siyasi, ideoloji, geosiyasi zəmin keçən əsrin 90-cı illəri də daxil olmaqla uzun bir dönəmdə mövcud deyildi, hətta bu barədə düşünmək yasaqdı. Üstəlik, XX əsr boyu az-çox müstəqil ola bilən yeganə türk dövləti Türkiyə idi ki, o da qardaş dediyi azərbaycanlıları xilas etmək üçün 2 helikopter belə verə bilmədi.

Gerçək olanı türk xalqlarının daim qəlblərində törəyə, ənənəyə, mədəniyyətə, milliliyə olan tükənməz sevdası idi! Yalnız bu sevgiyə dayanan ideya türkləri birləşdirə bilərdi. Həmin ideyanın təməlində isə “türk toplumu” anlamı yerləşməli idi. Həm də onun mərkəzi ideyası tarix, dil, mədəniyyət, din kimi dəyərləri ciddi surətdə nəzərə almalı, onlardan intişar etməli idi.

### Toplumsal təməl: bir millət

Vurğuladığımız üç arqumentin vəhdəti ulu öndər Heydər Əliyevin məşhur “bir millət” anlayışında ifadəsini tapmışdır. Heydər Əliyevin kəlamı kontekstində “bir millət” və “iki dövlət” anlamlarının özəl məna çalarları mövcuddur. Onları nəzərə almadan Ulu öndərin dahiyanə formulunun məna yükünü adekvat dərk edə bilmərik.

Heydər Əliyev türk dünyasının birliyinin hər şeydən öncə ontoloji mahiyyətə malik olduğunu məharətlə diplomatik dildə vurğulamışdır. Türk dövlətlərinin birliyinin təməli məhz həmin toplumsal ontoloji reallıqdan başlayır. Yəni tarixin sonsuz zaman axınında, dünyanın sərt siyasi və geosiyasi gerçəklikləri fonunda türk xalqlarının birliyi məsələsi nə olur-olsun, mahiyyətini dəyişmir və dəyişə bilməz. Çünki bu birliyin kökü ontolojidir, həyatın, dünyanın, gerçəkliyin özüdür.

Bu ontolojiliyi təmin edən bir neçə faktor vardır. Onlar qan olaraq eyni kökdən gəlmək, toplum olaraq eyni özünüyaratma qanununa malik olmaq (Yosun Qanunu), ənənəni ötürmək mexanizmi olaraq törəyə söykənmək (“törə” tarixi zamandan asılı olaraq məna, funksiya və məqsədcə çoxaspektli olur, yəni dinamik dəyişən tarixi, sosial-mədəni kodlar sistemidir) və bunların üzərində bərqərar olan ortaq adət-ənənə, mədəniyyət, dil və din məfhumlarıdır.

Türklərin birgəyaşam üsullarının vurğulanan ontoloji əsası hər bir tarixi mərhələdə kollektiv mövcudolmanın substantiv və funksional xüsusiyyətlərini vəhdətdə təşkil edir. Yəni türklər ailə, qəbilə, tayfa, tayfalar birliyi, xalq və millət kimi mövcud mərhələnin özəlliklərinin yaratdığı bir sıra fərqliliklərə baxmayaraq ontolojidə fərqlənmirlər. Onlar ailə, qəbilə, tayfa və xalq kimi hansı təməl prinsiplərə görə özlərini yaradırlarsa, millət kimi də eyni mexanizmdən istifadə edirlər. Bütün bunların mərkəzi faktoru isə türk mədəniyyətidir! Bu məqam Ulu öndərin tarixi kəlamının birinci hissəsinin başlıca tezisidir.

Məhz vurğulanan ontoloji mövcudluq sərhədləri daxilində türkiyəlilər, azərbaycanlılar, qazaxlar, özbəklər, qırğızlar, türkmənlər Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan cəmiyyəti olaraq özünəməxsusluqlarını saxlamaqla geniş anlamda vahid türk tolpumsallığını təşkil edirlər. Həmin mənada türk xalqları “bir millət”dirlər, onun təkrarsız və tam bərabərhüquqlu üzvləridirlər. Təkrarsızlıq və bərabərhüqluluq Ulu öndərin kəlamında mərkəzi şərt və ya tezis yerindədir.

Maraqlıdır ki, onun tam anlamı kəlamın ikinci hissəsinin mənasından avtomatik alınır.

### Siyasi təməl: iki dövlət

Birliyin siyasi təməlinin formalaşması, ümumiyyətlə, insan övladının birgəyaşamının ümumi mahiyyətindən qaynaqlanır. Məsələnin digər mühüm tərəfi dövlət quran qövmlərin həyatında siyasi faktorların çox əhəmiyyətli rol oynaması ilə bağlıdır. Tarixi təcrübə göstərir ki, türklər Avrasiyada ən fəal dövlət quran qövmlərdəndir. Deməli, onların ontoloji birliyinin mütləq siyasi ifadəsi olmalı idi. Bu o deməkdir ki, türk xalqları arasında münasibətlərin formalaşmasında dövlətçilik ön sırada yer almışdır. Dövlət qurmaqda zəif və passiv olan qövmlər üçün siyasi təməl bu dərəcədə qabarmaya və həssas olmaya bilər. Lakin türk xalqları tarixindən bunu təsəvvür etmək mümkün deyildir.

Bunların fonunda nə üçün Heydər Əliyevin bir millət vurğusundan sonra “iki dövlət” anlamını önə çəkməsinin səbəbi aydın olur. Konkret olaraq, Türkiyə–Azərbaycan münasibətləri kontekstində bu o deməkdir ki, müasir tarixi dönəmdə türk birliyi məsələsində geniş anlamda bir millətin “bağırından” çıxmış iki dövlət “qardaş” olmalıdırlar. Bu mənada millət türk dövlətçiliyinin “anası”dır (Konstitusiyada xalq suverenliyinə verilən önəmi xatırlayaq). Türk dövlətləri “türk ailəsi”ni təşkil edirlər (“bizim ailəmiz türk ailəsidir” – Prezident İlham Əliyev).

### Mühüm nəticə

“Bir millət, iki dövlət” kəlamı Azərbaycan–Türkiyə münasibətlərinin yeni mərhələyə keçməsində istiqamətverici, müəyyənedici və mənayaradıcı rol oynamışdır. Həmin kəlamın məna çalarları və yeni məzmun formalaşdırma potensialı iki türk dövlətinin birlik modelini bütün türk dövlətlərinə, bir ailənin üzvləri kimi, proyeksiya etməyə imkan yaratmışdır. Yəni “bir millət, iki dövlət” kəlamı prosesdə iştirak edən ölkələrin sayını deyil, onların qarşılıqlı münasibətlərinin mahiyyətini, məzmununu və məqsədini ifadə edir. Buna görə də onu “bir millət, altı dövlət” anlamında genişləndirmək çətin deyildir.

Burada əsas ideya türk ailəsinin bir millət kimi qəbul edilməsi və onun təməlində hər bir türk xalqının öz dövlətinin olmasını təşviq etməklə vahid təşkilatlanma mexanizmləri üzərində TDT-ni yaratmaqdan ibarətdir.

Beləliklə, Türk Dövlətləri Təşkilatının meydana gəlməsi dərin tarixi, siyasi, geosiyasi faktorlarla sıx bağlıdır. Bu anlamda TDT sıradan bir qurum deyildir. Onu aradan qaldırmaq üçün türk xalqlarının tarixini tərsinə yönəltməlisən ki, bu da imkansızdır. Buradan indiki mərhələdə türk dövlətləri arasında nifaq salmağa cəhd edənlərin əslində kim olduqları nəticəsini almaq çətin deyildir. Həmin bağlılıqda da ideoloji və təbliğati aspektlərdə müşahidə edilən bir sıra tendensiyaların üzərində dayanmaq zəruridir. Türk dünyasında və onun ətrafında nələr baş verir?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Revanşistlərin terror ehtimalı

## *Ermənistan hakimiyyəti verəcəyi qərarları, atacağı addımları yüz ölçüb, bir biçməlidir*

**Bu gün regional münaqişələr artıq lokal çərçivədə qalmır, qlobal təhlükəsizlik sistemini silkələyir. Qüvvələr nisbəti dəyişdikcə böyük dövlətlərin maraq savaşları beynəlxalq hüququ zəiflədərək xaosu dərinləşdirir. Geosiyasi rəqabətin güclənməsi kiçik xalqları böyük güclərin oyun taxtasında “piyadaya” çevirir. Enerji resursları və siyasi nüfuz uğrunda gedən mübarizə regionları qeyri-sabit vəziyyətə gətirir. Xaosun yaratdığı boşluqdan isə avantüristlər və terrorçu qruplar faydalanır.**

Onlar dövlətlərin nəzarətdən çıxan ərazilərində məskunlaşır, “ideoloji zəhər”ini yayır, yeni terror dalğaları üçün zəmin hazırlayırlar. Ona görə də bu cür problemlər lokal və birtərəfli yanaşmalarla həll edilə bilməz. İqtisadi maraqların ədalətli bölüşdürülməsi, beynəlxalq hüquqa hörmət və qlobal əməkdaşlıq olmadan sülh qazanılmayacaq.

Dünya ya qanlı ssenarilərin qurbanına çevriləcək, ya da bəşəriyyətin birgə səfərbərliyi ilə sabaha çıxacaq. Tarix bu seçimin nəticəsini gələcək nəsillərə miras qoyacaq.



Prezident İlham Əliyevin “Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bu narahatlıqlar öz əksini tapıb.

Ölkə başçısının müraciətində qeyd olunub ki, müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır: “Eyni zamanda, beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur”.

Prezidentin xəbərdarlığı mövcud riskləri bir daha gündəmə gətirir. Bunu Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra görmək mümkündür. Ölkənin siyasi və ictimai həyatında mövcud olan revanşist qüvvələr prosesə qarşı çıxır və onların radikal metodlara əl atması istisna edilmir. Prosesdə xüsusilə ASALA və VOVA terror qruplaşmaları diqqət çəkirlər. ASALA hələ Ermənistan müstəqillik qazanmadan öncə terror fəaliyyəti ilə məşhurlaşmış, türk diplomatlarına qarşı qanlı hücumlar təşkil etmişdi. 1970–80-ci illərdə qrup yüzlərlə günahsız insanın həyatına son qoyub. Hazırda fəaliyyəti zəifləsə də, onun ideoloji xətti müəyyən radikal dairələrdə yaşamaqdadır. Xaricdəki bəzi erməni diaspor strukturları bu ideologiyanı zaman-zaman diriltməyə çalışmaqla revanşizmi körükləyirlər. Ona görə də ölkə daxilində sülh prosesinə qarşı çıxan qüvvələrin ASALA-nın köhnə metodlarına müraciəti təhlükəsi realdır.

Son illər ortaya çıxmış VOVA daha çox kriminal-terrorizm elementlərini birləşdirən şəbəkə kimi tanınır, Ermənistan daxilində silahlı insidentlər, qanunsuz fəaliyyət və siyasi dairələrlə gizli əlaqələrdə adı hallanır. VOVA tipli təşkilatların mövcudluğu göstərir ki, ölkədə qeyri-leqal silahlı dəstələr hələ də mövcuddur və siyasi qarşıdurmalar kəskinləşdikcə onların fəallaşması mümkündür. Belə qrupların aktivləşməsi təkcə Ermənistan yox, bütün region üçün risk yaradır. Çünki terror lokal xarakter daşımır, onun nəticələri sərhəd tanımır. Ermənistan təhlükəsizlik məsələlərini yenidən nəzərdən keçirmədiyi təqdirdə, radikal şəbəkələrin kölgə iqtisadiyyatına, silah qaçaqmalçılığına və xarici himayədarların dəstəyinə söykənərək güclənməsi ehtimalı yüksələcək. Hazırda terrorun simvoluna çevrilən kilsənin də Paşinyanı devirmək üçün əlindən gələni edəcəyi istisna olunmur. Paşinyanla kilsə arasında mövcud qarşıdurmanı nəzərə alsaq, baş nazirin də təhlükənin fərqində olduğunu söyləmək mümkündür.

Beynəlxalq təcrübə göstərir ki, terror qruplarından daha çox sülh proseslərini sabotaj etmək üçün istifadə olunur. Rəsmi İrəvanda siyasi parçalanma, revanşist müxalifətin təxribatçı ritorikası və diaspor mərkəzlərinin təsiri radikal təşkilatların yenidən səhnəyə çıxması üçün zəmin yaradır. Əgər dövlət bu təhlükəni vaxtında cilovlaya bilməsə, Ermənistan yeni terror dalğasının episentrinə çevrilə bilər. Onsuz da siyasi rəqibləri tərəfindən zəiflikdə ittiham olunan baş nazir terrorçu qüvvələrin aktivləşdiyi şəraitdə öz hakimiyyətini qorumaqda çətinlik çəkəcək. Müxalif revanşist dairələr, xüsusən də “eks”lər bu fürsətdən istifadə edərək Paşinyanı “erməni maraqlarını satmaqda” günahlandıracaq və terroru onun sülh siyasətinin nəticəsi kimi təqdim edəcəklər. Bu isə ictimai rəyi parçalayacaq, hakimiyyətin dayaqlarını zəiflədəcək, beynəlxalq müstəvidə Ermənistanın imici bir daha ciddi zərbə alacaq. Nəticədə Qərb institutlarının, region ölkələrinin Ermənistanla əməkdaşlığa marağı azalacaq. Çünki heç bir ölkə terror riski olan dövlətlə yaxınlıq etmək istəməz. Eyni zamanda, terror təhlükəsi Paşinyanı daha çox xarici asılılığa məcbur edəcək. Hakimiyyət mövcud təhlükəni cilovlamaq üçün xaricdə dəstək axtaracaq, bu isə rəsmi İrəvanın suveren qərar vermək imkanlarını məhdudlaşdıracaq. Ehtimal olunan digər təhlükə terrorun Ermənistan daxilində “paralel güc mərkəzləri” yaratmasıdır.

### Ekspert rəyi



**Arzu NAĞIYEV,**
**Milli Məclisin deputatı**

**Prezident İlham Əliyevin “Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bir neçə vacib məqam vurğulanıb.**

Onlardan biri terror təşkilatları ilə bağlıdır. Müaciət hazırda sülh istiqamətində addımladığımız Ermənistanda terrorçu təşkilatların tam ləğv olunmaması məsələsini yenidən gündəmə gətirir. Çünki bu cür qurumlar yalnız region üçün deyil, həm də qlobal təhlükəsizlik üçün ciddi risk yaradır. Avqustun 8-də baş tutan Vaşinqton görüşündən sonra Ermənistanda revanşist dairələr fəallaşıb. Paşinyan hakimiyyəti daxildə kəskin tənqidlərə məruz qalır, müxtəlif qüvvələr sülh prosesini əngəlləmək üçün ona təzyiq göstərirlər. Onlar Paşinyanın Türkiyə və Azərbaycanla münasibətləri yaxşılaşdırmaq niyyətini pozmaq məqsədilə müxtəlif variantlar axtarırlar. Bu kontekstdə terror təşkilatlarını siyasi alətə çevirmək cəhdləri də istisna deyil. Revanşistlər, o cümlədən Koçaryan və Sarkisyan kimi siyasi çevrələr gərginliyi yenidən alovlandırmağa çalışırlar. Ona görə də həmin qüvvələrin terrorçu şəbəkələrdən istifadə edərək kütləvi etirazlar, təxribatlar təşkil etməsi ehtimalı böyükdür. Bu, Paşinyan iqtidarı üçün real təhlükədir və 2026-cı ildə keçiriləcək seçkilərlə bağlı gərginliklər fonunda narahatlıq mənbəyidir. Tarixdən məlumdur ki, beynəlxalq erməni terror təşkilatları müəyyən dövrlərdə fəaliyyət göstərərək təqib və tədqiqata cəlb olunublar. Bölgədə sülhün təminatı üçün Ermənistan öz ərazisində fəaliyyət göstərən terrorçu və irredentist qüvvələri ləğv etməlidir. Əks halda, növbəti mərhələdə bu təhlükə qalacaq və zərərverici amillər aradan qalxmayacaq. Bu günlərdə Ermənistan xüsusi xidmət orqanlarının nümayəndə heyəti Azərbaycana gəldi. Koordinasiyalı əməkdaşlıqla bu məlumatlar paylaşılmalı və həmin təşkilatların neytrallaşdırılması istiqamətində addımlar atılmalıdır.

Beləliklə, VOVA tipli silahlı qruplar və ASALA xəttinin davamçıları aktivləşsə, Ermənistan faktiki olaraq dövlət nəzarətindən kənar silahlı qüvvələrin meydanına çevrilə bilər. Bu isə Paşinyan hakimiyyətinin sonunu yaxınlaşdırar...

***Nəzrin ELDARQIZI***
***XQ***

# 27 Sentyabr – şəhid qanıyla yazılan tarix

**Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından beş il ötür. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgərlərimizin və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Xalqımız hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bu yolda qurban gedən şəhidlərimizin xatirəsini uca tutur. Əbədiyyətə qovuşan şəhidlərimiz öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırıb. Hər günü bir qəhrəmanlıq dastanı olan, Azərbaycan tarixinə parlaq səhifə kimi yazılan 44 günlük Vətən müharibəsi ölkəmizin hərbi gücünün, Ordumuzun haqq işi uğrunda ədalətli savaşının nümayişinə çevrildi.**



*Fəzail İBRAHİMLİ,*
*Milli Məclisin deputatı*



Azərbaycanın Vətən savaşı, əslində, dünyanın haqq savaşı olmalı idi. Çünki 200 il ərzində xarici himayədarlarına güvənən ermənilər işğalçılıq, talan, soyqırımı kimi qeyri-insani əməllərə imza atmışdı. 1988-ci ildə Ermənistanın Dağlıq Qarabağ bölgəsini ilhaq etmək istəyi ilə başlanan son münaqişə, Sovet İttifaqının dağılması və Azərbaycanın müstəqillik qazanması ilə yeni mərhələyə keçdi. 1988-94-cü illərdə davam edən Birinci Qarabağ savaşını, Vətən müharibəsini etiraf etmək nə qədər çətin olsa belə, uduzmaq, məğlub durumuna düşmək məcburiyyətində qalmışdıq. Azərbaycanı gücsüz və müdafiəsiz görən zalım düşmən “arxalı köpək qurd basarcasına” torpaqlarımızın 20 faizindən çoxunu işğal etmiş, bir milyondan artıq insanımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmışdı. Təbii ki, bunlara tək özü nail olmamışdı. Arxasında dayananların, havadarlarının, çirkli çevrələrin, gözləri qandan, insanlıq dramlarından doymayan güc mərkəzlərinin, onlara Azərbaycan-Türk torpaqlarında qondarma dövlət yaradanların sayəsində nail olmuşdu. Ötən dövr ərzində - 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçılığını birmənalı pisləyən, onun işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnaməsinin qəbul edilməsinə baxmayaraq, onların heç biri icra edilməmiş, yerinə yetirilməmişdir. 1992-ci ildə ATƏT-in Minsk qrupunun yaradılmasına, ona münaqişənin sülh və danışıqlar yolu ilə həllində vasitəçilik missiyasının etibar edilməsinə, Rusiya, Fransa və ABŞ-ın iştirakı ilə həmsədrlər institutunun təşkil edilməsinə baxmayaraq, münaqişə həll olunmamış, dondurulmuş vəziyyətdə qalmışdı. Nə 4 qətnamə qəbul edən BMT və onun Təhlükəsizlik Şurası, nə də ATƏT, Minsk qrupu və həmsədrlər bu dövr ərzində əllərində olan təsir və təzyiq mexanizmlərini işə salmamış, Ermənistana sanksiyalar tətbiq etməmiş, onu cəzalandıraraq, işğaldan geri çəkindirməyə nail olmamışdır. İkili, üçlü, beşli standartlarla, işğalçı ilə işğala məruz qalanı eyniləşdirən, bir çox hallarda da işğalçını növbəti işğala stimullaşdıran, iştahlandıran davranışlara yol verməsəydilər, münaqişə çoxdan, ədalətli və müsbət həllini tapmış, bölgədə sülh və əmin-amanlıq çoxdan bərqərar edilmiş olardı. Amma öz cılız, dar maraqları, çıxarları naminə bunu etmədilər, əslində, Ermənistandan Azərbaycana qarşı bir təzyiq, bir silah kimi istifadə etməyə, Azərbaycanı öz Haqq mübarizəsindən çəkindirməyə, tutduğu müstəqil inkişaf yolundan döndərməyə çalışdılar. Ancaq bir şey bəllidir ki, sivil dünyada yaşadığımızı iddia etdiyimiz bir dövrdə ermənilərin dinc insanlara, işğal etdikləri torpaqlara, bu torpaqlar üzərində insanların alın təri ilə ərsəyə gəlmiş minlərlə tikililərə, o cümlədən bəşəri əhəmiyyət daşıyan tarixi-mədəni abidələrimizə qarşı törədilmiş cinayətlər heç də sivil dünyanın sakinlərinə xas olan hərəkətlər deyildi. Bütün bunları ermənilər bizim torpaqlarımızda, bizim şəhər və kəndlərimizə qarşı və nəhayət bizim xalqımıza qarşı etmişdilər. Nəhayət, onların 27 sentyabr 2020-ci il tarixində cəhd göstərdiklri növbəti hərbi təxribat azadlıq müharibəsinin alovlanması üçün bir qığılcım oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən Vətən müharibəsinin başladığı günün – sentyabrın 27-nin Anım Günü kimi qeyd edilməsi qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Vətən müharibəsində şanlı Qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən qanlı döyüşlərdə 3 minə yaxın əsgər və zabitimiz şəhid olub. Şəhid və qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini təkcə 27 Sentyabr - Anım Günü deyil, həmişə ehtiramla yad edir. Bu gün istər şəhid ailələri, istərsə də qazilərimiz hərtərəfli dövlət qayğıları ilə əhatə olunurlar. Hələ müharibənin ilk günlərində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitala baş çəkərək yaralı əsgərlərimizlə görüşür, onlarla söhbətləşir, müalicə şəraiti ilə maraqlanırdılar. “Mən hər zaman qazilərin yanında olacağam”, - deyən Prezident İlham Əliyev, əslində, cəmiyyətimizdə bütün müharibə iştirakçılarına olan münasibətini nümayiş etdirirdi. Yaralanmış müharibə iştirakçılarının reabilitasiyası və onların sosial məsələlərinin həlli istiqamətində çoxşaxəli işlər həyata keçirilir. Bu, bir daha sübut edir ki, dövlətimiz hər zaman öz əsgərinin yanındadır. Biz sadəcə 27 sentyabr tarixində deyil, hər zaman qəhrəman şəhidlərimizi sevgi ilə anır, onlarla fəxr edir, qəlbən öz minnətdarlığımızı bildiririk. Çünki dövlətimizin ərazi bütövlüyü məhz onların sayəsində bərpa olunub. Xalqımız öz mənəvi bütövlüyünü, öz qürurunu məhz onların igidliyi, fədakarlığı sayəsində bərpa edib. Məhz onların sayəsində biz hər kəsin gözünə dik baxa, öz milli kimliyimizlə fəxr edə, işğaldan azad edilən torpaqlarımızda azad və qürurla gəzə bilirik.

Müharibənin birinci günü Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdə törətdiyi təxribatlara cavab olaraq Ordumuzun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını bəyan etdi: “Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Dövlət başçısının xalqa müraciətində dediyi bu sözlər hər bir azərbaycanlını düşmən üzərində Qələbəyə ruhlandıran şüara çevrildi. Vətən müharibəsi dövründə ölkə başçımız bütün siyasi təzyiqlərə və təhdidlərə sinə gərdi. Dövlətimizin başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın aparıcı media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. Prezident İlham Əliyev xüsusilə yenilməzlik və özünəməxsus prinsipiallıq nümayiş etdirərək xalqımızın milli maraqlarını qətiyyətlə müdafiə etdi, dahiyanə taktiki həmlələrlə ardıcıl və məqsədə köklənmiş siyasət apararaq möhtəşəm bir tarixi qələbə qazandı. Şübhəsiz ki, şanlı qələbəmiz “Nəyi nə vaxt, necə edəcəyimizi bilirik” deyən Müzəffər Ali Baş Komandanın müdrik bir sərkərdə qətiyyətinin məntiqi təzahürü, həm də dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olduğunun bəyanı idi. İkinci Qarabağ müharibəsi dövründə cənab Ali Baş Komandan İlham Əliyev xalqımıza etdiyi bütün müraciətlərində həm qələbə xəbərlərini çatdırır, həm də ordumuz tərəfindən məhv edilmiş və ya hərbi qənimət kimi götürülmüş düşmənə aid texnika və silah-sursatların siyahısını paylaşırdı. Hansı ki, bu texnika və silah-sursatlar daha sonra 10 dekabr – Zəfər paradında, Azadlıq meydanında nümayiş olundu.

Təkrarolunmaz hərbi taktika və strategiyası ilə böyük rəğbət qazanan ordumuz istər texniki təchizatı, istər nizam-intizamı, istərsə də hərbi hazırlığı ilə beynəlxalq miqyasda nümunə göstərildi. Hazırda xarici hərbi ekspertlər ən müsair Azərbaycan Ordusunun Vətən müharibəsində göstərmiş olduğu şücaət və rəşadəti əsrimizin döyüş zirvəsi kimi qiymətləndirirlər. Bu zəfərin müəllifi Ali Baş Komandan, Azərbaycan Ordusu, öz qəhrəmanlıqları ilə ad qazanmış əsgər və zabitlərimizdir. Ata yurdlarımızı düşmən əsarətindən xilas edən igid Vətən oğulları mənfur düşməni rüsvayçı təslimçilik aktını imzalamağa məcbur etdi. Məhz Qarabağımızın bağrında yer alan, mədəniyyət paytaxtımız Şuşa şəhərinin işğaldan azad olunması Ermənistanın diz çökməsi ilə nəticələndi. Davamında 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanat ölkəmizin hərbi-siyasi qələbəsinin, Ermənistanın isə kapitulyasiyasının təqdimatı oldu. İkinci Qarabağ müharibəsində qazanılan Zəfərin ən mühüm amillərindən biri xalqımızın Vətən torpaqlarının azad olunması naminə öz dövləti və ordusu ətrafında sıx birləşməsi oldu. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız, ölkəmizin haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin çirkin kampaniyalarına qarşı fədakarlıqla mübarizə apardılar. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşları görünməmiş həmrəylik nümayiş etdirdi, ön və arxa cəbhədə sarsılmaz birlik yarandı. Bu birlik və həmrəylik haqlı olaraq “Dəmir yumruq” kimi səciyyələndirilir.

İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycan zəfərdən-zəfərə doğru irəliləməkdə davam etdi. Vətən müharibəsində qazanılmış Qələbədən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə azad Qarabağımızda mühüm infrastruktur obyektlərinin təməli qoyuldu, möhtəşəm layihələrə start verildi. Şuşaya Zəfər yolu çəkildi, Füzulidə Beynəlxalq Aeroport açıldı. Zəngilan rayonunda tikilən “ağıllı kənd”ə ilkin olaraq 66 ailə, ümumilikdə 326 nəfər köçürüldü. Bununla da “Böyük Qayıdış”ın başlanğıcı qoyuldu.

27 sentyabr Azərbaycan Prezidentinin təkcə Ermənistana deyil, bütövlükdə dünya erməniliyinə vurduğu son dərəcə ağır siyasi və hərbi zərbənin başlanğıc günüdür. Cənab İlham Əliyev müharibə müddətində şəxsi keyfiyyətlərindəki qətiyyətin, dönməzliyin diplomatik bacarıq və səriştəsi ilə vəhdətini nümayiş etdirərək bildirmişdi: “Biz “bunu dayandırın, biz işləyəcəyik, danışıqlar aparacağıq, yardım edəcəyik” kimi bəyanatlara qulaq asmaq mövqeyində deyilik. Biz bunu dəfələrlə eşitmişik. Bizim daha 30 il gözləməyə vaxtımız yoxdur. Münaqişə indi həll olunmalıdır”. Bu məqamda 44 günlük Vətən müharibəsi günlərində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın özündə böyük mənəvi təsir gücünü daşıyan bir fikrini xatırlamaq yerinə düşər: “Qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin”. Bəli, uca Tanrı bizə müqəddəs Qarabağ torpağını öpməyi nəsib etdi, bizi arzularımıza qovuşdurdu.

27 sentyabr həm də arzularımızın çin olduğu gündür. Qüdrətli Azərbaycan dövləti və xalqı haqq və şərəf işimiz olan Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, canı, qanı bahasına Azərbaycan bayrağını əzəli və əbədi torpaqlarımızda dalğalandırmış şəhidlərimizin işıqlı xatirəsini daim yaşadacaq. Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş bütün Vətən övladlarının xatirəsi bu gün hörmət və ehtiramla yad edilir. Xalqımız Zəfər tariximizi yazan şəhidlərimizin əziz xatirəsini daim qəlbində yaşadır və yaşadacaq. Onların Vətən sevgisi hər birimiz üçün örnək olaraq qalacaq.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**



# Biz həmişə sizinləyik, şəhid ailələri!

**Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindəndir. Ölkəmizdə şəhid ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətinin tərkib hissəsidir. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir.**

Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən məmnunluqla qarşılanır.

Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm rol oynayır. Əhalinin həssas qruplarının, şəhid ailələrinin və döyüşlərdə sağlamlığını itirmiş şəxslərin rifah halının yaxşılaşdırılması üçün mütəmadi olaraq proqramlar qəbul edilir, layihələr icra olunur və bu istiqamətdə bütün məsələlər xüsusi diqqətdə saxlanılır. Dövlət başçısı çıxışlarında hər zaman bu insanlara qayğı göstərilməsinin vacibliyini vurğulayır.

Postmüharibə dövründə 106 min şəhid ailəsi üzvləri və müharibə veteranlarına 119 min aylıq sosial ödəniş, 25 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Statistik göstəricilər əsasında deyə bilərik ki, 11 min şəhid ailələri üzvləri və müharibə iştirakçılarına 83,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 2,3 min nəfər 76 min reabilitasiya vasitəsi, o cümlədən 493 şəxs 611 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 27 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,9 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Qeyd olunan sosial dəstək paketi ümumilikdə 131 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 391 min xidmət göstərilib.

Müharibə Zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər icra olunub.

Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-2025-ci illər ərzində şəhid ailələri, müharibə əlilləri və digər həssas qrupa aid olan insanların mənzillə tam təminatı məqsədilə Dövlət Proqramı təsdiqlənib. Bu günə kimi bu kateqoriyaya aid olan 13 mindən çox şəxs mənzil və ya fərdi evlərlə təmin edilib. Bunun təxminən 3500-ü postmüharibə dövründə verilib. Eyni zamanda qazilərin sağlamlığının qorunması, müasir protezlərlə təminatı, reabilitasiya kurslarını keçməsi üçün də mühüm addımlar atılır. Bu da onların öz sağlamlıqlarını bərpa etmələrinə imkan verir. Sosial-psixoloji xidmətlərin göstərilməsini də bu işlərə əlavə etmək olar.

Ölkə başçısının təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6,8 min mənzil və fərdi ev verilib. Müharibə əlillərini əhatə edən mühüm proqramlardan biri də avtomobillə təminatdır. Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567 avtomobil təqdim edilib.

2020-2025-ci illər ərzində şəhid ailələri üzvlərindən 1200 nəfərə qədəri müalicəyə göndərilib. Eyni zamanda Şağan qəsəbəsindəki reabilitasiya mərkəzində qazilərə tibbi yardım göstərilir. Şəhid ailələrinin, müharibə əlilləri və veteranların sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi ictimaiyyət tərəfindən minnətdarlıqla qarşılanır. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən də bu kateqoriyadan olan insanlarla bağlı müxtəlif layihələr həyata keçirilir.

Dövlətimiz bu istiqamətdə uzun illərdir ki, yürütdüyü sistemli, məqsədyönlü siyasətin nəticəsi göz önündədir. Bu gün ölkəmizdə şəhid ailələri və müharibə əlillərinə göstərilən qayğı dünyanın ən qabaqcıl ölkələrinə belə nümunə sayıla biləcək səviyyədədir. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli sərəncamında dəyişiklik edilib. Ölkə başçısının13 may 2025-ci il tarixli sərəncamı həssas kateqoriyadan olan vətəndaşlarımızın sosial rifahını yaxşılaşdırmaqla yanaşı, onların mənəvi ehtiyaclarının qarşılanması baxımından da mühüm əhəmiyyətə malikdir. Sərəncama dəyişikliyə əsasən 2020-2023-cü illərdə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri 2030-cu ilə qədər mərhələli şəkildə mənzil və ya fərdi evlə təmin ediləcəklər.

Mütəmadi olaraq şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlər keçirilir, onların məişət problemləri dövlət xətti ilə həll olunur. Hər görüşdə şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri qalib dövlətin vətəndaşları kimi Ali Baş Komandanımızla fəxr etdiklərini deyir, azad edilmiş ərazilərimizdə Azərbaycan bayrağının dalğalanmasından iftixar hissi keçirdiklərini bildirirlər. Qeyd edirlər ki, Azərbaycanın möhtəşəm Zəfərinə, Vətən torpaqlarının mənfur erməni faşizmindən xilas olmasına görə şəhidlərimizin ruhu da sevinir. Bir sözlə, dövlətimiz tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır.

***Mustafa KAMAL***
***XQ***

*Qarabağda Zəfər yürüşünün başlanmasından 5 il keçir*

# Vətən müharibəsi tarixi zərurət, ədalətin bərpası idi

## *Müzəffər Ordumuz xalqın arzusunu və beynəlxalq hüququn tələbini gerçəkləşdirdi*



**2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına cavab olaraq Azərbaycanın Ordu hissələrinin əks-hücum kimi başladığı hərbi əməliyyatlar öz miqyasına, qarşısında dayanan vəzifələrin məzmununa və xarakterinə görə Vətən müharibəsi adını aldı. Bu müharibə şərti olaraq II Qarabağ müharibəsi də adlandırılır. Azərbaycan üçün Vətən müharibəsi məzmunu alan bu müharibə 2020-ci il noyabr ayının 10-a qədər, yəni 44 gün davam etdi.**

Azərbaycanın ordu bölmələrinin bu əks-hücuma başlamaqda qarşısında dayanan başlıca vəzifə, sözsüz ki, Ermənistanın hərbi qüvvələrinin təxribatlarının qarşısını almaq, Azərbaycanın təmas xəttinə yaxın olan yaşayış məntəqələrinin atəşə tutulmasına son qoymaq, insanların təhlükəsizliyini təmin etmək idi. Bu əks-hücumların Vətən müharibəsinə çevrilməsi ilə Azərbaycan dövləti və ordusu daha geniş və strateji vəzifələri hərbi hədəf kimi qəbul etdi.

Müharibənin gedişində Azərbaycanın hərbi-strateji vəzifələri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müraciət, çıxış və müsahibələrində öz əksini tapmışdı. Bunlar aşağıdakılar idi:

– Ermənistan ordusunun bütün qüvvələrini Azərbaycan ərazisindən çıxarmaq;

– Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoymaq;

– Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədlərini və ərazi bütövlüyünü təmin etmək;

– Azərbaycan–Ermənistan, Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hərbi yolla həyata keçməsini təmin etmək;

– Ermənistan qoşunlarının qeyd-şərtsiz olaraq Azərbaycan torpaqlarından çıxmasına nail olmaq;

– Tarixi ədaləti bərpa etmək və Qarabağın dağlıq hissəsinin Azərbaycana məxsusluğunu təmin etmək;

– Azərbaycan-Ermənistan, Qarabağ münaqişəsinin tam həllinə nail olmaq.

Azərbaycan tərəfinin qarşısında dayanan bu hərbi-strateji vəzifələr Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün hazırlamış olduğu baza prinsiplərinə də uyğunluq təşkil edirdi. Yəni, əslində, Azərbaycan tərəfindən Vətən müharibəsi beynəlxalq hüquq normaları çərçivəsində aparılırdı. Ona görə, Azərbaycan Respublikasının Prezidenti bu müharibənin başlaması ilə bağlı verdiyi ilk bəyanatlarında bildirdi ki, Ermənistan tərəfi baza prinsipləri üzrə Qarabağ münaqişəsinin nizamlanmasına konkret və səmərəli yanaşarsa döyüş əməliyyatlarına da son vermək olar.

Ermənistan Respublikasının bu müharibədə qarşısına qoyduğu əsas hərbi strateji vəzifə isə Azərbaycan ərazilərinin işğal altında qalmasına, Azərbaycanın ordu qüvvələrinin əks-hücumlarının qarşısının alınmasına, hərbi üstünlüyün qorunub saxlanmasına hesablanmışdı. Ona görə də Ermənistan Respublikası hərbi təxribatlarla başlanan və sonradan da geniş miqyas alan əməliyyatların dayandırılmasına razı olmadı. Nəticədə, bütün dünyanın da diqqətini özünə cəlb etmiş şanlı müharibəyə start verildi.

Təxminən, 30 il mövcud olmuş işğalın davam etdirilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə yol verməmək üçün Ermənistan tərəfi öz hərbi potensialını möhkəmləndirməyi daim diqqət altında saxlayırdı. Bu məqsədlə Ermənistan Azərbaycanın işğal altında olan ərazilərində öz hərbi bazasını xeyli möhkəmləndirmişdi:

Qarabağın dağlıq ərazisində böyük bir hərbi qruplaşma formalaşdırılmışdı. Bu hərbi qruplaşma qondarma Dağlıq Qarabağ ordusu adlandırılsa da, onun şəxsi heyətinin əsasını Ermənistan ordusunun şəxsi heyəti təşkil edirdi. Bəzi məlumatlara görə, Qarabağdakı ordunun 70-80 faizi Ermənistan vətəndaşları idi. İşğal bölgəsində böyük hərbi texnika cəmləşdirilmişdi. Ərazidə 177-dən 371-ə qədər tank olması ehtimal olunurdu. Zirehli transportyor və piyadaların döyüş maşını 278-396 ədəd güman edilirdi. 322-yə qədər isə top və minaatan var idi ki, onlardan da 44 ədədi “Qrad” tipli yaylım atəş sistemləri idi.

İşğal edilmiş ərazilərdə Azərbaycan Ordusu ilə təmas xəttində Ermənistan tərəfindən güclü eşelonlaşdırılmış müdafiə sistemi yaradılmışdı. Bu sistem təmas xəttinin bütün perimetri boyunca uzanırdı. Həmin mühəndis-istehkam sistemi Ermənistanın Azərbaycan Ordusuna qarşı direniş strategiyasının əsasını təşkil edirdi və işğalın qorunub saxlanması üçün bu mühəndis-istehkam sisteminə böyük ümidlər bağlanılırdı.

Mühəndis-istehkam sistemi qalın dəmir-beton örtüklərdən və yeraltı tikililərdən ibarət idi. Aparılan araşdırmalar göstərir ki, bir çox yerlərdə mühəndis-istehkam xətlərinin sayı 10-a çatırdı. Təmas xətinə yaxın olan bütün hərbi texnika və artilleriya bu istehkam qurğuları içərisində gizlədilmiş və bununla onların havadan mühafizəsi təmin edilmişdi.

Şəxsi heyətin qorunması da bu mühəndis qurğuları ilə təmin edilirdi. Hər bir hərbi qulluqçu zərurət yarananda istehkam qurğularından kənara çıxmaqla malik olduğu silahı işlədir və sonra da geri qayıdaraq həmin örtülü səngərlərdə gizlənirdi. Bununla onlar qarşı tərəfin müşahidəsindən də gizlənə bilirdilər. Nəzərdə tutulmuşdu ki, hərbi əməliyyatların başlayacağı təqdirdə Azərbaycan Ordusunun bölmələri bir mühafizə xəttini aşa bilsəydilər, növbəti mühafizə xətti tərəfindən dayandırıla bilərdi.

Eşelonlaşdırılmış müdafiə xətlərində şəxsi heyətin uzunmüddətli mövcudluğunu təmin etmək və müstəqil fəaliyyət göstərmək üçün lazım olan yaşayış şəraiti də yaradılmışdı. Ön xətdə yerləşdirilmiş olan müdafiə xəttində əsasən, yüngül silahlarla silahlandırılmış piyadalar yerləşdirilmişdi. Müdafiənin dərinliklərində olan müdafiə xətlərində isə ağır silahlar, minaatanlar, toplar, raket qurğuları, silah və hərbi texnika cəmləşdirilmişdi.

Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan eşelonlaşdırılmış müdafiə xətlərinin mürəkkəb coğrafi şəraitdə yerləşməsi isə onların müqavimət gücünü daha da artırırdı. Təmas xətti böyunca və işğal olunmuş ərazilərin dərinliklərindəki bütün hakim yüksəkliklər erməni hərbi qüvvələrinin əlində idi. Buna görə, Ermənistanın siyasi və hərbi rəhbərliyində, habelə onun havadarlarında belə bir inam var idi ki, Azərbaycanın işğal altında olan ərazilərinin azad etmək cəhdi heç bir şansa malik deyil. Əslində, bu məqam elə Ermənistan rəhbərliyinin münaqişənin dinc yolla həlli üçün aparılan danışıqlarda barışmaz mövqe tutmasını da şərtləndirirdi.

Qeyd etmək lazımdır ki, 2016-cı ilin aprel ayında baş verən qısamüddətli döyüşlər zamanı da Ermənistan oxşar strategiyanı əsas tutmuşdu. O zaman bu strategiya Ermənistan üçün müəyyən nəticələr verdi və ona görə də çox da böyük əraziləri əldən vermədən döyüşlərin dayandırılması mümkün oldu. Aprel döyüşünün gedişini təhlil edən xarici mütəxəssislər də yaxın gələcəkdə Qərbin və Rusiyanın da Azərbaycan qarşısında Ermənistanın dərin hərbi məğlubiyyətinə razı olmayacaqlarını bildirirdilər.

Yüksək hərbi-texniki təchizatla eşelonlaşdırılmış müdafiə xətlərinin qurulması Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlamaq üçün malik olduğu direniş strategiyasının bir istiqaməti idi. Bu startegiyanın digər istiqamətini isə hərbi-siyasi əməkdaşlıq və həmrəylik təşkil edirdi. Ermənistanın siyasi və hərbi rəhbərliyi şübhə etmirdi ki, Azərbaycan işğal altında olan ərazilərin azad edilməsi üçün hərbi əməliyyatlara başlasa, Rusiya həm ikitərəfli anlaşmalar əsasında, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında üzvlükdən irəli gələn öhdəlik çərçivəsində əməliyyatların gedişinə müdaxilə edəcək və bununla da Azərbaycanın bu zaman öz hərbi məqsədlərinə nail olmasının qarşısı alınacaqdır.

Ermənistanın hərbi və siyasi rəhbərliyi belə bir ehtimala arxayın idi ki, Azərbaycan üstünlük əldə etmək üçün blis-kriq, yəni qısa zaman ərzində sürətli hücum taktikasını seçəcəkdir. Əslində, işğal olunmuş ərazilərin qorunması da bu yanaşma üzərində qurulmuşdu. Bir əminlik var idi ki, eşelonlaşdırılmış müdafiə xətlərinin vasitəsi ilə Azərbaycanın sürətli hücumu bir neçə gün ləngidiləcək və bu müddət ərzində Rusiya, habelə işğal olunmuş ərazilərdən status-kvoniun dəyişməsini istəməyən xarici dövlətlər və beynəlxalq qüvvələr hadisələrə müdaxilə etməklə Azərbaycanın hücumunu dayandıracaqlar. Bununla da Ermənistan az itki verməklə öz mövqeyini və maraqlarını qoruyub saxlaya biləcəkdi.

Belə bir strategiyanın işə düşməsi üçün Ermənistanın baş naziri Vətən müharibəsinin gedişində, az qala,hər gün Rusiya Prezidenti ilə əlaqə saxlamağa və Rusiyanın Azərbaycanla aparılan müharibəyə müdaxilə etməsinə nail olmağa çalışdı. Ermənistan rəhbərliyi, eyni zamanda, böyük havadarlarının köməyini almaq üçün çoxsaylı cəhdlər göstərdi. Doğrudur, dünyanın bir sıra dövlətlərinin və beynəlxalq təşkilatlarının rəhbərləri Ermənistanın işğalçılıq siyasətinin süqutuna yol verməmək üçün müxtəlif təzyiq vasitələrinə əl atdılar. Hətta iki dəfə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə qəbul edilməsinə cəhd göstərildi. Lakin Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeyi nəticəsində bu cəhdlərin heç biri Ermənistan rəhbərliyinin ümidində olduğu nəticəni vermədi.

Cəmi ay yarım davam edən əks-hücum əməliyyatları nəticəsində Ermənistana, faşist mahiyətli dünya erməniliyinə və onların havadarlarına elə bir dərs verildi ki, bölgədə tamamilə yeni bir reallıq yarandı. 30 il ərzində davam edən işğala susqunluqla yanaşan çox böyük qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında diz çökməyə məcbur oldu və bu qüvvələrin heç yuxularında belə təsəvvür edə bilməyəcəkləri bir tarixi mənzərə ortaya çıxdı. Xalqımızın yenilməz iradəsini ifadə edən Azərbaycan dövləti gücünü və qətiyyətini toplayaraq öz ərazilərini erməni işğalından azad etdi, fərqli bir dünya düzəni yaratmaqla yeni bir tarix yazdı.

Azərbaycan xalqı sübut etdi ki, haqsızlığa dayaqlanan şər və təcavüzlə onun iradəsini qırmaq, Azərbaycan xalqı ilə zor və təzyiqlə danışmaq, Azərbaycan xalqının səbri və dözümü ilə siyasi alver etmək olmaz. Kimsənin torpağına göz dikməyən Azərbaycan dövləti torpaqlarının da yad tapdağı altında qalması ilə barışmadı və bu torpaqlarda əbədilik kök salacaqlarına şübhə etməyən erməniliyə layiq olduğu yerini göstərdi, müstəqil Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Bütünlükdə 44 günlük müharibənin gedişi göstərdi ki, bu hərbi kampaniyanın aparılması üçün Azərbaycan daha doğru və səmərəli strategiya seçə bilmişdi. Azərbaycanın dövlət rəhbərliyi tərəfindən ordunun möhkəmləndirilməsi, müasir təchizatının təkmilləşdirilməsi xəttinin davam etdirilməsi ilə bərabər, fəaliyyət təcrübəsinin və imkanlarının taktikası da dərindən öyrənilirdi. 2016-cı ilin aprel ayında Dağlıq Qarabağdakı təmas xəttində, 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının Günnüt kəndi istiqamətində, 2020-ci ilin iyulunda Ermənistanla sərhəd xəttinin Tovuz istiqamətində baş verən döyüşün gedişi və nəticələri təhlil edilməklə müvafiq qənaətlər müəyyənləşdirilmişdi.

44 günlük müharibə üçün Azərbaycanın dövlət rəhbərliyinin izlədiyi strategiyanın bir sıra xarakterik cəhətləri var idi. Hər şeydən əvvəl bu strategiya beynəlxalq hüquqa, beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qəbul etdiyi qərarlara, Azərbaycanın Konstitusiyasına, bir sözlə haqqa və ədalətə əsaslanırdı. Azərbaycan Ordusu Azərbaycanın beynəlxalq birlik tərəfindən qəbul olunmuş ərazi bütövlüyünü təmin etmək üçün hərbi tapşırığın icrasına cəlb edilmişdi. Mahiyyəti etibarilə Azərbaycanın strategiyası müdafiə strategiyası idi.

Azərbaycan dövlətinin qarşıya qoyduğu hərbi-strateji hədəf dəqiqliklə müəyyənləşdirilmişdi, real olmaqla ölkənin hərbi imkanlarına və potensialına uyğun olaraq qəbul edilmişdi. Bu strategiyanın doğruluğu və gücü onda idi ki, bütün xalq onun həyata keçməsi üçün dövlət rəhbərliyi ətrafında səfərbər olmuşdu. Azərbaycan xalqı erməni hərbi təxribatlarına cavab verilməsi, işğal altında olan torpaqlara azadlıq nəfəsi gətirilməsi üçün Azərbaycanın dövlət rəhbərliyinin əks-hücum əməliyyatlarına start verməsini hədsiz məmnunluqla qarşıladı.

Bu Vətən müharibəsində, bütünlüklə, Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun yanında olduğunu nümayiş etdirdi. Bu müharibənin gedişində Azərbaycan xalqı düşmən qarşısında vahid xalq olmağın, güclü bir yumruğa çevrilməyin yeni bir nümunəsini yaratdı. Vətən müharibəsinin başlaması ilə Azərbaycanın yaşayış məntəqələrinin, xüsusilə döyüş bölgəsinə yaxın olan yaşayış məntəqələrinin hər bir evi bir səngərə çevrildi, erməni faşizminin dinc əhaliyə qarşı apardığı vəhşiliyin qarşısında təpərli bir müqavimət ocağı oldu.

Kimsə erməni vəhşiliyinə boyun əyib ev-eşiyini tərk etmədi, yersiz təşvişə və həyəcanlara yer vermədi. Əksinə, xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi. Erməni vəhşiliyinin qurbanı olan günahsız insanların faciəsi isə bütün xalqın faciəsinə çevrildi. Bu birlik, ümumi əzmkarlıq, cəbhəyə bağlı olan həmrəylik isə Azərbaycan Ordusuna güc-qüvvət verdi, tarixi qələbəyə aparan yola işıq tutdu.

Vətən müharibəsinin gedişinin tarixi dərslərindən biri də Azərbaycanda yaşayan müxtəlif xalqların dövlət ətrafında sıx birləşməsi, Vətənin müdafiəsi işinə qalxması oldu. Azərbaycanın ayrılmaz hissəsi olan müxtəlif xalqların və konfessiyaların nümayəndələri dövlət rəhbərliyi ətrafında birləşərək cəmiyyətin vahid yumruğuna çevrildilər, silaha sarılaraq erməni işğalına qarşı döyüşlərdə qəhrəmanlıqlar göstərdilər. Bu mənada Vətən müharibəsi bütün cəmiyyət kimi Azərbaycan ərazisində yaşayan xalqların da vətəndaşlıq sınağına çevrildi və bu xalqların nümayəndələri də yaydıqları bəyanatlarda başlanmış haqq mübarizəsində Azərbaycan dövlətinin yanında olduğunu birmənalı şəkildə açıqladılar. Azərbaycanda yaşayan etnik icma rəhbərlərinin və təmsilçilərinin bəyanat və müraciətləri bütün ölkə üçün məsuliyyətli günlərdə xalq-dövlət birliyinin möhkəmliyinin daha bir göstəricisi oldu. Bütün bu bəyanat və müraciətlərdə Azərbaycan xalqının, dövlətinin və ordusunun erməni işğalına qarşı apardığı mübarizədə birmənalı dəstək ifadə olundu.

Vətən müharibəsi dövründə bütün cəmiyyət daxilində olduğu kimi, Azərbaycanın siyasi mühitində də bir siyasi yekdillik yarandı. Erməni işğalına son qoyulması və Azərbaycanın ərazi bütövlüyü məsələsi respublikada rəsmi qeydiyyatdan keçmiş siyasi partiyaların da diqqət mərkəzində dayanan ümummilli məsələyə çevrildi.

Vətən müharibəsinin başlanması ilə bütün cəmiyyət kimi siyasi partiyalar da müqəddəs mübarizə üçün səfərbər olduqlarını bəyan etdilər. Bununla bağlı respublikada rəsmi qeydiyyatdan keçmiş 52 partiyadan 50-si 2020-ci il sentyabrın 27-də birgə bəyanat imzaladılar. Belə bir bəyanatın imzalanması respublika daxilində siyasi sabitliyin mövcudluğunu, ümummilli məsələlər ətrafında siyasi maraqların kənara qoyularaq ümumdövlət məsələləri ətrafında birləşmək istəyini ortaya qoydu. Yəni Vətən müharibəsinin başlanması ilə siyasi-ideoloji düşüncələrindən asılı olmayaraq bütün cəmiyyət birləşdi və öz gücünü Ermənistan silahlı qüvvələri ilə mübarizəyə səfərbər etdi.

Vətən müharibəsinin tarixinin öyrənilməsi göstərdi ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində və Azərbaycan torpaqlarının işğalına son qoyulmasında Azərbaycan Ordusu misilsiz fədakarlıq nümayiş etdirdi. Mübarizlik, qətiyyət, şücaət, xalq və dövlət maraqlarına sonsuz bağlılıq, düşmənə hədsiz nifrət hər bir əsgərin, zabitin və generalın şəxsində düşmənə doğru istiqamətlənmiş ağır bir yumruğa çevrildi. Azərbaycan Ordusu mürəkkəb döyüş şəraitində bütün dünyanı heyrətə salacaq bir məharət göstərməklə Azərbaycan xalqının qəhrəmanlıq tarixinə şərəfli bir səhifə yazdı.

Azərbaycanın dövlət müstəqilliyinə sonsuz bağlılıq, günün tələblərini qarşılamağa imkan verən yüksək maddi-texniki təchizat, ən mürəkkəb hərbi tapşırıqların icrasını şərləndirən peşəkarlıq Vətən mühribəsi ərəfəsində Azərbaycan Ordusunun mənzərəsini müəyyənləşdirən başlıca cəhətlər idi. Belə bir ordunu təmsil edən Azərbaycan hərbçilərinin malik olduqları peşəkarlığı qarşıya qoyulan vəzifələrin məzmunu ilə düzgün əlaqələndirmək, zaman və məkan amillərindən səmərəli istifadə etmək, müəyyən edilmiş tapşırıqlar əsasında əsas zərbə istiqamətini vaxtında və düzgün istiqamətləndirmək, sonra da həmin istiqamətdə zərbə üstünlüyü yaratmaq, məqsədyönlü təmkin, qətiyyət və mübarizlik bütünlükdə müharibənin getdiyi dövrdə təşəbbüs dinamikasını əldə saxlamağa yol açdı.

Azərbaycan Ordusu 44 günlük müharibə dövründə elə bir məharət göstərdi ki, dünyanın ən böyük dövlətlərinin, ən güclü ordularının nümayəndələri belə bu məharətdən irəli gələn təcrübənin öyrənilməsini gələcək müharibələrin aparılması üçün zəruri sayırdılar. Bununla Azərbaycan Ordusu, əslində, müasir dünya döyüş taktikasını müəyyənləşdirən bir ordu olduğunu ortaya qoydu.

Başlıcası isə Azərbaycan Ordusu bu Vətən müharibəsində qabarıq şəkildə göstərdi ki, dövlət rəhbərliyinin və təmsilçisi olduğu xalqın ona bağlanılan ümid və inamı heç də əbəs deyildir. Azərbaycan Ordusu ölkənin müstəqilliyini etibarlı şəkildə müdafiə etməyə qadir olan bir ordudur və Azərbaycanın müstəqilliyinə qəsd etmək fikrinə düşən hər bir qüvvə də bilməlidir ki, öz qarşısında Azərbaycan Ordusunu görəcəkdir.

Vətən müharibəsinin təcrübəsi bir daha göstərdi ki, güclü ordunun mövcudluğu, xalq həmrəyliyi, habelə dövlətin siyasi və iqtisadi gücü, cəmiyyətin mübariz mənəvi əhval-ruhiyyəsi, ön və arxa cəbhənin vəhdəti, informasiya və diplomatiya çevikliyi və s. amillər müharibənin uğurla aparılması üçün mühüm amillərdir. Lakin bu amillərin hər birinin ayrı-ayrılıqda mövcudluğu müharibənin uğurla aparılması üçün heç də yetərli deyil.

Həmin amillər yalnız dövlətin təşkilati fəaliyyəti ilə məqsədyönlü siyasət çərçivəsində planlaşdırıldıqda, formalaşdırıldıqda, qarşıya qoyulan hədəf müstəvisində düzgün uzlaşdırıldıqda və məntiqli şəkildə səfərbərliyə alınaraq cəbhəyə istiqamətləndirildikdə özünün əməli nəticəsini verə bilər. Bu mənada cəmiyyət daxilində özünü göstərə biləcək ictimai-kütləvi proseslərin heç biri ordu quruculuğu və müharibə kimi mərkəzləşdirirlmiş rəhbərliyi və vahid komandanlığı tələb etmir. Çünki sərt intizamı, icraçılığı və nəzarəti tələb edən hərb işinin mahiyyəti ölkənin, dövlətin bütün potensialının bir mərkəzdə toplanmasını, bu potensialın vahid mərkəz tərəfindən idarə olunmasını və istiqamətləndirilməsini tələb edir.

Bütün bunlar isə hərb işində, o cümlədən müharibələrin aparılmasında ali baş komandanların rolunu birmənalı şəkildə ön plana çıxarır. Ali baş komandan xüsusilə müharibə dövründə xalqın bütün gücünün hərb və müdafiə işinə səfərbər edilməsini təmin edə biləcək bir strateji vəzifə sahibidir və ona görə də bu vəzifə sahibinin öz fəaliyyətini necə qurmasının dövlət maraqlarının qorunmasında müstəsna əhəmiyyəti vardır.

Dünya təcrübəsi də göstərir ki, səriştəli, qətiyyətli və mübariz komandan olmadan müharibədən qalib çıxmaq mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətən müharibəsi dövründəki fəaliyyəti də bir daha onu göstərdi ki, ölçülüb-biçilmiş, əsaslandırılmış, bütün risqləri və təfərrüatları hesablanmış rəhbərlik və təşkilatçılıq olmadan müharibədən qalib çıxmaq mümkün deyildir. Bu mənada müharibə həm də dövlət idarəçiliyinin, ali baş komandanlığın sınağıdır və bu sınaqdan yalnız ən məsuliyyətli bir zamanda ən doğru seçim etməyi və bu seçimin ən düzgün icrasını təşkil etməyi bacaran Ali Baş Komandan uğurla çıxa bilər.

Prezident İlham Əliyevin Vətən müharibəsinin gedişində etdiyi çıxışlarda bir neçə dəfə bəyan etdi ki, hansı qərarın nə zaman və necə qəbul edilməsini o çox yaxşı bilir. Çünki müharibə kimi kütləvi insan qırğınlarına apara biləcək bir seçimə əl atılması Ali Baş Komandandan böyük məsuliyyət tələb edir. Qəbul edilən qərarda azacıq tələsgənliyə yol verilməsi kütləvi insan qırğınlarından əlavə dövlətin özünün mövcudluğunu təhlükə altına ala bilər. Ali Baş Komandanın ustalığı ondadır ki, bütün bu məsələləri dəqiqliklə hesablaya və sonra da öz ordusunu, öz xalqını qələbəyə apara bilir.

İlham Əliyev bu müharibə dövründə yalnız ordunun deyil, həm də informasiya və diplomatiya sahəsində aparılan müharibənin Baş Komandanı idi. Bu müharibənin gizli qalan məqamları olsa da, bütün xalqın gözü qarşısında cərəyan edən səhnələri də mövcuddur. Haqqı ayaq altına alıb haqsızlığın müdafiəisinə qalxmış beynəlxalq mediya nəhənglərinə qarşı Prezident İlham Əliyevin təmkinli, tutarlı, əsaslandırılmış cavabları Azərbaycan Ordusunun cəbhədə əldə etdiyi uğurları tamamladı və Azərbaycan xalqına tarixi zəfəri qazandırdı.

**_Mehmu S ÜLEYMANOV,_**
**_Milli Müdafiə Universitetinin professoru, ehtiyatda olan polkovnik_**



Ulu öndərin Şuşa və Laçının işğalının dördüncü ildönümü ilə əlaqədar həmin rayonların ictimaiyyət nümayəndələri ilə keçirilən görüş. 06.05.1996



# Şuşa – Zəfər yürüşünün zirvəsi

**Qarabağın tacı olan Şuşa xalqımızın tarixən müqəddəs və əziz məkanıdır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan bu şəhər 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin 42-ci günündə erməni işğalçılarından azad olundu. Bununla Silahlı Qüvvələrimizin şanlı Zəfər yürüşü öz zirvəsinə çatdı.**

1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən təməli qoyulan qədim mədəniyyət paytaxtımız zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Hələ XVIII əsrin sonlarında Şuşa Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdir. Böyük və güclü sədlə əhatələnən Şuşada çoxsaylı sənətkar məhəlləsi yaradılmışdır. XIX əsrin sonu və XX əsrin əvvəllərində isə Şuşa artıq Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şəhər "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılmışdır.

Sovet dövründə Şuşaya vurulmuş ən böyük zərbələrdən biri onun qısa müddətə də olsa, rayon mərkəzi statusundan məhrum edilməsi oldu. Belə ki, 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatıldı. Yalnız Nikita Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra – 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa olundu. Bununla belə, 1991-ci il fevralın 7-də Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayəti tabeliyində olan şəhər kateqoriyasına aid edilmiş, 1991-ci il noyabrın 26-da isə respublika tabeli şəhərlər sırasına daxil edilmişdir.



Ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə (1969-1982) Qarabağın inkişafına çox böyük diqqət və qayğı göstərilmiş, eləcə də erməni iddialarının iflasa uğraması üçün davamlı tədbirlər görülmüşdür. Dahi şəxsiyyətin fəaliyyətinin mühüm istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. 1970-ci illərdə Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Şuşanın inkişafı ilə bağlı imzalanan xüsusi qərarlara uyğun olaraq şəhərin köhnə binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, təhsil, səhiyyə, mədəniyyət, turizm və digər sosialyönümlü sahələrdə əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Ulu öndər 1996-cı ilin may ayının 6-da Şuşa və Laçının işğalının dördüncü ildönümü ilə əlaqədar həmin rayonların ictimaiyyət nümayəndələri ilə görüşündə dediyi kəlamları olduğu kimi yada salmaq istəyirəm: "Xatirinizdədir, Şuşada böyük bir mehmanxana, çoxmərtəbəli yaşayış binaları, ayrı-ayrı inzibati binalar tikildi. Şuşaya o vaxt çox yüksək bir status verildi, Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Bunun isə böyük əhəmiyyəti var idi. Çünki o vaxtlar Sovet İttifaqının çox yerlərindən bura istirahətə gəlirdilər. Onlar, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə tanış olurdular".

Qeyd edim ki, Şuşa işğala qədər sürətlə inkişaf edir, insanların rifahı durmadan yaxşılaşırdı. Həmin dövrdə şəhərdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyi, Dövlət Dram Teatrı, Şuşa televiziyası, Dövlət Rəsm Qalereyası, iki texnikum, iki institut filialı, texniki peşə məktəbi, orta təhsil müəssisələri, orta və orta ixtisas musiqi məktəbləri, uşaq bağçaları, mədəniyyət evləri, klub, kitabxana, tibb müəssisələri, sanatoriyalar, mədəniyyət və istirahət parkları, kinoteatrlar, ictimai iaşə obyektləri, Şərq musiqi alətləri fabriki, rayon istehlak cəmiyyəti, kurort ticarəti idarəsi, eləcə də bir neçə sənaye və tikinti müəssisəsi fəaliyyət göstərirdi.

Şuşa şəhəri 1992-ci ilin mayın 8-də Ermənistanın qəsbkar ordusu tərəfindən işğal edildi. Bu zaman 200 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirildi, 165 nəfər yaralandı, onlardan 150 nəfər əlil oldu, 552 körpə yetim qaldı. İşğaldan sonra 22 minə yaxın sakin ölkənin 700 yaşayış məntəqəsində məskunlaşaraq məcburi köçkünlük həyatı yaşadı. Şəhər işğal edilərkən erməni quldurları tərəfindən onun tarixi abidələri, sənaye müəssisələri vəhşicəsinə dağıdıldı.

Yuxarıda xatırlatdığım görüşdə Ulu öndər çıxışında, eyni zamanda, şəhərin işğalı zamanı ölkədə mövcud olan hərbi-siyasi vəziyyət, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün görülən və nəzərdə tutulan tədbirlər barədə danışaraq bildirdi ki, "Biz heç vaxt razı ola bilmərik ki, torpaqlarımız uzun müddət Ermənistan silahlı qüvvələrinin işğalı altında qalsın. Buna razı ola bilmərik. Müəyyən bir hədd var, əgər bu həddə qədər biz bu məsələni sülh yolu ilə həll etməyə nail ola bilməsək, şübhəsiz ki, bütün vasitələrdən istifadə etməliyik".

Burada qeyd etmək lazımdır ki, elə 1997, 1998 və 2003-cü illərdə Ulu öndərin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı çoxsaylı görüşləri və çıxışları olmuşdur. Hər dəfə də bir fikri qətiyyətlə deyirdi ki, biz mütləq Şuşaya, Qarabağa qayıdacağıq, tarixi torpaqlarımızı işğaldan azad edəcəyik. Çünki o inanırdı ki, Azərbaycan qüdrətli bir dövlətə çevriləcək.

Bunu görmək üçün çox gözləmək də lazım gəlmədi: Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildi. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq" sözləri Azərbaycanın son yüz illik tarixinin ən möhtəşəm müjdəsi oldu. Şuşa azad edildikdən sonra dövlət başçısının dahi şəxsiyyətin ruhu önündə ehtiram nümayiş etdirməsi, məhz onun vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sadiq olduğunu göstərdi.

Şuşanın işğaldan azad olunmasından dərhal sonra bu qədim şəhərdə dövlət başçısının fərman və sərəncamları çərçivəsində tikinti-quruculuq işləri sürətlə davam etdirilir. Həyata keçirilən layihələrdə tarixi və dini abidələrin, milli memarlıq üslubunu özündə ehtiva edən binaların, digər tikililərin əvvəlki görkəmi özünə qaytarılmaqla bərpa olunur. Şuşada yaşayış komplekslərinin və inzibati binaların inşası, Mamayı, Yuxarı və Aşağı Gövhər Ağa məscidlərinin, Üzeyir Hacıbəylinin ev-muzeyinin, enerji təminatı üçün 5 yarımstansiyanın, həmçinin Daşaltı çayı üzərində su anbarı, eləcə də nasos stansiyasının tikilib istifadəyə verilməsi, şəhərin kanalizasiya sisteminin yenidən qurulması, xəstəxana və poçt binalarının sürətlə inşa olunması görülən işlərin sadəcə bir qismidir.

Bütün bunlarla bərabər, Şuşada qədim məhəllələr, ticarət və iaşə obyektləri, muzeylər, mədəniyyət evləri, otellər, küçə və prospektlər təmir olunur, qədimliyi qorunmaqla müasirləşdirilir. Artıq keçmiş məcburi köçkünlərin bir qrupu Şuşaya qayıdıb. Hazırda Şuşada 376 ailə məskunlaşıb və bu proses davam edir. Ümumiyyətlə, bu məqamda qeyd etmək yerinə düşər ki, son 5 ildə Prezident İlham Əliyevin Şuşanın bərpa olunması, onun sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də şəhərdə müxtəlif ictimai-siyasi, mədəni və beynəlxalq tədbirlərin keçirilməsi ilə əlaqədar 40-a yaxın sənəd imzalanıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhəri 1 nömrəli tam orta ümumtəhsil məktəbin açılışında

Təbii ki, aparılan və nəzərdə tutulan tədbirlərin icrası ölkə rəhbərliyinin diqqət mərkəzində saxlanılır. Bir sözlə, dövlətimizin başçısı Şuşaya xüsusi diqqət və qayğı ilə yanaşır, burada bərpa işlərinin yüksək keyfiyyətlə aparılması barədə vaxtaşırı müvafiq tapşırıqlar verir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Şuşa azad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıq 30 dəfə bu şəhərə səfər edib. Dövlət başçısı bu səfərlər zamanı şəhərdə təhsil müəssisələrinin tikintisi və istifadəsi ilə bağlı məsələləri diqqətdən kənarda qoymur. Məsələn, 2022-ci il mayın 20-də Prezident İlham Əliyev Şuşada yerləşən ən möhtəşəm tarixi abidələrdən biri – Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır. Həmin sənədə əsasən, nəzərdə tutulan işlərin aparılması üçün Elm və Təhsil Nazirliyinə ilkin olaraq bir milyon manat ayrılmışdır.

Qeyd edim ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva hələ 2023-cü il noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçirərkən məlumat verilib ki, peşə məktəbi və kollec Şuşanın tarixi Hamamqabağı, Seyidli və Culfalar məhəllələrində yerləşir. Sovet dövründə həmin ərazilərdə keçmiş kənd təsərrüfatı texnikumu və onun yataqxanası yerləşirdi. Dövlət başçısı peşə məktəbinin və kollecin ərazisini nəzərdən keçirib, tapşırıq və tövsiyələrini verib. Hazırda peşə məktəbində və kollecdə əsaslı tamamlama işləri görülür. 2026-cı ilin sentyabrından etibarən şəhərdə Qarabağ Universitetinin incəsənət fakültəsi də öz fəaliyyətini Şuşa Real məktəbinin binasında davam etdirir.

Elə həmin gün dövlət başçısı Şuşa şəhəri 1 nömrəli tam ümumtəhsil orta məktəbin açılışında iştirak etdi. Ölkə rəhbərinə məlumat verərək bildirildi ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binaların inşası yekunlaşıb. Hazırda məktəbdə 226 şagird təhsil alır.

Burada onu da qeyd etmək yerinə düşər ki, 2025-ci il iyunun 14-də bu məktəbdə işğaldan azad ediləndən sonra ilk dəfə "Son zəng" tədbiri keçirilib. Mərasimdə iştirak edən qonaqlar məzunları təbrik ediblər. Məktəblilərin ifasında ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib. Sonda məzun olan 8 şagirdə tam orta təhsil haqqında attestatlar təqdim edilib. Yeri gəlmişkən, burada daha çox diqqətçəkən məqamlardan biri də 2025 – 2026-cı tədris ilinin başlanması münasibətilə Şuşada ilk məktəb zəngi yenidən çalınıb.

Doğma Şuşadan danışarkən xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva şəhərin dirçəlişinə, inkişafına mühüm diqqət yetirir və töhfə verir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi, Şuşada Mehmandarovların malikanə kompleksində, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, 147 yaşlı Şirin su hamamında bərpa işlərinin aparılması və digər mühüm tədbirlərin təşkil olunması xüsusi tarixi, siyasi, ictimai və mədəni əhəmiyyətə malikdir.

Bəli, işğaldan azad olunan Şuşada Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma layihələrinə Heydər Əliyev Fondunun yaxından köməyi fərəh doğurur. Fond Şuşaya əsrarəngiz naxışlar vurur. Bütövlükdə isə Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə mədəni quruculuq layihələrinin dünyaya təqdim olunması mühüm əhəmiyyət daşıyır.

***

Qarabağın incisi, Azərbaycanın ən gözəl guşələrindən biri olan Şuşanın işğaldan azad edilməsi xalqımızın gücünü, Ordumuzun peşəkarlığını, hərbçilərin cəsarətini və qəhrəmanlığını göstərdi. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər, onun ardınca 2023-cü ilin sentyabrında həyata keçirilən bir günlük antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi.

Artıq Qarabağ və Şərqi Zəngəzur bölgələrində tikinti-quruculuq layihələri sürətlə həyata keçirilir. Adları çəkilən həmin iqtisadi rayonlarda yaşayış məskənlərini bir-birinə qovuşduran yeni yollar çəkilir, küçələr, parklar, xiyabanlar salınır, "ağıllı şəhər" və "ağıllı kənd"lər salınır, elektrik stansiyaları quraşdırılır. Hazırda ölkə başçısının tapşırığı ilə hazırlanan işğaldan azad edilmiş ərazilərinin bərpasına dair Dövlət Proqramının icrası ilə əlaqədar işlər uğurla davam etdirilir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda 50 mindən çox insan məskunlaşıb. Diqqətəlayiq haldır ki, işğaldan azad edilən ərazilərdə 3 min 398 şagird təhsilə cəlb olunub. Bu il Laçının Sus və Ağdərə rayonunun Talış kənd orta məktəblərinin bütün məzunları tələbə adını qazanıblar.

Prezident İlham Əliyev carı il sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib. Dövlətimizin başçısına verilən məlumatda bildirilib ki, klinika tibb ixtisası üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edəcək, bu sahədə elmi tədqiqatların aparılmasında, həmçinin regionda əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayacaq. Eyni zamanda, tədris, tədqiqat və tibbi xidmət fəaliyyəti həyata keçiriləcək.

İşğaldan azad edilmiş ərazilərə köçürülmüş sakinlərin işlə təmin olunması istiqamətində də tədbirlər görülür. Artıq 5500-ə yaxın insan işlə təmin olunub. Bundan əlavə, onların bir çoxu əmək bazarının tələblərinə cavab verən peşələr üzrə hazırlıq kursları keçərək işlə təmin olunurlar. Hazırda işğaldan azad edilmiş ərazilərə köçürülənlərin işlə təmin olunmaları istiqamətində işlər fəal şəkildə davam etdirilir.

Beləliklə, bu gün artıq deyə bilərik ki, köçürmə prosesi fərdi pilot addımlardan kənara çıxıb və mütəşəkkil xarakter alıb. Bu proses insanları öz doğma yurdlarına qaytarmaqla yanaşı, həm də bölgədə yeni sosial – mədəni mühit formalaşdırır, regionu işğaldan azad edilmiş ərazilərin dirçəlişinin əyani simvoluna çevirir. Prezident İlham Əliyev bu il sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə keçirdiyi görüşdə dediyi kimi: "Biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Bütün bunlar – Şuşanın bərpası, Qarabağın dirçəlişi – bunu ürəkdən gələn səslə deyirəm – şəhidlərimizin xatirəsinə ucaldılmış ən yaxşı abidə olacaq.

Abidələrdən söz düşmüşkən, düşünürəm ki, Azərbaycana rəhbərlik etdiyi dövrdə Şuşanın sosial-iqtisadi inkişafında, eləcə də sonrakı illərdə Qarabağ münaqişəsinin həll edilməsində böyük xidmətləri olan Ümummilli liderimiz Heydər Əliyevin Şuşada abidəsinin ucaldılmasının vaxtı çatıb. Heydər Əliyevin 2003-cü ildə vəfatından sonra onun bu istiqamətlərdə apardığı siyasəti layiqli varisi İlham Əliyev uğurla davam etdirdi və bu siyasətin kulminasiya nöqtəsi Qarabağın işğalçılardan tamamilə azad edilməsi oldu.

Bu gün qürur hissi ilə demək lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dayanıqlı sosial və iqtisadi inkişafın təmin edilməsi, irimiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirilməsi, aparılması Prezident İlham Əliyevin əsas hədəflərindən birinə çevrilib. Deyilənləri təsdiq edən əsas amillərdən biri ondan ibarətdir ki, son 5 ildə dövlət başçısı demək olar, hər ay işğaldan azad olunmuş ərazilərə səfərlər edir, görülən işlərin gedişi ilə yerindəcə tanış olur, yeni sənaye və kənd təsərrüfatı müəssisələrin, sosial infrastruktur obyektlərinin açılışını reallaşdırır, məskunlaşan sakinlərlə görüşür, onlara yeni evlərin və mənzillərin açarlarını təqdim edir. Hər bir belə görüş və söhbət göstərir ki, dövlət başçısı insanların nə düşündüklərini, hansı əhvali-ruhiyyədə olduqlarını, onları narahat edən məsələləri bilavasitə özü eşitmək, onların vəziyyətini daxilən yaşamaq istəyir.

Burada onu da qeyd etmək yerinə düşər ki, Türkiyə, Pakistan, İran, Birləşmiş Ərəb Əmirlikləri, Macarıstan, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və digər dövlətlərin rəhbərləri dövlət səfərləri çərçivəsində Prezidentimizlə birlikdə Şuşaya və digər dirçəldilən ərazilərimizə səfərlər etmiş, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı, yeni infrastruktur obyektlərinin tikintisi ilə bağlı görülən işlər və gələcək planlarla tanış olmuşlar. Bir sözlə, bütün Qarabağ bölgəsinin necə canlandırıldığının şahidi olmuşlar.

Bu yazını Prezident İlham Əliyevin 2021-ci il martın 16-da səsləndirdiyi fikirlərlə yekunlaşdırmaq istəyirəm: "Bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

*Rövşən AĞAYEV,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

# Zəfər şəhidlərinin xatirəsinə ümumxalq ehtiramı

**Qarabağın 30 illik işğaldan azad edilməsi ən yeni tariximizə Vətən müharibəsi adı ilə yazılıb. Müharibənin ilk günündən yağı tapdağından xilas edilən torpaqlarımız uğrunda şəhidlər vermişik. Zəfər yürüşümüzün Qələbə ilə başa çatması 3 minədək igid Vətən övladının qanı bahasına qazanılıb. 27 sentyabr həm də tariximizə yeni bir Şəhidlik dastanının ilk səhifəsi kimi düşüb.**

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" sərəncama əsasən, 27 sentyabr 4 ildir ki, Azərbaycanda və dünyada II Qarabağ müharibəsində həlak olan hərbçilərin xatirəsinin yad edildiyi Anım Günü kimi qeyd edilir. Builki Anım Günündə də ölkəmizin hər yerində, soydaşlarımızın yaşadıqları dövlətlərdə şəhidlərimizin Vətən yolunda qurban getmələri qədirbilənliklə xatırlanır, onların ruhuna rəhmət oxunur.




## FHN

**Fövqəladə Hallar Nazirliyində 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. Nazirliyin rəhbərliyi, məsul əməkdaşları, FHN Akademiyasının professor-müəllim heyəti və kursantları mərasimdə iştirak ediblər.**

Nazir müavini, general-mayor Adil Abdullayev Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribat törətməsinə cavab olaraq başlayan, 44 gün davam edən və tarixi Zəfərlə sona çatan İkinci Qarabağ müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycanın qüdrətli Ordusunun göstərdiyi qəhrəmanlıqlardan bəhs edib.

Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Emil Məmmədov, FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin şöbə rəisi, daxili-xidmət kapitanı Əlibala Əlizadə, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin şöbə müdiri Mətanət Qəhrəmanova və FHN Akademiyasının kursantı Ruslan Cəbiyev Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən qürur hissi ilə danışıblar.

Sonda Anım Gününə həsr edilmiş videoçarx nümayiş olunub.

Nazirliyin Mülki müdafiə qoşunlarının komandanlığında da Anım Günü ilə əlaqədar mərasim keçirilib.





## ANAMA

**Anım Günü ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov 44 günlük Vətən müharibəsində iştirak etmiş agentliyin bir qrup əməkdaşı ilə görüş keçirib.**

İdarə Heyətinin sədri müharibədə qazanılan Zəfərin xalqımızın tarixində dönüş nöqtəsi olduğunu vurğulayıb. O qeyd edib ki, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi və siyasi iradəsi, Ordumuzun böyük şücaəti və yüksək döyüş hazırlığı nəticəsində 44 gün davam edən müharibədə torpaqlarımız işğaldan azad edilib: "Bugünkü müstəqil, təhlükəsiz və yenidən qurulan Qarabağ uğrunda apardığımız mübarizəni dövlətimiz və xalqımız daim yüksək qiymətləndirir. Sizin xidmətləriniz yalnız döyüş meydanında deyil, hazırda da mina təhlükəsi ilə mübarizə fəaliyyətində davam edir və bu, olduqca şərəfli bir missiyadır".

Döyüşlərlə bağlı təəssüratlarını paylaşan müharibə iştirakçıları Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əsgərlərimizin qəhrəmanlığı, Azərbaycan xalqının birliyi və dəstəyi sayəsində Zəfər qazandığını bildiriblər. Hazırda isə mina təhlükəsi ilə mübarizə fəaliyyətində iştiraklarının onlar üçün mənəvi borc olduğunu qeyd ediblər.





## Şəhərsalma və Arxitektura Komitəsi

**Dövlət Komitəsində Anım Günü ilə əlaqədar şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş "Yaddaşlarda iz qoyan kadrlar" adlı anım mərasimi keçirilib.**

Komitə sədrinin birinci müavini Namiq Hümmətov, 44 günlük Vətən müharibəsinin müstəqillik tariximizdəki önəmindən, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuzun misilsiz qəhrəmanlığından bəhs edib. Sonra tədbir iştirakçıları "Yaddaşlarda iz qoyan kadrlar" adlı xüsusi təqdimatı izləyiblər.

Ön cəbhədə çəkiliş aparmış fotomüxbirlər Reza Deqati, Emin Səfərov və Aydın Oqtayoğlu arxiv fotoları əsasında müharibənin yaşatdığı ağrı-acıları, eyni zamanda Azərbaycan Ordusunun şücaəti və xalqımızın ruh yüksəkliyi ilə bağlı təəssüratlarını bölüşüblər.

## AMEA

**Dünən də AMEA-da "Vətən müharibəsində tarixi hünər: Zəfər diskursu" mövzusunda konfrans keçirilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli artıq beşinci ildir 27 sentyabrın Azərbaycanda Anım Günü kimi qeyd edildiyini vurğulayıb. O qeyd edib ki, bu tarixi gün 44 günlük Vətən müharibəsində igidliklə döyüşərək ölkəmizin işğala məruz qalmış ərazilərinin azad edilməsi yolunda şəhid olmuş əsgər və zabitlərimizə dərin ehtiramın ifadəsidir.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Vətən müharibəsi son yüz ilin ən qısa və uğurlu, qalibiyyətlə bitən müharibəsidir. Bu Zəfər həm respublika, həm də beynəlxalq miqyasda Azərbaycanın strateji mövqelərinin güclənməsinə, regional sabitliyin təmin olunmasına və həmrəyliyin qorunmasına xidmət edir.

Məclisdə Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Günel Musayeva "Böyük Zəfərin start nöqtəsi - 27 sentyabr: tarix və müasirlik" adlı məruzə ilə çıxış edib. Arxeologiya və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərviz Qasımov, Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Asif Rüstəmli, Memarlıq və İncəsənət İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Məlahət Ağayeva və digər çıxış edənlər Anım Gününün Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yerini və bu günün milli yaddaşda daim yaşadılmasının əhəmiyyətini qeyd ediblər.

AMEA-nın Tarix və Etnologiya İnstitutunda 27 Sentyabr – Anım Günü ilə əlaqədar "Vətən müharibəsi qəhrəmanları və dövlət suverenliyinin bərpası" mövzusunda dəyirmi masa keçirilib.

## Prezident Kitabxanası

**Prezident Kitabxanasının konfrans zalında 27 Sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib.**

Kitabxananın direktoru, professor Afət Abbasova 27 Sentyabr – Anım Gününün Azərbaycan xalqının milli yaddaşında dərin iz buraxan və əbədi yaşadılacaq bir tarix olduğunu vurğulayıb. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli siyasi iradəsi, müdrik sərkərdəlik bacarığı və uzaqgörənliyi nəticəsində rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etmiş, xalqımızın qəhrəmanlıq salnaməsini yazmışdır.

Direktor müşaviri Nazim Mustafa, bölmə müdirləri Kəmalə Qasımova, Zakir İsmayılov, biblioqrafı Rəxşan Quliyeva 44 günlük Vətən müharibəsinin milli tariximizdəki mühüm rolundan bəhs edərək şəhidlərin ruhuna ehtiramlarını bildiriblər.

Sonda Anım Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

## Paytaxt məktəbləri

**Bakı şəhərinin ümumi təhsil müəssisələrində 27 Sentyabr – Anım Günü ilə bağlı müxtəlif tədbirlər təşkil edilib, şəhid ailələri, qazilər və müharibə veteranları ilə görüşlər keçirilir.**

Anım mərasimlərində şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilir, Vətən müharibəsi barədə şagirdlərə ətraflı məlumat verilir. Görüşlərdə Prezident İlham Əliyevin sərəncamına əsasən təsis edilən Anım Gününün Vətən müharibəsində qəhrəmancasına döyüşən, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhid əsgər və zabitlərimizə, ümumxalq ehtiramının ifadəsi olduğu vurğulanır.

Tədbirlərdə şagirdlər vətənpərvərlik mövzularında şeirlər söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

## Naxçıvan

**Naxçıvan Dövlət Universitetində 27 Sentyabr – Anım Gününə həsr olunmuş konfrans keçirilib.**

Əvvəlcə İncəsənət fakültəsinin müəllim və tələbələrinin əl işlərindən ibarət 40-a yaxın rəsm əsərinin təqdim olunduğu "Unudulmayanlar" adlı sərgiyə baxış olub. Məclisdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, 27 Sentyabr Azərbaycan xalqının şanlı tarix səhifələrindən biridir. Qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli addımlar, güclü ordu quruculuğu və xalq-ordu birliyi nəticəsində Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanaraq 30 illik işğala son qoyub.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva "Zəfərin ədəbiyyatda əksi", tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanlı Azərbaycan tarixində Qarabağ, Hüquq fənləri kafedrasının müəllimi Əli Qədimov "Vətən müharibəsinin diplomatik aspektləri" mövzularında çıxış ediblər.

Sonda Universitet Televiziyasının hazırladığı, şəhidlərin qəhrəmanlıq yolunu əks etdirən "Qəhrəmanlıq salnaməsi" adlı reportaj nümayiş olunub.

***

**Muxtar Respublikada Anım Günü ilə əlaqədar ağacəkmə aksiyası da təşkil olunub.**

Naxçıvan–Çalxanqala avtomobil yolunun sağ kənarında keçirilən aksiyada muxtar respublika ekoloqları 1 hektar sahədə 400 tut tingi əkiblər.

## Qubadlı

**Anım Günü ilə əlaqədar Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşlarının iştirakı və birgə təşkilatçılığı ilə Qubadlı rayonunda bir hektar ərazidə ağacəkmə aksiyası təşkil olunub.**

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq keçirilən tədbirdə rayonun torpaq-iqlim şəraitinə uyğun 1200-dən çox müxtəlif növ ağac əkilib.





## Türkiyə

**Türkiyənin Egey Universitetində təhsillərini davam etdirən Azərbaycan Dövlət Aqrar Universitetinin ikili diplom proqramı tələbələri 27 Sentyabr – Anım Günü münasibətilə toplantı keçiriblər.**

Çıxış edən tələbələr Vətənə bağlılığın, milli birlik və vətənpərvərliyin təcəssümü olan bu günün Azərbaycan xalqı üçün əhəmiyyətini qeyd edərək, xalqımızın haqq savaşının dünya ictimaiyyətində tanıdılmasının vacibliyini vurğulayıblar. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun göstərdiyi şücaət və qəhrəmanlıq nümunələri diqqətə çatdırılıb, şəhidlərin göstərdikləri fədakarlıq və igidliklərdən söhbət açılıb.

## Qazaxıstan

**Azərbaycanın Qazaxıstandakı səfirliyində 27 Sentyabr – Anım Gününə həsr olunan tədbir təşkil edilib.**

Səfir Ağalar Atamoğlanov Azərbaycan torpaqlarının bir hissəsinin 30 il ərzində işğal altında qalmasından bəhs edib. O bildirib ki, mübarizə nəticəsində bu torpaqlar azad edilib və bununla da ədalət bərpa olunub, insanlar yenidən öz yurdlarına qayıdıblar. Bu gün Azərbaycan inamla müstəqilliyini möhkəmləndirir, dövlətçiliyini inkişaf etdirir. "Anım Günü milli yaddaşda saxlanmalı və Azərbaycanın şanlı tarixinin bir hissəsi kimi gələcək nəsillərə ötürülməlidir.

Qazaxıstanda "Xəzər" Etnomədəni Birliyinin dəstəyi ilə şəhidlərin xatirəsinə ehsan süfrəsi də təşkil olunub. Azərbaycan icmasının nümayəndələri Vətənin müdafiəçilərinin xatirəsini yaşatmağın vacibliyini vurğulayıblar.

Sonda ictimai fəaliyyətlərində fərqlənən Azərbaycan gənclərinə mükafatlar təqdim olunub.

Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş Konsulluğunda da Anım Gününün beşinci ildönümü ilə bağlı mərasim keçirilib.

## Macarıstan

**Azərbaycannın Macarıstandakı səfirliyi Gənclərin İnteqrasiyası və İnkişafı Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində 27 Sentyabr – Anım Gününə həsr olunan onlayn konfrans keçirilib.**

Assosiasiya sədri Fərqanə Bayramlının moderatorluğu ilə keçirilən məclisdə Azərbaycan Respublikasının Macarıstandakı səfiri Tahir Tağızadə, Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Hüseynli, Macarıstan Milli Assambleyasının Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki və Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxış ediblər.

Mərasimdə 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanın 30 illik işğalına son qoyulduğu, Azərbaycanın ərazi bütövlüyünü və bir milyona yaxın azərbaycanlının fundamental hüquqlarının təmin edildiyi qeyd olunub.

## İndoneziya

**Anım Günü ilə əlaqədar İndoneziyanın paytaxtı Cakartadakı İstiqlal məscidində cümə namazı mərasimi keçirilib.**

Məscidin imamı mərasimin Azərbaycanın azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərin əziz xatirəsinə həsr olunduğunu, Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqlarının azad edilməsi ilə ədalətin bərqərar deyib. Səfir Ramil Rzayev Anım Gününün Azərbaycan xalqı üçün əhəmiyyətindən danışıb, şəhidlərin xatirəsinin müqəddəs məsciddə yad edilməsinin Azərbaycan və İndoneziya xalqları arasında möhkəm qardaşlıq əlaqələrinin bariz nümunəsi olduğunu bildirib. O, tədbirin təşkilində dəstəyə görə məscid rəhbərliyinə, dini işlər üzrə nazirə təşəkkür edib.

İndoneziyanın dini işlər üzrə naziri Nasruddin Umar çıxışında 27 sentyabr tarixinin səfirliyin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsinə ehsan verməsini təqdir edib.

Sonra səfirlik tərəfindən İstiqlal məscidində 1300-ə yaxın şəxsə ehsan payı verilib.

## Paris

**Parisdə Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində 27 Sentyabr – Anım Gününə həsr olunmuş məclis keçirilib.**

Səfir Leyla Abdullayeva, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev və səfirliyimizin hərbi attaşesi Cavid Abdullayev çıxış edərək bu günün tarixi əhəmiyyətindən danışıblar. Natiqlər Prezident İlham Əliyevin sərəncamı ilə 27 sentyabrın Anım Günü kimi qeyd edilməsinin Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsi olduğunu bildiriblər. Qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz "Dəmir yumruq" əməliyyatı nəticəsində qəhrəmanlıq salnaməsi yazıb. Bu azadlığı və fəxarəti bizə bəxş edən şəhidlərimizin xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

*Hazırladı: T.RÜSTƏMLİ*
*XQ*

*Azərbaycan liderinin BMT mesajları*

# Azərbaycan dünyanın logistik xəritəsini yenidən çəkir

## *Orta Dəhlizdə yükdaşımaların həcmi 90 faiz artıb*

**Dünya nəqliyyat xəritəsində Azərbaycan günbəgün daha parlaq mövqe qazanır. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətləri xüsusi vurğuladı. Son illərdə Orta Dəhliz üzrə yükdaşımaların həcminin, təqribən, 90 faiz artaraq Azərbaycanın bu çərçivədə beynəlxalq tranzit mərkəzi statusunu möhkəmləndirməsi məsələsi də qlobal nizamda diqqət mərkəzinə gətirildi.**

Ələt Beynəlxalq Ticarət Limanının yaxın illərdə 25 milyon tona çatacaq gücü, Xəzərin ən böyük ticarət donanması, Bakı–Tbilisi–Qars dəmir yolu, ölkənin 9 beynəlxalq hava limanı və regionun ən böyük yükdaşıma aviaşirkəti – bütün bunlar Azərbaycanın nəqliyyat və logistika baxımından qlobal qovşaq rolunu gücləndirən amillərdir. Bu platforma yalnız ölkəmizin deyil, bütün regionun iqtisadi inkişafına yeni nəfəs verir.

Dünyanın iqtisadi nəbzini tutmaq istəyən hər kəs bilir ki, XXI əsrdə diqqətlərin mərkəzində Orta Dəhliz dayanır – Asiyanı Avropa ilə birləşdirən ən qısa, təhlükəsiz və strateji yol. Orta Dəhlizi sadəcə bir dəhliz adlandırmaq onun əsl mahiyyətini kiçiltmək olar. Bu, əslində bir dəyər zənciridir, Türk dövlətlərinin birləşdirici damarıdır. Bu dəhliz həm iqtisadiyyatın, həm siyasətin, həm də geosiyasətin əsas arteriyasına çevrilməkdədir. Çin-Qazaxıstan sərhədindən başlayaraq Mərkəzi Asiya ölkələrini, Xəzər dənizini, Azərbaycanı, Gürcüstanı və Türkiyəni birləşdirən Orta Dəhliz faktiki olaraq, Türk Dövlətləri Təşkilatının (TDT) iqtisadi onurğa sütununa çevrilib. Bu marşrut, eyni zamanda 1 trilyon dollardan çox ümumi daxili məhsula malik Türk dünyasını vahid iqtisadi məkan kimi birləşdirir.

Təsadüfi deyil ki, 2021-ci ildə Çin–Avropa istiqamətində dəmir yolu ilə 84,9 milyard dollarlıq yük daşınıb. 2022-ci ildə Orta Dəhlizlə daşınan yüklərin həcmi 3,2 milyon tona çatıb. Digər tərəfdən, Avropa ilə Çin arasında illik ticarət dövriyyəsi 600 milyard dolları keçir. Bu miqyasda malların daşınmasında qısa yol hər zaman qızıl qədər qiymətlidir. Orta Dəhliz vasitəsilə Çin malları Avropaya 10 min kilometr deyil, cəmi 7 min kilometr məsafə qət edərək 12 günə çatdırılır. Şimal dəhlizinə alternativ olan bu yol artıq Avropanın böyük şirkətləri və Çin biznesi üçün cəlbedici seçimə çevrilib.

Azərbaycan bu tendensiyadan ən çox fayda götürmək üçün öz ərazisindən keçən yüklərə dəyər əlavə etməklə, emal proseslərini dərinləşdirməklə daha böyük gəlir əldə edə bilər. Gözlənilən ən mühüm hadisələrdən biri də Zəngəzur Dəhlizinin (TRIPP) açılmasıdır. Bu yol istifadəyə verildikdən sonra Azərbaycanın Orta Dəhliz üzərindən keçən yükləri idarə etmək imkanları əhəmiyyətli dərəcədə genişlənəcək. Bununla bərabər, bütün region ölkələri üçün yeni iqtisadi fürsətlər formalaşacaq. Naxçıvanın Türkiyə ilə birbaşa qovşağa çevrilməsi isə həm Şimal-Cənub, həm Şərq-Qərb marşrutlarını, həm də Orta Dəhlizi vahid strateji platformada birləşdirəcək.

Bir məqamı da qeyd edək ki, ölkə başçısının Nyu-York gündəliyi çərçivəsində qarşı tərəflərin müraciət əsasında baş tutan görüşləri məhz Azərbaycanın qlobal nizamda nəqliyyat və enerji sahəsindəki strateji mövqeyinin bəhrəsidir. Məhz qlobal maliyyə nəhənglərinin ölkəmizlə əməkdaşlıqda maraqlı olması Cənubi Qafqazda münbit iqtisadi atmosferlə birbaşa bağlıdır.

Ölkə başçısının vurğuladığı digər bir məqam isə Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsində strateji mövqeyini gücləndirən əsas mərkəzlərdən biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı məsələsidir. Dövlətin bu limana göstərdiyi xüsusi diqqət və qayğı Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam ilə özünü aydın şəkildə göstərir. Prezident İlham Əliyevin qərarına əsasən, limanın yükaşırma gücü daha da artırılacaq və yaxın illərdə 25 milyon tona çatdırılacaq.



Bunun üçün layihənin ikinci mərhələsinin icrası məqsədilə xüsusi idarətmə ofisi yaradılır və dövlət büdcəsindən 20 milyon manat vəsait ayrılıb. Bu addım Azərbaycanın artan tranzit imkanlarına, Orta Dəhlizin strateji əhəmiyyətinə və ölkənin beynəlxalq yükdaşımalar üzrə qlobal qovşaq roluna dövlət səviyyəsində verilən yüksək dəyərin göstəricisidir. Bakı Limanı təkcə Xəzərin ən böyük dəniz qapısı deyil, həm də Azərbaycanı dünya ticarət yollarının əsas həlqəsinə çevirən canlı mərkəzdir.

Bu çərçivədə XQ-yə **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov** bildirdi ki, Ələt Beynəlxalq




Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib. Zəngəzur dəhlizinin açılması isə Orta dəhliz üçün daha geniş perspektivlər vəd edir: "Zəngəzur dəhlizinin açılması artıq reallıqdır. Ermənistan tərəfinin müəyyən bəhanələrilə dəhlizin açılışı uzadılsa da bu il avqustun 8 də ABŞ-da imzalanan məlum bəyannamədən sonra artıq bu istiqamətdə işlər daha da intensivləşibdir və Zəngəzur dəhlizinin yaxın gələcəkdə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) kimi istismara veriləcəyi reallıqdır. Təbii ki, Zəngəzur dəhlizinin açılması sosial-iqtisadi və siyasi-strateji baxımdan mühüm əhəmiyyətə malikdir. Dövlət başçısının sözləri ilə desək: "Yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal–Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək". Zəngəzur dəhlizinin, konkret olaraq, Orta dəhlizlə daşımalara təsirlərinə gəldikdə, mütəxəssislərin ilkin hesablamalarına görə, Zəngəzur dəhlizinin açılması Orta dəhlizlə illik daşıma həcmini 10-12 milyon ton artırmağa imkan verəcəkdir. Ümumiyyətlə, dövlət başçısı İlham Əliyevin təşəbbüs olan Zəngəzur dəhlizi Orta dəhlizin əsas arteriyasına çevrilərək Azərbaycandan daha irihəcmli beynəlxalq daşımaların yerinə yetirilməsinə təkan verəcəkdir".

İİTKM-in şöbə müdirinin fikrincə, əslində Zəngəzur dəhlizinin açılması ölkəmizdə hələ 1998-ci ildən nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilməyə başlamış sistemli tədbirlərin davamı kimi də dəyərləndirilə bilər. 1998-ci ildən başlayaraq Azərbaycanda müxtəlif nəqliyyat növlərinin həm infrastruktur təminatının, həm də nəqliyyat parkının müasirləşdirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər ölkəmizi Avrasiya məkanının aparıcı nəqliyyat-tranzit qovşağına çevirib. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycandan artıq bütün istiqamətlərdə, Şərq-Qərb, Şimal-Qərb, Cənub-Qərb, Şimal-Cənub istiqamətlərdə daşınmalar həyata keçirilir, artıq qeyd edilən istiqamətlərə daşımalar ilə bağlı konkret statistik göstəricilər də mövcuddur.

Aqil Əsədovun fikrincə, hazırda Orta dəhlizlə daşımalar daha çox Gürcüstan üzərindən Bakı-Tbilisi-Qars ilə daşınır. Zəngəzur dəhlizinin açılması isə dünyanın əsas yük mərkəzi olan Çindən Avropaya daşımaların əlverişli marşrutu olan Orta dəhlizin cəlbediciliyini daha da yüksəldərək Azərbaycanın iştirakı ilə tranzit daşımaların həcmini daha da artıracaqdır. Başqa sözlə desək, Zəngəzur dəhlizi Bakı-Tbilisi-Qarsa rəqib deyil, alternativ olaraq, ölkəmizin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımızın hamısı üçün faydalı olacaqdır.

*Nurlu ABDALOV*
*XQ*

# Çinlə bərpaolunan enerji və su ehtiyatları əməkdaşlığı

**Azərbaycanla Çin arasında bərpaolunan enerji, ixrac potensialının artırılması, su resurslarının səmərəli idarə olunması və çirkab suların təmizlənməsi üzrə əməkdaşlıq imkanları müzakirə olunub.**



İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, nazir Mikayıl Cabbarov "PowerChina Resources Ltd." şirkətinin sədri Conq Haysianq ilə görüşüb. Tərəflər Azərbaycan–Çin münasibətlərinin dinamik inkişafını, imzalanmış strateji sənədlərin icrasını və yeni əməkdaşlıq imkanlarını yüksək qiymətləndiriblər.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, "yaşıl enerji" kursu və dayanıqlı inkişaf hədəfləri əməkdaşlıq üçün geniş imkanlar açır. Görüşdə innovativ texnologiyaların tətbiqi, birgə fəaliyyətin şaxələndirilməsi və yeni layihələrin reallaşdırılması məsələləri də diqqət mərkəzində olub.

Bildirilir ki, həyata keçiriləcək təşəbbüslər Azərbaycanın "yaşıl enerji" keçidinə, ixrac potensialının genişlənməsinə və ekoloji dayanıqlığın güclənməsinə xidmət edəcək.

"PowerChina Resources Ltd." enerji, infrastruktur və tikinti sahəsində dünya miqyasında geniş layihələr həyata keçirən aparıcı Çin şirkətlərindən biridir. Şirkət hidroenerji, külək və günəş stansiyaları, su təsərrüfatı və böyük infrastruktur layihələri üzrə təcrübəyə malikdir.

*XQ*

# Qeyri-neft ixracı 5 ildə 72 faiz yüksəlib

**Son illər Azərbaycanın qeyri-neft sektorunun inkişafı və ixracın şaxələndirilməsi istiqamətində görülən tədbirlər məhsulların xarici bazarlarda tanınmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə mühüm töhfə verib. Bu prosesdə "Made in Azerbaijan" brendinin təşviqi və ixracın stimullaşdırılması üzrə mexanizmlər xüsusi rol oynayır.**

2019-2024-cü illərdə qeyri-neft ixracı 72 faiz artaraq 2024-cü ildə 3,4 milyard dollara çatıb və tarixi rekord müəyyənləşdirib. Təkcə yanvar-iyul aylarında 2 milyard dollardan çox ixrac reallaşıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur. Əsas bazarlar sırasında Rusiya, Türkiyə, ABŞ və Gürcüstan önə çıxır.

Qeyri-neft ixracının təşviqi məqsədilə 10 dəstək mexanizmi tətbiq edilir. Bunlara ixrac missiyaları, beynəlxalq sərgilərdə iştirak, xarici bazarlarda "Made in Azerbaijan" rəflərinin təşkili, reklam kampaniyaları və beynəlxalq sertifikatların alınmasına dəstək daxildir.

Gələcəkdə isə yeni mexanizmlərin – elektron ticarət platformalarında satış, əqli mülkiyyət hüquqlarının qorunması və daşımaların təşviqi kimi tədbirlərin tətbiqi planlaşdırılır.

Bu nəticələr ölkənin sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, 2026-cı ilə qədər qeyri-neft ixracını 4 milyard dollara çatdırmaq hədəfinə xidmət edir.

*XQ*



**Son illər Azərbaycan enerji sahəsində atdığı uğurlu addımlar sayəsində regionda və dünya miqyasında etibarlı qaz ixracatçısına çevrilib. Xəzər dənizinin zəngin təbii qaz ehtiyatları üzərində qurulmuş ixrac strategiyası milli iqtisadiyyata böyük töhfə verməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzunu xeyli artırıb. Heç şübhəsiz, bu uğurun əsasında düşünülmüş enerji siyasəti, strateji tərəfdaşlıqlar və müasir infrastruktur layihələri dayanır. Elə ölkəmizin qaz ixracında əldə etdiyi göstəricilər də bunu əyani şəkildə sübut edir.**

# "Odlar yurdu" qaz ixracında dünya lideridir




Hazırda planetimiz "yaşıl keçid" platformasına yön alsa da reallıq bir daha sübut edir ki, ənənəvi yanacaq növləri hələ uzun illər enerji təhlükəsizliyinin vacib aktoru rolunda çıxışını davam etdirəcək. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bu mühüm məqama toxunaraq bildirib ki, dünya bu gün və yaxın gələcəkdə neft və qaz olmadan yaşaya bilməz. Bu amil bir daha onu göstərir ki, ölkəmiz zəngin qaz ehtiyatları hesabına hələ uzun illər Avropanın, eləcə də regionun enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verəcək.

Yeri gəlmişkən, dövlətimizin başçısı BMT-nin yüksək səviyyəli məclisindəki çıxışında enerji təhlükəsizliyinin sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olduğunu vurğulayaraq Azərbaycanın bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam etdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləməkdə davam edir, şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunu beynəlxalq bazarlarla birləşdirilməsində strateji rol oynayır.

Xatırladaq ki, 2007-ci ilin əvvəllərindən etibarən Cənubi Qafqaz boru kəməri (Bakı – Tbilisi – Ərzurum) ilə Gürcüstan və Türkiyəyə qaz nəqlinə başlayan Azərbaycan növbəti illərdə ixrac marşrutunu şaxələndirməyə nail olmaqla Bakıdan Avropanın dərinliyinədək uzanan 3 min 500 kilometrlik Cənub Qaz Dəhlizi kimi nəhəng infrastruktura sahib olub. İndi bu dəhliz, eləcə də birləşdirici boru kəmərləri (interkonnektorlar) Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə misilsiz töhfələr verir. Ümumilikdə isə Cənub Qaz Dəhlizi Avropa İttifaqının enerji şaxələndirmə strategiyasında mühüm yer tutur və Rusiyadan asılılığı azaltmaq məqsədi daşıyır.

Rəsmi statistikaya əsasən, 2024-cü ildə Azərbaycan şaxələndirilmiş boru kəmərləri sistemi ilə ümumilikdə, 25,7 milyard kubmetr təbii qaz ixrac edərək 8,4 milyard ABŞ dolları həcmində gəlir əldə edib. Bu göstəricilər əvvəlki illərlə müqayisədə artım dinamikasının qorunduğunu göstərib. Cari ilin 7 ayı ərzində isə ölkəmizin ixrac etdiyi 14,4 milyard kubmetr "mavi yanacaq"dan qazancı 5,99 milyard dollara çatıb. Bir məqamı da qeyd edək ki, 2025-ci ilin yanvar-iyul aylarında qaz ixracı ölkəmizin ümumi xarici ticarət dövriyyəsinin 34,6 faizini təşkil edib ki, bu da sektorun iqtisadi əhəmiyyətini bir daha təsdiqləyir.

Son illər iqtisadiyyatın şaxələndirilməsini əsas hədəf kimi müəyyənləşdirən Azərbaycan qaz nəqlində də bu strategiyaya daha çox üstünlük verir. Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki, ölkəmiz qaz nəqlinə başladığı vaxtdan ixracın coğrafiyasını ildən-ilə genişləndirir. Prezident İlham Əliyev Nyu-Yorkda BMT Baş Assambleyasının məlum sessiyasındakı çıxışı zamanı deyib: "Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir". Dövlətimizin başçısı bu ilin avqust ayından Azərbaycanın Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlamasını xatırladaraq bunun adı çəkilən ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaltdığını bildirib.

Heç şübhəsiz, Azərbaycanın qaz ixrac strategiyası yalnız mövcud bazarlarla məhdudlaşmır. 2022-ci ildə Avropa Komissiyası ilə imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq Memorandumuna əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına qaz ixracının illik 20 milyard kubmetr həcmində artırılması planlaşdırılır. Bunun nəticəsi olaraq hazırda Azərbaycan qazının Macarıstan, Serbiya, Rumıniya və digər Mərkəzi-Şərqi Avropa ölkələrinə ixracı ilə bağlı danışıqlar aparılır.

Göründüyü kimi, Azərbaycanın qaz ixracı yalnız iqtisadi amil deyil, həm də enerji təhlükəsizliyi və geosiyasi sabitlik baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın etibarlı tərəfdaş imici, infrastrukturun çevikliyi və hasilat potensialı ölkəni Avropa və region üçün əvəzsiz enerji təchizatçısına çevirir. Artan ixrac həcmləri, genişlənən bazarlar və davamlı infrastruktur inkişafı ölkəmizin bu sahədəki liderlik mövqeyini daha da möhkəmləndirir. Bu strategiyanın uğurla davam etdirilməsi Azərbaycanın beynəlxalq rolunu artırmaqla yanaşı, ölkənin dayanıqlı iqtisadi inkişafını da təmin edəcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

### Ekspert rəyi



**İlham ŞABAN**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Prezident İlham Əliyevin sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı Azərbaycanın qaz liderliyini bəyan etməsi tarixi baxımdan unikal məqamdır. Dövlətimizin başçısı ali tribunadan ölkəmizin dünya üzrə enerji təhlükəsizliyi sahəsində önə çıxmasını bir daha vurğuladı.

Qeyd etmək istəyirəm ki, qaz ixracında "ölkə sayı" üzrə şəriksiz liderlik uzun illər Rusiyaya məxsus olub. Şimal qonşumuz 2025-ci ildə boru kəmərləri ilə faktiki olaraq 13 ölkəyə qaz ixrac edib. Bunlar: Şərq istiqaməti üzrə Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Çin, Avropa istiqaməti üzrə Slovakiya, Macarıstan, Avstriya, Serbiya, Moldova və Türkiyə, Cənubi Qafqaz istiqaməti üzrə isə Gürcüstan, Ermənistan və Azərbaycanı (apreldən ixrac dayanıb) əhatə edib.

Mühüm qaz ixracatçılarından olan Norveç isə hazırda boru kəməri ilə Avropanın 6 ölkəsini təbii qazla təmin edir. Azərbaycana gəldikdə isə son illər Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən ölkəmizin bu ilin yayından etibarən Suriyaya qaz nəqlinə başlaması ixracın coğrafiyasını bir qədər də genişləndirib. Artıq qaz alıcılarımızın sayı 14-ə yüksəlib. Beləliklə, Azərbaycan boru kəmərləri şəbəkəsi ilə daha çox alıcı ölkəni əhatə edir.

Yeri gəlmişkən, Azərbaycanın boru kəməri ilə qaz ixracına görə dünyada ilk yerə yüksəlməsi istehlakçıların ona inamından gəlir. Bu, həm də ölkəmizin bütövlükdə regionun və Avropanın enerji təhlükəsizliyində oynadığı rolun bariz göstəricisidir.

*Azərbaycan liderinin BMT mesajları*

# Ölkəmiz "yaşıl" hərəkatı da qlobal "dəmir yumruğ"a çevirdi



**Prezident İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışında qlobal çağırışlarla bağlı fikir bildirərkən cavab tədbirlərinin inklüziv, ədalətli və ümumbəşəri olmasının zəruriliyini də diqqətə çatdırıb. Dövlətimizin başçısı Azərbaycanın bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə sadiqlik nümayiş etdirdiyini də vurğuladı. Ölkə rəhbəri daha sonra bəyan etdi: "Ötən il iqlim fəaliyyəti, "yaşıl" keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyi etməkdən qürur duyduq. COP29-un ev sahibi kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik".**

Dövlətimizin başçısı bu fikirləri ilə Azərbaycanın qlobal iqlim diplomatiyasındakı tarixi nailiyyətlərinin və enerji təhlükəsizliyi sahəsində oynadığı aparıcı rolun mühüm önəm daşıdığını bir daha beynəlxalq aləmə xatırlatdı. Ölkə rəhbərinin nitqi bir tərəfdən iqlim dəyişikliyi ilə mübarizədə yeni mərhələnin başlanğıcını, digər tərəfdən isə enerji reallıqları ilə qlobal təhlükəsizlik arasında tarazlığı əks etdirdi.

Prezident İlham Əliyevin bildirdiyi kimi, COP29-un nəticəsi olaraq qəbul edilən Bakı Maliyyə Hədəfi – Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) beynəlxalq iqlim maliyyələşdirməsi tarixində dönüş nöqtəsi oldu. Bu sənədlə inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər hər il inkişaf etməkdə olan dövlətlərə ən azı 300 milyard ABŞ dolları məbləğində iqlim dəstəyi göstərməsi qırara alındı. Əvvəllər isə uzun illər ərzində müzakirə olunan və icrası çətin görünən bu hədəf Azərbaycanın vasitəçilik və təşəbbüskarlıq missiyası nəticəsində real beynəlxalq öhdəliyə çevrildi.

Beləliklə, COP29-un səmərəli fəaliyyəti ilə qlobal iqlim maliyyələşdirməsində yeni bir uğurlu səhifə açıldı. Bu, iqlim böhranı ilə mübarizənin təkcə siyasi bəyanatlarla deyil, eyni zamanda, ciddi maliyyə öhdəlikləri ilə mümkünlüyünü göstərdi. Bakı Maliyyə Hədəfi bu mənada inqilabi addım kimi qiymətləndirildi. Belə ki, əgər 2009-cu ildə qəbul edilən əvvəlki qərarlarda inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollarlıq vəsait öhdəlik olaraq göstərilmişdisə, indi bu məbləğin ən azı üç dəfə artırılması beynəlxalq birliyin məsuliyyətini daha aydın şəkildə ortaya qoydu.

Bu hədəfin formalaşdırılmasında Azərbaycanın rolu təsadüfi deyil. Çünki son illərdə ölkəmiz həm regionda, həm də beynəlxalq müstəvidə iqlim diplomatiyasında etibarlı vasitəçi imicini möhkəmləndirib. Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq karbon bazarlarının işə salınması üçün çərçivənin qəbul edilməsi də COP29-un mühüm nailiyyətlərindən biridir. Bu, Paris razılaşmasının qəbulundan doqquz il sonra ilk dəfə olaraq onun tam icrasına zəmin yaratdı və gələcəkdə ölkələr arasında karbon ticarətinin genişlənməsinə əlverişli bir yol açdı.

Digər bir mühüm qərarın – İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyətə başlaması ilə bağlı əldə olunmuş razılıq da mühüm önəm daşıyır. Bu fond COP29 iştirakçıları tərəfindən iqlim dəyişikliyindən ən çox zərər çəkən kiçik ada dövlətlərinə, sahilboyu ərazilərə və digər həssas icmalara həyati dəstək verəcək amil kimi dəyərləndirildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, COP29 yalnız deklarativ bəyanatların deyil, real öhdəliklərin qəbul edildiyi zirvə oldu.

İtki və Zərər Fondunun fəaliyyətə başlamasını təmin edən tarixi qərar inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi tarixi bir sənəd idi. Əslində, bu, Prezident İlham Əliyevin iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 Sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğunlaşdırılması idi.

Xatırladaq ki, İtki və Zərər Fondunun yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınıb. Əsas məqsəd isə bu maliyyə qurumunun iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək olub. Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28 zamanı fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul edilib. COP29 Sədrliyi tərəfindən isə İtki və Zərər Fondunun fəaliyyətinin gerçəkləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, bu istiqamətdə İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlığa başlanılıb.

Xatırladaq ki, Azərbaycanın iqlim gündəliyindəki təşəbbüsləri respublikamızın enerji siyasəti ilə sıx bağlıdır. Dövlətimizin başçısı çıxışında haqlı olaraq qeyd etdi ki, "yaşıl" keçidə sadiqlik real hədəflərlə müşayiət olunmalıdır. Dünya iqtisadiyyatı hələ yaxın onilliklərdə mədən yanacaqlarından tamamilə imtina edə bilməz. Buna görə də bərpa olunan enerji ilə yanaşı, neft və qaz resurslarının rasional istifadəsi də qlobal sabitliyin əsas şərtlərindən biri olaraq qalır.

Azərbaycan bu balansı qoruyan azsaylı ölkələrdən biridir. Çünki bir tərəfdən respublikamız külək və günəş enerjisi layihələri ilə Cənubi Qafqazın "yaşıl" enerji mərkəzinə çevrilir, digər tərəfdən isə neft – qaz infrastrukturu şaxələndirilərək, beynəlxalq bazarlara etibarlı enerji tədarükü gerçəkləşdirilir. Bu, həm regional iqtisadi inkişafı, həm də qlobal enerji təhlükəsizliyini dəstəkləyən unikal model kimi dəyərləndirilir.

Prezident İlham Əliyevin Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışının digər mühüm bir xətti isə enerji təhlükəsizliyi ilə bağlı idi. Dövlət başçısı bununla əlaqədar enerji təhlükəsizliyinin iqtisadi məsələ kimi diqqət çəkilməsi ilə bərabər, həm də sülh, regional əməkdaşlıq və davamlı inkişafın əsas təminatı olduğunu bildirdi.

Azərbaycan son illərdə həyata keçirdiyi beynəlxalq enerji layihələri ilə bu reallığı praktik müstəvidə təsdiq edib. Bakı – Tbilisi – Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və digər strateji layihələr Xəzər regionunu dünya bazarları ilə birləşdirərək, Avropanın və qonşu regionların enerji təhlükəsizliyində əvəzsiz rol oynayıb. Azərbaycan, eyni zamanda, ötən illər ərzində yalnız enerji ixracatçısı deyil, həm də qlobal enerji əməkdaşlığının mərkəzi kimi çıxış edib. Bu missiya, həmçinin Azərbaycanın beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş imicini möhkəmləndirib. Respublikamız istər iqlim diplomatiyasında, istərsə də enerji əməkdaşlığında konsensus yaradıcı və qarşılıqlı faydalı əməkdaşlıq tərəfdarı kimi tanınıb.

Nyu – Yorkdakı çıxış bir daha göstərdi ki, Azərbaycan həm regional, həm də qlobal səviyyədə məsuliyyətli oyunçu kimi çıxış edir. İqlim maliyyələşdirilməsində tarixi qərarların qəbul edilməsinə töhfə verməsi, enerji təhlükəsizliyi ilə bağlı layihələri gerçəkləşdirməsi həssas icmalara dəstək mexanizmlərinin işə salınmasında vasitəçi rolu ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirir. Azərbaycanın bu fəaliyyətləri yalnız cari dövr üçün deyil, eyni zamanda, gələcək nəsillər üçün mühüm əhəmiyyət daşıyır. COP29-un uğurları və Bakı Maliyyə Hədəfinin qəbulu respublikamızın qlobal liderlik rolunu təsdiqləyən amillərdən biridir.

Azərbaycan COP29 kimi beynəlxalq konfransa uğurla ev sahibliyi etdiyi kimi, planetimizi təhdid edən iqlim dəyişikliləri ilə mübarizə yolunda da mühüm qərarların qəbuluna nail oldu. Bununla da ölkəmizdə keçirilən bu mühüm iqlim sessiyasına şübhə ilə yanaşanlara, onun əhəmiyyətini heçə endirməyə cəhd edənlərə, bir növ, tutarlı cavab verildi.

Beləliklə, dövlətimizin başçısının BMT Baş Assambleyasındakı çıxışı Azərbaycanın qlobal iqlim diplomatiyasında və enerji təhlükəsizliyi gündəliyində oynadığı əhəmiyyətli rolu aydın şəkildə ortaya qoydu. Bakı Maliyyə Hədəfi beynəlxalq iqlim maliyyələşdirilməsində yeni səhifə açaraq, inkişaf etməkdə olan ölkələr üçün böyük imkanlar yaratdı. Həmçinin, enerji təhlükəsizliyi ilə bağlı strateji baxış respublikamızın dünya miqyasında etibarlı tərəfdaş mövqeyini daha da gücləndirdi, eləcə də Azərbaycanın təşəbbüskarlığı və balanslı siyasəti həm qlobal iqlim böhranının aradan qaldırılmasına, həm də sabit və təhlükəsiz enerji gələcəyinin qurulmasına real töhfə verdi.

***Vaqif BAYRAMOV***
***XQ***

**ABŞ və Türkiyə prezidentləri Donald Tramp və Rəcəb Tayyib Ərdoğan arasında Ağ Evdə keçirilən danışıqlar iki ölkə arasında iqtisadi və strateji əməkdaşlığın yeni formatının başlanğıcı kimi qiymətləndirilir. Görüşün ən mühüm nəticələrindən biri "Boeing" şirkəti ilə imzalanmış çoxmilyardlıq müqavilə olub. ABŞ-ın Türkiyədəki səfiri və Suriya üzrə xüsusi nümayəndə Tom Barrak da jurnalistlərə verdiyi açıqlamada sazişin imzalandığını təsdiqləyib.**

# Türkiyə–ABŞ: ortaq maraqlara qapı açılır



"Bloomberg" agentliyinin məlumatına görə, Türkiyə 200-dən çox sərnişin təyyarəsinin alınmasını nəzərdə tutan bu razılaşma ilə həm mülki aviasiya sektorunu daha da müasirləşdirəcək, həm də beynəlxalq daşımalar imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək. Bu saziş ölkəyə həm turizm, həm də tranzit daşımalar baxımından əlavə üstünlüklər qazandıracaq, Türkiyənin regional qovşaq rolunu gücləndirəcək.

ABŞ üçün isə bu müqavilə yalnız iqtisadi mənfəət deyil, həm də strateji tərəfdaşlığın gücləndirilməsi baxımından önəm daşıyır. Belə böyükhəcmli iqtisadi əlaqələr siyasi münasibətlərin istiləşməsinə zəmin yaradır və müttəfiqlik əlaqələrini dərinləşdirir. Mütəxəssislərin qənaətinə görə, iqtisadi müstəvidə əldə olunan razılaşmalar çox zaman siyasi və hərbi əməkdaşlığa da təkan verir. Türkiyə NATO-nun ikinci ən böyük ordusuna malikdir və ABŞ üçün Qara dəniz, Yaxın Şərq və Cənubi Qafqaz regionlarında əsas müttəfiq olaraq qalır. "Boeing" müqaviləsi kimi yüksəksəviyyəli sazişin imzalanması tərəflər arasında qarşılıqlı etimadın bərpasına xidmət etməklə yanaşı, müdafiə sənayesi, texnoloji mübadilə və regional təhlükəsizlik sahəsində yeni təşəbbüslərə zəmin yarada bilər. Bu, xüsusilə Suriya və İraqdakı təhlükəsizlik problemləri, eləcə də Aralıq dənizindəki gərginlik fonunda koordinasiyanın artırılması üçün kritik əhəmiyyət daşıyır.

Türkiyənin xarici siyasətində diqqətçəkən balanslı yanaşma bu səfərin nəticələrində öz əksini tapır. Ankara bir tərəfdən Rusiya və regional qonşularla əməkdaşlıq əlaqələrini saxlayır, digər tərəfdən isə NATO və ABŞ ilə münasibətlərin möhkəmləndirilməsində maraqlıdır. Cənab Ərdoğanın bu səfəri Türkiyə üçün ABŞ-la yaxınlaşmanın, xüsusilə regional təhlükəsizlik məsələlərində koordinasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Türkiyə liderinin ABŞ səfəri və "Boeing" müqaviləsi iki ölkə arasında münasibətlərin inkişafında yeni, daha konstruktiv mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Bu addım yalnız iqtisadi deyil, həm də strateji xarakter daşıyır. Mövcud razılaşma ABŞ-Türkiyə tərəfdaşlığının gələcəkdə hərbi əməkdaşlıq və regional təhlükəsizlik sahəsində də genişlənəcəyinə dair nikbin proqnozları gücləndirir və bölgədəki geosiyasi dinamikaya təsir göstərmək potensialına malikdir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Saatlıda yeni məktəb binası



**Saatlı rayonunda inşa olunan İkram Ağayev adına Nabatkənd tam orta məktəbin binasının açılışı olub.**

Heydər Əliyev Fondu hədiyyəsi olan yeni binanın açılış mərasimində Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Astanov, Mil-Muğan Regional Təhsil İdarəsinin müdir müavini Rabil Şahbazov, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dördmərtəbəli məktəb binası 4 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib,



müasir işıqlandırma sistemləri quraşdırılıb.

Açılış mərasimində bildirilib ki, Nabatkənd tam orta məktəbin binası 1937-ci ildə inşa edilib. Ötən müddət ərzində bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa olunub.

624 şagird yerlik yeni məktəb binasının inşasına 2024-cü il may ayında başlanılıb.

Məktəbin müəllimi Vüqar Hüseynov bildirib ki, yeni binanın inşası kollektiv üçün ən böyük hədiyyədir. "Bu, biz müəllimləri və şagirdləri çox sevindirir. Məktəb kollektivi və kəndimiz adından Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk".

***XQ***

# Tərtərdə uşaq bağçası yenidən qurulub



**Sentyabrın 26-da Tərtər rayonunun Hüsənli kəndində Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir edilən körpələr evi-uşaq bağçası istifadəyə verilib.**

Hüsənli kənd uşaq bağçasının binası 1970-ci illərdə tikilib. İki korpus və yardımçı otaqlardan ibarət olan birmərtəbəli bina köhnəldiyindən istifadəyə yararsız idi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bağçada təmir işləri aparılıb, mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı sahə abadlaşdırılıb. Korpusun ətrafına asfalt örtüyü çəkilib. Bağçanın ərazisində uşaq meydançası təşkil edilib.

Bağçanın açılış mərasimində çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, YAP rayon təşkilatının sədri Eldar Əsədov və digərləri uşaqları, onların valideynlərini, bağça kollektivini təbrik edib, balacalara xoşbəxt gələcək və ölkəmiz üçün layiqli övlad olmalarını arzulayıblar.

Kənd sakinləri və valideynlər göstərilən qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Valideyn Nigar Əliyeva bağçada yaradılmış şəraitdən razılığını bildirərək deyib: "Mən uşaq bağçasının əvvəlki vəziyyətinə görə təəssüf hissi keçirirdim. Həmişə deyirdim ki, kaş, bizim bağçamız da təmir olunsun. Bu gün artıq uşaq bağçası təmirdən sonra istifadəyə verildi. Binada uşaqlar üçün lazımi şərait yaradılıb. Buna görə valideyn kimi çox sevinirəm və buna görə Heydər Əliyev Fonduna təşəkkürümü bildirirəm".

***XQ***



# Şəhid övladı, sən Vətənin balasısan

**Bəhruz Quliyevin adı çəkiləndə ortaya qəribə bir sükut çökür. Hiss edirsən və görürsən ki, bu sükutun içində qürur da var, həsrət də, bir damla göz yaşı da, insanın daxilinə işləyən minnət də. Çünki Bəhruz təkcə bir ad deyil. Bu ad torpağa yazılmış anddır, bayrağa sarılmış qürurdur, azadlıq üçün susub can verməyin səsini ucaldan hekayədir.**





O, Vətən deyəndə susanlardan idi. Çünki onun Vətənə sevgisi səs-küylə ölçülmürdü. Bu sevgi baxışlarında, davranışlarında, səssiz fədakarlığında gizlənmişdi. Bəhruz Quliyev Vətənin qəlbinə köçmüş igidlərdən biri idi. O, şəhidliyin nə olduğunu yalnız izah etmədi, onu yaşadı, yaşatdı, örnəyə çevirdi.

9 may 1990-cı il… Dünyanın faşizm üzərində qazandığı qələbənin ildönümü. Elə bil tarix özü ona bir yol çəkmişdi: dünyaya göz açan bu uşaq nə vaxtsa başqa bir qələbənin – milli azadlığın simvoluna çevriləcək. Beləcə Goranboyda doğuldu, Naftalanın səssiz küçələrində böyüdü, uşaqlığı da sakit keçdi. Həmişə gözləri danışırdı, dili yox idi sanki. Amma içindəki Vətən sevgisi bir gün fəryad kimi qopacaqdı.

2014-cü ildə o gün gəldi, hərbçi oldu… 2016-cı ilin Aprel döyüşlərində ön cəbhədəydi. Ölümün düz gözlərinin içinə baxdı, amma geri çəkilmədi. Döyüşdən qayıtdı, lakin içində bir hiss qaldı və düşündü ki, bu, son deyil. Bir gün yenə getməli olacaq. Vətən onu bir daha çağıracaq...

Müharibə başlamazdan bir neçə gün əvvəl bir səhər durub qızlarının da əllərindən tutaraq şəhərə çıxardı. O gün adi bir gün deyildi. O baxışlarda qəribə bir dərinlik vardı. Elə bil, o gün gözləriylə son dəfə onları əzbərləyirdi. Saçlarını tumarladı, bir şəkil də çəkdirdi. Gülümsəyirdi, amma gözləri susurdu. Bəlkə də bilirdi. Bu şəkil sadəcə xatirə deyildi, sanki gələcəyə miras idi…

O gün qızlarının əlindən tutan də ata vardı, isti, qoruyucu, özünə əmin. Bu gün isə o əllərdən dövlət tutur, güvənlə, ehtiramla, sevgi ilə. Vətən indi o kiçik əlləri özü qədər əziz bilir. Çünki həmin əllər artıq yalnız ata əllərinin yox, bir xalqın ümidinin daşıyıcısıdır. O balalar bəlkə o günləri xatırlamırlar, amma o əlin verdiyi gücü, sevgini, inamı içlərində daşıyırlar.

Bəhruz Suqovuşanda döyüşürdü. Vətən uğrunda ən ağır məqamda belə geri dönmədi. Bir gün yaralı döyüş yoldaşlarını xilas etmək üçün ölümün içinə atıldı. Onları xilas etdi, amma özü minomyot partlayışına tuş gəldi. 7 gün boyunca yaralı vəziyyətdə, səssiz, köməksiz bir halda maşının içində qaldı. Amma tənhalığında belə tək deyildi. Qəlbində Vətənlə danışırdı bəlkə də. Susurdu, amma içində dua edirdi, balaları üçün, torpaq üçün, bayraq üçün... Anası deyir ki, "xəbər gələndə dünya başıma fırlandı, dağlar üstümə uçdu".

Ananın dağ boyda oğlu indi səssiz torpaq altında yatır. Amma o torpaq artıq onun adı ilə müqəddəsləşib. Zaman keçir, amma bu ağrını sakitləşdirən dərman hələ tapılmayıb. Şəhid anası olmaq, bir tərəfdə qürurun ən uca zirvəsi, bir tərəfdə oğul dərdinin ən dərin acısı deməkdir…

Bəhruz Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olundu. Amma onun ən böyük mükafatı xalqın qəlbində qazandığı əbədi sevgidir. O, bizim üçün ordenli-medallı bir əsgər deyil. O, bizim yaddaşımızın, kimliyimizin bir parçasıdır.

İllər keçir və artıq 5 il olub. Qızlarının özləri də, əlləri də böyüyüb. Bəlkə o gün atalarının əlindən tutduqlarını xatırlamırlar, amma o əlin onlara verdiyi gücü, inamı və qorxmazlığı içlərində yaşadırlar. Onlara Bəhruzdan bir miras qalıb: başı dik, alnıaçıq yaşamaq.

Bu günlərdə Naftalan şəhərində Bəhruz Quliyevin evinin qapısı bir daha döyüldü. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki Baş konsulu Recep Öztop, Avropa Azərbaycan Məktəbinin direktoru Francesco Banchini və digər məsul şəxslər 27 Sentyabr – Anım Günü ilə əlaqədar olaraq 44 günlük Vətən müharibəsində şəhid olmuş Bəhruz Quliyevin ailəsini ziyarət etdilər.

Ziyarət zamanı qeyd olundu ki, dövlətimiz şəhidlərimizin qəhrəmanlığını daim yüksək qiymətləndirir, xatirələri uca tutulur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən tarixi Qələbə şəhidlərimizin qanı və xalqımızın birliyi ilə qazanılıb.

Qonaqlar Azərbaycan-Türkiyə dostluğundan, qardaşlığından danışaraq, şəhidlərin fədakarlığının dünya yaddaşında sülhün zəmanəti kimi qalacağını vurğuladılar. Şəhidin valideynləri övladlarının döyüş yolundan bəhs edib, göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirdilər.

…Bu torpağın hər azad qarışında Bəhruzun izi var. Onun kimi igidlər danışılmır, hiss olunur. Adı çəkiləndə ürək dayanır bir anlıq… sonra başlar əyilir, özü də qürurla, minnətlə, səssiz dua ilə.

"Vətən sağ olsun" deyib gedənlər əslində heç vaxt getmirlər. Onlar hər zaman buradadırlar: hər sabahın şəfəqində, hər uşaq gülüşündə, hər əsən küləkdə. Çünki onların izi torpağa deyil, qəlblərə yazılıb.

***Hm letQ ASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Naftalan şəhəri***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bu Vətən müharibəsi otuzillik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

### Zəfər marafonunun 1-ci günü

– Sentyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin saat 6 radələrindən etibarən genişmiqyaslı təxribatlar törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması barədə məlumat yaydı.

– Saat 12 radələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində sentyabrın 27-si səhər Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananların olması barədə məlumat verdi. Azərbaycan Prezidenti ordumuzun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikalarının sıradan çıxarıldığını bildirdi.

– Günorta saatlarında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə telefonla zəng etdi. Qardaş ölkənin dövlət başçısı Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu vurğuladı.

– Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə bağlı verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını elan etdi. İclasda Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xəttinin yarılması, altı kəndin – Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndlərinin işğaldan azad edilməsi barədə xalqımıza ilk müjdə verildi.

– Saat 19 radələrində Prezident İlham Əliyev ölkəmizdə hərbi vəziyyətin elan edilməsi haqqında fərman imzaladı.

– Saat 18:30 radələrində Müdafiə Nazirliyi cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunması barədə məlumat yaydı.

# Vətən müharibəsinin xronikası: 27 sentyabr



– Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda sentyabrın 27-də başlanan savaşın Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktının son aylar ərzində Ermənistanın təxribatlarının, o cümlədən iyulun 12–16-da Tovuz istiqamətində hücum cəhdinin, avqustun 23-də Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatının fəaliyyətinin davamı olduğu qeyd edildi. Yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyü vurğulandı.

– Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva (Ombudsman) Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin növbəti dəfə kobud şəkildə pozulmasına və tələfatla nəticələnən təxribat cəhdlərinə etiraz olaraq bəyanat yaydı. Bəyanatda Ermənistan silahlı qüvvələrinin mülki insanların sıx şəkildə yaşadığı yerləri və obyektləri intensiv şəkildə atəşə tutması nəticəsində mülki əhali və hərbi qulluqçuların həlak olduqları və yaralandıqları, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəydiyi diqqətə çatdırıldı.

– Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti yaydığı məlumatda qoşunlarımızın əks-hücum nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarının dağıdıldığı, ordumuzun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsinin və döyüş texnikalarının məhv edildiyi bildirildi.

***Mustfi K AMAL***
***XQ***

# "Mən ölmədim, şəhid oldum..."

**Vətən müharibəsində xarici jurnalistlərdən biri hər iki ölkənin əsgərinə sual verir: Döyüşdə nə qədər hərbçi itirmisiniz? Erməni minlərlə əsgər, – deyə cavab verir. Üzünü Azərbaycan əsgərinə tutan jurnalist aldığı cavabdan özünü bir anlığa itirir: "Bizdə itki olmadı". Xarici jurnalist soruşur: – Necə yəni olmadı? Axı qarşı tərəfin minlərlə itkisi var. Azərbaycan əsgəri məğrur cavab verir: qazimiz oldu, qəhrəmanımız oldu, şəhidimiz oldu, ancaq ölənimiz olmadı.**



Bəli, müharibədə həyatını ərazi bütövlüyümüz uğrunda, haqq-ədalət uğrunda canını qurban vermiş şəhidlərimiz ölmədilər, əbədiyyət zirvəsinə yüksəldilər. Onların doğulub böyüdüyü məkanlara diqqət yetirsək, Azərbaycanın bütün bölgələrinin, ölkəmizdə yaşayan xalqların şəhadət zirvəsində təmsil olunduğunu görərik.

Şəhidlərin doğma torpaqlarda axan qanı o yerləri daha da müqəddəsləşdirdi. Artıq beş ildir ki, Qarabağımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır. İgidlərimizin canını qurban verdiyi bu müqəddəs torpaqlar indi sürətlə canlanır. Xalq şairi Musa Yaqubun "Torpaq" şeirində deyildiyi kimi;

*Torpaq müqəddəsdir,*
*Torpaq müqəddəs,*
*Gərək yadımızdan çıxmasın bu dərs.*
*O, ürək kimidir – satıla bilməz,*
*Vətəndi, atadı, anadı torpaq.*

Bəli, torpaq, Vətən anlayışı bizim üçün müqəddəsdir. Bu müqəddəslik bu xalq var olduqca qalacaq.

* * *

Səhərin erkən saatlarında müharibə yenicə başlamışdı ki, Füzulidə kəşfiyyat taborun tibb xidmətinin hərbi ambulansı yaralıları xilas etmək üçün cəbhə istiqamətində yola düşür. Maşındakı qrupda tibb xidməti rəisi Haman Əliyev, 9 ayın əsgəri sanitar Rza Məmmədov və digər bir əsgər yoldaşları olur. Onlar yaralıları təxliyə edən vaxt düşmən artilleriyasının ilk hədəfi məhz ambulans olur. Rza və həmin ambulansda olan dörd nəfər ağır yaralanır. Ambulans alovlanıb yanmağa başlasa da, döyüş zonasından uzaqlaşmağa çalışır. Lakin Rza komandiri Haman Əliyevin qucağında şəhidlik zirvəsinə yüksəlir. Beləcə bir gəncin adı da Azərbaycanın Zəfər tarixinə ilk şəhid əsgərlərindən biri kimi daxil olur.

2001-ci il noyabrın 23-də Şamaxı rayonunun Göylər kəndində dünyaya göz açan Rza 2007–2018-ci illərdə 2 saylı Göylər kənd tam orta məktəbində oxuyub. Bu müddət ərzində rayondakı İncəsənət Təhsili Mərkəzində də səs üzrə (xanəndə) təhsil alıb. Sağlığında istəyirmiş ki, xanəndə kimi el məclislərində iştirak etsin. Təhsil aldığı ilk gündən müəllimlərin rəğbətini qazanır. Müəllimləri söyləyirmişlər ki, sən ifa edəndə elə bil, bütün vücudun mahnı oxuyur.

Müharibədən öncə şəhid polkovnik – leytenant Orxan Ələkbərovun rəhbərliyi ilə yorulmadan məşqlər edirlər. Gecələr yorğunluqlarını çıxarmaq üçün Rza axşamlar dostları üçün mahnı oxuyur. Müharibə başlamazdan bir gün əvvəl – sentyabrın 26-sı axşam yeməyindən sonra əsgərlər Rzadan mahnı oxumasını istəyirlər. O da "Ana, mən şəhid oldum" mahnısını ifa edir.

Döyüş yoldaşlarının sözlərinə görə, Rza müharibənin ilk günü səhər tezdən yaralıları daşımaq üçün xərək götürüb hərbi hissədən çıxanda gülə-gülə orada işləyən xanımlara üzünü tutaraq deyir ki, hiss edirəm bu xərək birinci özümə qismət olacaq... Bir neçə saatdan sonra elə də olur.

Bu gün qəhrəman şəhidimizlə təkcə ailə üzvləri yox, bütün xalq qürur duyur, ehtiramla anır. Şəhidlik mənəviyyat, əbədiyyət zirvəsidir. Nisgilimizdir, kədərimizdir, ürək ağrımızdır, həm də qürurumuz, örnəyimizdir...

***Müşfiq MİRZƏ***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün..."

**Tarixə qızıl hərflərlə yazılan 44 günlük Zəfər Yürüşü zamanı fövqəladə igidlik nümunəsi göstərmiş əsgər və zabitlərimizdən 83 nəfəri "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Onların hər birinin hünəri ilə fəxr edir və sevinirik ki, doğma torpaqlarımızı yağılardan qoruyan, işğaldan azad edən belə oğullarımız olub və var! Bizə tarixi qələbə anlarını yaşadan bütün şəhid qəhrəmanlarımızın ruhu qarşısında baş əyir, sağ qalanlara cansağlığı arzulayırıq.**

Biz rəşadətli Vətən oğullarını daha geniş kütləyə tanıtmaq üçün qarşıdakı 44 gün ərzində hazırlayacağımız "Zəfər yolu" səhifələrində ardıcıl olaraq Vətən müharibəsi qəhrəmanları haqqında qısa tanıtım yazıları verməyi qərara almışıq. Bu gün onlardan birini – Raqif İsrayılovu oxuculara təqdim edirik.



### Vətənin mərd oğlu

Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Murovdağ və Şuşa uğrunda döyüşlərdə fərqlənmiş Raqif İbadulla oğlu İsrayılov 1975-ci ildə Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub. Orduda həqiqi hərbi xidmətini başa vurandan sonra Bakı Ali Komandanlıq Məktəbinin xüsusi fakültəsinə daxil olub və oranı taktiki mühəndis qoşunları komandiri ixtisası üzrə bitirib. Sonra Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsinin İdarəetmə akademik kursunda nəzəri bilikləri daha da təkmilləşdirib.

İkinci Qarabağ müharibəsində Raqif İsrayılov qoşunların mühəndis təminatının təşkilinə, xüsusilə də düşmənin artilleriya və aviasiya qüvvələrinin atəşi altında olan Həkəri çayı üzərindəki partladılmış körpülərin ətrafının təhlükəli maneələrdən təmizlənməsinə, brod keçidlərindən istifadə etməklə hərbi körpülərin hazırlanmasına rəhbərlik edib. Düşmənin partlayışa hazırladığı 2 körpünün elektrik xəttini kəsərək zərərsizləşdirib.

Polkovnik Raqif İsrayılov Kəlbəcərin sərt dağlıq və qarlı ərazilərində Ömər aşırımından keçməklə düşmən tərəfindən minalanmış və dağıdılmış yolun bütün maneələrdən təmizlənərək bərpa olunmasına, qeyri-mümkün hissələrdə isə yeni yolun çəkilməsinə bacarıqla rəhbərlik edərək qoşunların maneəsiz hərəkətinə şərait yaradıb. Laçının Gülabird istiqamətində isə partladılmış körpülərin ətrafının minalardan təmizlənərək keçidlərin hazırlanmasını təmin edə bilib.

Ərazi bütövlüyümüzün bərpasında xüsusi xidmətlərinə və azadlıq yürüşü zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Raqif İsrayılova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. O, 2021-ci il sentyabrın 15-də Milli Ordu sıralarından ehtiyata buraxılıb. Azərbaycan Ordusu Təlim-Tədris Mərkəzində baş müəllim kimi fəaliyyətinə davam edir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Çingiz Aytmatov və Azərbaycan"

## Ensiklopediya cildi ilə bağlı AMEA-da müzakirə

**Sentyabrın 26-da AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Qırğızıstan MEA-nın Çingiz Aytmatov adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Abdıldajan Akmataliyevlə görüşüb.**



Görüş zamanı AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Qırğızıstan MEA-nın Çingiz Aytmatov adına Ədəbiyyat İnstitutunun birgə layihəsi olan "Çingiz Aytmatov Ensiklopediyası"nın "Çingiz Aytmatov və Azərbaycan" cildi ilə bağlı müzakirələr aparılıb. Bildirilib ki, Çingiz Aytmatovun şəxsiyyəti, yaradıcılığı hər zaman ölkəmizdə diqqət mərkəzində olub. Azərbaycan dünyada aytmatovşünaslıq mərkəzlərindən biri kimi qəbul edilir.

Akademik İsa Həbibbəyli "Çingiz Aytmatov və Azərbaycan" nəşrinin türk xalqları üçün önəmini qeyd edib.

AMEA rəhbəri bu il Qırğızıstana səfəri çərçivəsində ensiklopediyanın "Çingiz Aytmatov və Azərbaycan" cildinin sözlüyü ilə bağlı bir sıra mühüm müzakirələrin aparıldığını, bu gün isə akademik Abdıldajan Akmataliyevin ölkəmizdə olmasından irəli gələrək növbəti müzakirələrin keçiriləcəyini söyləyib. O, cilddə yer alacaq oçerklərin sözlüyünün və müəlliflərinin müəyyənləşdirildiyini, işi sürətləndirmək məqsədilə əlavə müəlliflərin də cəlb olunacağını diqqətə çatdırıb. AMEA-nın bu addımının ensiklopediyanın Türkiyə, Qazaxıstan, Özbəkistan cildlərinin hazırlanmasına nümunə olacağını söyləyib. Bildirib ki, "Çingiz Aytmatov və Azərbaycan" cildinin beynəlxalq dillərə tərcüməsi də olduqca vacib məsələlərdəndir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli nəzərdə tutulan 110 məqalənin əksəriyyətinin ilkin variantının yazıldığını deyib.

Qırğızıstan MEA Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru akademik Abdıldacan Akmataliyev ədibin 100 illiyinə hazırlıqla bağlı "Çingiz Aytmatov və Azərbaycan" cildinin hazırlanması ilə yanaşı, digər işlərin də görüldüyünü diqqətə çatdırıb. Yeni nəşrdə Çingiz Aytmatovun əsərlərindəki "Manas", "Koroğlu" və "Dədə Qorqud" dastanları ilə bağlı nüansların da işlənilməsinin zəruriliyini söyləyib, Azərbaycanda Çingiz Aytmatova həsr olunmuş elmi əsər və monoqrafiyaların da oçerklərinin hazırlanmasını təklif edib.

"Ədəbiyyat qəzeti"nin baş redaktor müavini, Əməkdar jurnalist Adil Cəmil akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetində "Manas" eposu və türk dastançılıq ənənəsi" mövzusunda dissertasiya müdafiə etdiyini, qırğız ədəbiyyatı ilə bağlı bir sıra əsərlər yazdığını, "Manas" dastanının 1000 illik yubileyində iştirak edərkən Bişkekdə Çingiz Aymatovla görüşdüyünü qeyd edib. O, ədibin oğlu Əsgər Aytmatovla şəxsi əlaqələrindən danışan natiq onun vasitəsilə ensiklopediyanın cildi üçün materiallar toplayacağını deyib .

Sonda nəşrin hazırlıq işlərinin 2026-cı ilin martında yekunlaşması qərara alınıb.

***XQ***

# Türkiyəli tarixçi İlbər Ortaylı Naxçıvanda

**Türkiyəli tarixçi İlbər Ortaylını Türk dünyasında tanımayan az adam tapılar. Bu görkəmli alim, ziyalı keçmişin izlərini bugünkü reallıqlarla ustalıqla birləşdirərək bu gün də bizə tarixdən öyrənməyin, milli kimliyimizi daha yaxşı başa düşməyin yollarını göstərir.**



Bugünlərdə Türk Tarix Qurumunun fəxri üzvü, tarixçi alim və yazıçı İlbər Ortaylı Naxçıvan Dövlət Universitetinin dəvəti ilə Naxçıvanda səfərdə oldu. Ali məktəblə tanışlıqdan sonra qonaq sorağı qədimlərdən gələn Duzdağı, Naxçıvan şəhərinin tarixi abidələrini ziyarət etdi, XVIII əsrə aid "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin materiallarını heyranlıqla izlədi.

Culfa rayonunda isə alim hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof Fəzlullah Nəiminin Xanəgah kəndi yaxınlığında yerləşən türbəsini ziyarət etdi, XV əsrdə inşa edilmiş Əmirxan türbəsində oldu. "Ordubadda olmaq çoxdankı arzum idi"- deyən alim rayonun Zəngəzur dəhlizinə açılan qapısı Kotam kəndinə getdi, bu ərazinin tarixən strateji məkan olduğunu, bu yolun tezliklə Türk dünyasını birləşdirəcəyini söylədi. Böyük İpək yolu üzərində yerləşən Ordubad şəhərinin qədim məhəllələrindən olan Sərşəhər meydanı, eyniadlı məscid, bulaq və həmin meydandakı tarixi tikililərlə tanışlıq qonaqda yüksək əhval yaratdı.

NDU-nun Beynəlxalq Kembric Məktəbində keçirilən görüşdə İlbər Ortaylının kitab imza günü keçirildi, alimin həyat və yaradıcılıq yolu ilə bağlı naxçıvanlı tarixçilərin maraqlı çıxışları oldu. İlbər Ortaylı isə NDU barədə xoş təəssüratını bölüşdü: "Çox şadam ki, Naxçıvanda elmli insanlar daha çoxdur. Xüsusilə qeyd etməliyəm ki, NDU hər zaman hafizəmdə örnək universitetlər sırasında qalacaq. Burada yaradılan imkanlar məni çox fərəhləndirdi".

Görüşün sonunda NDU-nun rektoru Elbrus İsayev xatirə olaraq qonağa onun Naxçıvanda çəkilmiş portretini hədiyyə etdi.

**Türkiyəli professor XQ-yə açıqlamasında Osmanlının ilk dövrünün Naxçıvanla sıx əlaqələri olduğunu, buradakı memarların bir çoxunun Osmanlıya getdiyini, ə ortaq türk tarixinin, ədəbiyyatının xalqlarımıza öyrədilməsində müəyyən çatışmazlıqların olduğunu qeyd edərək bildirdi:**

– Mən Naxçıvanın bu qədər özünəməxsus olduğunu düşünməmişdim. Bu yerlər orta əslərin izlərini daşıyır. Tikilən bağçalı evlər möhtəşəmdir. Ordubada getdim, ora daha çox ənənəvi, gözəl bir bölgədir, çox nizam-intizam var. Ən çox da mənə təsir edən uzaq kənddə musiqi məktəblərinin olmasıdır. Universitetdə də 2 akademik səviyyədə musiqi məktəbi var. Bu bir daha göstərir ki, Azərbaycan musiqi ölkəsidir. Növbəti dəfə Naxçıvana qatarla gələcəyəm. Bu yolun Böyük Türk dünyasına uzanacağına əminəm.

Professor İlbər Ortaylının Naxçıvana səfəri tanışlıq məqsədi ilə yanaşı, həm də bu qədim diyarın ortaq yaddaşımızda və mədəni birliyimizdəki yerini daha yaxından görmək və dəyərləndirmək baxımından faydalı oldu.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

*Həmkarımızın yubileyi*

**Düz 36 il əvvəl Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsilini başa vurduğu vaxtdan sərasər mətbuatda çalışan Paşa Əmircanovun imzası "Azərbaycan Ordusu", "Respublika", "Ekspress", "525-ci qəzet", "Üç nöqtə", "Yeni Qafqaz" və digər qəzetlərdə, "Trend" informasiya agentliyinin xəbər saytında, 2008-ci ilin aprel ayından isə "Xalq qəzeti"ndə mütəmadi görünməkdədir. Haqqında söz düşəndə hamı onu həm iti qələmli jurnalist, həm də incə duyğulu şair kimi xarakterizə edir.**

# Qələminin "fəhlə"si olan jurnalist



Dünən Paşanın 65 yaşının tamam olması münasibətilə redaksiyamızda düzənlənən yığcam yubiley mərasimində çıxış edən iş yoldaşları da onun peşəkar (arada zarafatla "Paşakar" da deyirik) keyfiyyətlərini sadaladılar, zəhmətkeş və təvazökar insan, layiqli həmkar kimi dəyərləndirdilər. Qəzetin baş redaktoru Əflatun Amaşov redaksiyanın əsas "sütun"larından olan Paşa Əmircanovun bütün tapşırıqları yüksək keyfiyyətlə yerinə yetirdiyini, yazdığı hər bir mövzuya dərindən nüfuz etdiyini vurğuladı və ustadların, ağsaqqalların sırasına qoşulan qələmdaşımıza yeni uğurlar arzuladı.

Baş redaktorun müavini Tahir Aydınoğlu, əməkdaşlar Məsaim Abdullayev, İmran Bədirxanlı, Ruslan Rəfizadə, Mirbağır Yaqubzadə və başqaları "Xalq qəzeti"ndə dövlət siyasətinin doğru və düzgün təbliğ olunmasında, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi xəttinin, Prezident İlham Əliyevin ölkəmizin dünyada nüfuzunun artırılması istiqamətində atdığı addımların hərtərəfli işıqlandırılmasında Paşa Əmircanovun da mühüm rolu olduğunu qeyd etdilər. Bildirildi ki, onun bir-birindən maraqlı yazıları Qarabağ münaqişəsinin incələnməsinə və 44 günlük Zəfər yürüşümüzün səbəb-nəticə əsaslarına, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına layiqincə xidmət edir. Paşanın bu səpkili yazılarının uğurunu təmin edən bir amil də məhz həmkarımızın özünün Qarabağ müharibəsi veteranı olması, daim yüksək vətənpərvərlik duyğuları ilə yaşayıb-yaratmasıdır.

Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü olan Paşa 1960-cı ilin bu günündə Gürcüstanın Marneuli rayonunun Qaçağan kəndində anadan olub. Şeirə, sənətə ürəkdən bağlılığı də elə "xəmir"inin güclü ədəbi mühiti olan qədim Borçalıda yoğrulmasından irəli gəlir. İndiyədək 5 publisistik və 2 şeirlər kitabı nəşr edilib. "Paşa Babakərli" imzası ilə yazdığı poetik nümunələri oxucular hər zaman maraqla qarşılayırlar.

Onun 65 illik yubileyi ilə əlaqədar "Taleyim – yol yoldaşım" adlanan yeni şeirlər kitabı çap olunur. Xalq şairi Sabir Rüstəmxanlı topluya yazdığı "Bakıdan görünən Borçalı və dünya" başlıqlı Ön sözündə Paşanın coşqun poetik ruhu, vətəndaşlıq mövqeyi, insana, torpağa sevgi hisslərinin ifadə tərzi ilə seçildiyini qabardıb: "Bir çox şeirlərində mövzuya uyğun olaraq güclü bədii pafos, bəzən hətta publisistik ruh duyulsa da, bunlar seçilən mövzu üçün təbii görünür. Bu baxımdan "Susur şairləri bu məmləkətin", "Məni Qarabağa qaytar, əsgərim", "Vətən, gəl oxşayım səni doyunca", "Sənin bayrağın" adlı şeirləri Paşa Babakərlinin yaradıcılığının şair xarakterini göstərən maraqlı nümunələrdir:



***Bir çınqıl bir suyun gözünü kəssə,***
***Yüz çeşmə quruyar, bulaq tutular.***
***Əgər məmləkətin şairi sussa,***
***Cahilin səsindən qulaq tutular...***

Paşanın bu tipli şeirlərində Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rza Ulutürkün bədii-ictimai ruhlu yazılarının əks-sədasını eşidirik. Paşa ilhamlı, sözünün qanadlarını qısmayan, bütün türk dünyasının sevincini və kədərini içindən keçirən, dünyadakı haqsızlıqlara üsyan səsini qaldıran şairdir. Bu baxımdan kitabın əlyazmasını oxuyub bəyəndim".

Bir qədər öncə Azərbaycan milli mətbuatının 150 illik yubileyini qeyd etdik. Bir sıra jurnalist dövlət təltiflərinə layiq görüldü. Onların sırasında xidmətləri "Tərəqqi" medalı ilə dəyərləndirilən Paşa Əmircanovun da adına rast gələndə hamımız ürəkdən sevindik. Çünki bu, yubilyar qələm dostumuzun halal haqqıdır.

***Ə.DOSTƏLİ***
***XQ***

*Kiçik görünsə də...*

# Dərsə gedən bir uşaq...

## *İndi o, çantanın ağırlığından güclə yeriyir*

**Yeni tədris ilinin başlaması ilə valideynlərin qayğıları da artıb: övladlarının yaxşı təhsil alması, dərsə vaxtında gedib-gəlməsi, istirahətlərinin düzgün təşkili və s. getdikcə daha çox qayğı, diqqət tələb edir. Məktəbli çantalarının ildən-ilə ağırlaşması isə şagirdlərin sağlamlığı üçün ciddi narahatlıq doğurur.**

Mütəxəssislər bildirirlər ki, məktəbli çantalarının ağırlığı uşağın öz çəkisindən 7-10 dəfə az olmalıdır. Çanta ağır olduqda onurğa əyriliklərinə, kürək və boyun ağrılarına, əzələ yorğunluğuna səbəb olur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, məktəb yaşlı uşaqların 80 faizindən çoxu ağır çanta daşımalarına görə onurğa və kürək ağrıları yaşayır. Beynəlxalq araşdırmalar da bu faktı təsdiqləyir.

Məsələn, ABŞ-da məktəbli çantalarının çəkisi şagirdin çəkisinin orta hesabla 15 faizini təşkil edir ki, bu da sağlamlıq üçün risklidir. İspaniyada isə məktəblilərin 60 faizindən çoxu ağır çantaya görə kürək ağrılarından əziyyət çəkir. Məsələ təkcə fiziki sağlamlıqla məhdudlaşmır, ağır çanta daşıyan uşaqlar həm də tez yorulurlar. Bu isə həm dərs nəticələrinə, həm də uşaqların ümumi psixoloji vəziyyətinə mənfi təsir göstərir.

Ölkəmizdə də dərs yükünün çox olması, eyni gündə 6–7 fənnin dərsliyini, dəftərlərini və əlavə materiallarını daşımaq uşaqların həm fiziki, həm də psixoloji sağlamlığına təsirsiz ötüşmür.

İbtidai sinif şagirdlərindən yuxarı yaşlılara qədər, demək olar ki, bütün məktəblilər bu çətinliklə üzləşirlər. Mövzu ilə bağlı valideyn Leyla Məmmədova ciddi narahatlıq keçirdiyini dedi: "6-cı sinifdə oxuyan övladımın çantası 5-6 kq ağırlığında olur, bütün fənlərin kitab və dəftərlərini daşımaq məcburiyyətində qalır, bel və çiyin ağrılarından şikayət edir. Əgər dərs yükü azaldılsa, uşaqların sağlamlığı təhlükə altına düşməz".

**Riyaziyyat müəllimi Sevinc Cəfərova** da bu narahatlığı təsdiqlədi: "Hər gün uşaqların ağır çantalarla dərsə gəldiyini görürəm, bəzən şagirdlər çantalarını masaya qaldıra bilmirlər. Dərs boyu yorğunluq və diqqət dağınıqlığı müşahidə olunur, xüsusilə günün ikinci yarısında öyrənmə tempi xeyli zəifləyir, lakin məktəbdə şagirdlər üçün şkaflar qoyulsa və əsas dərs vəsaitləri orada saxlanılsa, bəzi fənlərin materialları elektron formada təqdim edilsə, bu, həm uşaqların sağlamlığını qoruyar, həm də dərs prosesini daha effektiv edər".

**VI sinif şagirdi Röya Musayeva** isə söylədi ki, məktəbə gedəndə çantamı qaldırmaqda çətinlik çəkir, bəzən pilləkənləri qalxanda nəfəsi kəsilir. Dərslər bitəndə isə yorğun olur, evə gələndə dərs oxumaq istəmir. Kaş ki, kitablar nazik və yüngül olsaydı...

**Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun travmatoloq-ortopedi Qədir Kərimov** mövzu ilə bağlı dedi: - "Bu, çox aktual və vacib mövzudur. Təəssüf ki, bu məsələyə bəzən yetərincə ciddi yanaşılmır. Uşağın sağlam inkişafı böyük əhəmiyyət daşıyır. Çanta ağır olarsa və təktərəfli çiyin asqısı istifadə edilərsə, əzələlər çətinlik çəkəcək, xüsusilə boyun bir tərəfə əyiləcək. Bir çiyində daşınan çantalar sağ və ya sola əyilmələr (skolioz) kimi onurğa problemlərinə səbəb olacaq, boyun əzələlərində gərginlik, boyun arxasında ağrı və damar dartılmaları, baş ağrısı yaradacaq. Ağır və qeyri-düzgün şəkildə kürək çantası daşıyan və pillələri qalxıbenən uşaqlarda ayaq ağırları daha çox olur".



Travmatoloq-ortoped əlavə etdi ki, məktəbli çantasının asqı və ya qayışlarının uzun və ensiz olması bütün ağırlığın belə yönlənməsinə səbəb olur. Bədənin ağırlıq mərkəzinin arxaya sürüşməsi nəticəsində bel əzələlərində həddindən artıq ağrı meydana gəlir. Çantadakı çiyin asqılarının geniş və yumşaq olması çiyində yükün bərabər paylanmasına kömək edir, dar və sərt çiyin asqıları əzələnin müəyyən nöqtələrinə ağırlığın yüklənməsinə səbəb olacaq.

Həkimlər məsləhət görürlər ki, çiyin qayışları ikitərəfli, enli (ən azı 4–5 sm) və yumşaq olsun. Uzunluğu isə tənzimlənməli, hər iki çiyinə bərabər paylanaraq taxılmalıdır. Yalnız bir çiyində daşınan modellər uşaqlar üçün uyğun deyil. Əgər çiyin asqıları incə, ensiz, uzun və çanta ağır olarsa, sinirlərə təzyiq edəcək. Nəticədə əl və qola gedən sinirlər zədə alacaq.

Səhv çanta seçimi illərlə davam edən xroniki bel və boyun ağrılarına səbəb ola bilər. Hətta gələcəkdə onurğa problemlərinə görə müalicə zərurəti yarana bilər. Yəni məktəbli çantasının düzgün seçilməsi təkcə rahatlıq yox, uşağın sağlam inkişafı üçün də vacibdir. Uşaqların skelet sistemi inkişaf mərhələsində olduğu üçün ağır, düzgün seçilməmiş və ya ortopedik olmayan çantalar skolioz, kifoz, onurğa əyrilikləri və duruş pozuntuları kimi ciddi problemlər yarada bilər.



Pedaqoqlar isə qeyd edirlər ki, bu problemin həllində valideynlər də diqqətli olmalıdırlar. Şagird çantasını hər gün yoxlamalı, artıq əşyaları çıxarmalıdırlar. Həmçinin, uşağa çantanı iki çiyində və düz duraraq daşımağı öyrətməlidir. Eyni zamanda, ortopedik ayaqqabılar və idman uşağın əzələlərini gücləndirməlidir. Onlar mütəmadi olaraq müayinəyə aparmalıdırlar.

Əgər məktəbli bel, boyun və ya çiyin ağrılarından şikayət edirsə, duruşda əyilmə, bir çiynin digərindən yuxarı olması müşahidə olunursa, habelə tez-tez yorulduğunu deyirsə, yerişində axsama, əyilmə problemi və ya bel nahiyəsində əyrilik varsa, bu, artıq yükə və ya yanlış çanta istifadəsinə işarədir. Bu zaman travmatoloqa və ya ortopedə müraciət edilməli, təcili tədbir görülməlidir.

Böyük Sabirin dillər əzbəri olan şeirində dərsə gedən uşağın buz üstündə sürüşüb yıxılmasından söhbət gedirdisə, indi məktəblilərin düz yolda üzləşdiyi çətinlik narahatlıq doğurur.

***✍ L.TƏHMƏZ***
***XQ***




# "Bakelektromaşın" ASC səhmdarlarının nəzərinə!

11 noyabr 2025-ci il saat 11.00-da "Bakelektromaşın" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

1. ASC-nin 2025-ci ilin birinci yarısı üçün fəaliyyətinə aid aralıq hesabatının dinlənilməsi və təsdiqi.
2. ASC-nin əmlakının bölünməsinə aid ilkin dinləmə və növbəti ümumi yığıncaqda müzakirəsi üçün müvafiq tapşırıqların verilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** (077) 270-99-28 .

**Ünvan:** Bakı şəhəri, Xəzər rayonu, Qala ŞTQ, Qala stansiyası.

***"Bakelektromaşın" ASC-nin idarə heyəti***

# "Ucar Tikinti Quraşdırma" QSC səhmdarlarının nəzərinə!

22 noyabr 2025-ci il saat 11.00-da "Ucar Tikinti Quraşdırma" QSC-nin inzibati binasında "Ucar Tikinti Quraşdırma" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Səhmdar cəmiyyətin 2024-cü ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyətinin hesabatının müzakirəsi və təsdiqi.
2. Yaranmış iqtisadi vəziyyətdən çıxmaq məqsədilə ərazinin 0.82 hektar hissəsinin satılması barədə .
3. QSC-də istifadə müddəti bitmiş, istifadəyə yarasız mövcud olan, bərpası iqtisadi cəhətdən səmərə verməyən əsas vəsaitlərin satılması, silinməsi və balansdan çıxarılması.
4. Təşkilati məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu – 99450-221-23-82.

Ünvan-Ucar şəhəri, Dədə Qorqud küçəsi.

***İdarə heyəti***

*2007-ci il avqustun 10-da Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası "İctimai Birliyinə verilmiş Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında 1107-Q19-2430 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

***

*Məmmədov Ədhəm Əmrah oğluna məxsus 146507 nömrəli Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

# Tarixi ədalətin Zəfər təntənəsi

**AMEA-nın Gəncə Bölməsi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 27 Sentyabr Anım Gününə həsr olunmuş "Zəfərə aparan tarixi ədalətin təntənəsi" adlı elmi-praktik dəyirmi masa keçirilib.**



Tədbirdən əvvəl iştirakçılar 44 günlük Vətən müharibəsinə həsr olunmuş sərgi ilə tanış olublar və müharibənin əsas məqamlarını əks etdirən videoçarx nümayiş etdirilib. Dövlət Himninin səsləndirilməsi və Ulu öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə tədbirə rəsmi start verilib.

Dəyirmi masanı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev qeyd edib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayıb. O, müharibə dövründə həm cəbhədə döyüşən əsgər və zabitlərimizin, həm də arxa cəbhədə çalışan mülki vətəndaşlarımızın göstərdiyi misilsiz fədakarlıq və birlik nümunəsindən danışaraq, bu zəfərin tarixə qızıl hərflərlə yazıldığını vurğulayıb. Akademik həmçinin Gəncə şəhidlərinə həsr olunmuş kitabın nəşr edildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Dəyirmi masa çərçivəsində elmi və ictimai əhəmiyyət daşıyan məruzələr dinlənilib. AMEA Gəncə Bölməsi sədrinin elmi işlər üzrə müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov "44 günlük Vətən Müharibəsində ata vəsiyyətinin təntənəsi", Tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Nərgiz Rəsulova "44 günün diplomatik cəbhəsi: Prezident İlham Əliyevin xarici mediaya müsahibələri", Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Samirə Qasımova "Birinci və İkinci Qarabağ müharibələrində Rusiyanın mövqeyi" mövzularında çıxış ediblər.

Bundan əlavə, Beynəlxalq münasibətlər şöbəsinin müdiri Simuzər Qafarlı "Berlin və Şuşa: qələbə simvollarının müqayisəsi", Nizami Gəncəvi Mərkəzinin elmi işçisi Çimnaz Vəliyeva "İkinci Qarabağ müharibəsində Gəncə", Gənc Alim və Mütəxəssislər Şurasının sədri Vüqar Əhmədli "Azərbaycan gəncləri 44 günlük Vətən Müharibəsində", YAP Gəncə şəhər 2 saylı Ərazi Partiya Təşkilatının sədri Vüsal Eminbəyli "44 günlük Vətən Müharibəsi: Cənubi Qafqazda yeni siyasi reallıqlar" və Diyarşünaslıq İnstitutu Tarix şöbəsinin əməkdaşı Nuranə Qənbərova "Beşikdən məzara Vətən eşqi" mövzusunda çıxışları ilə yadda qalıblar.

***H.QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

***2025-2026-cı tədris ili üçün aşağıdakı kafedralarda boş olan və ya müqavilə müddəti başa çatmaqda olan vəzifələri tutmaq üçün***

## Müsabiqə Elan Edir

1. Davamlı inkişaf kafedrası – dosent - 1ştat
2. Dövlət idarəetməsi və menecment kafedrası – dosent - 1 ştat
3. Hüquq kafedrası – baş müəllim – 2 ştat

Müsabiqə elan edilən vəzifələrə qəbul "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması Qaydaları haqqında Əsasnamə"yə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 403 saylı əmrinə əlavə 1) uyğun olaraq aparılır.

Dosent vəzifəsini tutmaq üçün müsabiqədə professorlar, dosentlər, elmlər doktorları və müvafiq elm sahəsi üzrə fəlsəfə doktorları iştirak edə bilərlər.

Baş müəllim vəzifəsinə elan olunmuş müsabiqədə ən azı 3 illik elmi-pedaqoji stajı olan müvafiq elm sahəsi üzrə fəlsəfə doktoru və ya ən azı 5 illik elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, kafedranın profili üzrə çap olunmuş elmi-metodiki işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.

Müsabiqə rektorun əmrilə yaradılan xüsusi komissiya vasitəsilə keçirilir və aşağıdakı mərhələləri əhatə edir:

• İddiaçının təqdim etdiyi göstəricilərin qiymətləndirilməsi.
• Müsahibə.
• Müəllimin dərs təqdimatı.
• Müraciət ərizəsində iddiaçıların hansı kafedranın vakant olan (və ya olacaq) ştatına işə qəbul olunmaq üçün müsabiqədə iştirak etmək istədiklərinin qeyd edilməsi vacibdir.

Əlaqə telefonu- (012) 492- 76- 03.

Ünvan- Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1001, Səbail rayonu, Lermontov küçəsi 74.

***Rektorluq***

# Bakıda "Tacik tikmə dünyası"



**Azərbaycan Milli Xalça Muzeyində "Tacik tikmə dünyası" sərgisi qapılarını sənətsevərlərin üzünə açıb. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi və Tacikistan Milli Muzeyinin birgə təşkil etdiyi ekspozisiya iki ölkə arasında mədəni dialoqa töhfə vermək və mədəni mübadiləni davam etdirmək məqsədi daşıyır.**

Tacikistan Milli Muzeyinin kolleksiyasından seçilmiş 56 nadir eksponatın nümayiş olunduğu sərginin açılışında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Xalça Muzeyinin direktoru Əminə Məlikova, Tacikistanın ölkəmizdəki səfiri İlhom Abdurahmon, Azərbaycan–Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri və Tacikistan Milli Muzeyinin direktoru Zəfərşo İbrohimzoda Safo iştirak ediblər.

Qonaqları salamlayan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova və Tacikistan Milli Muzeyinin direktoru, tarix elmləri doktoru Zəfərşo İbrohimzoda Safo sərginin önəmindən söz açıblar.

Bildirilib ki, nümayiş etdirilən divar asma xalısı, kilim, canamaz, dəstərxan taciklərin gündəlik həyatında hər zaman mövcud olan, xüsusi texnikaya malik "gülduzi" (gül tikmə) sənət nümunələridir. Bu sənət Tacikistanın hər bölgəsində özünəməxsus xüsusiyyətləri ilə inkişaf edib. "Gülduzi"yə daxil edilən hər simvolun mənası var. Azərbaycan Milli Xalça Muzeyinin zəngin kolleksiyası göstərir ki, xalqlarımızın tikmə sənəti və xalçaçılıq, onların naxışları çox oxşardır.

Sərgidə Azərbaycan tamaşaçısına ilk dəfə tacik xalqının bədii-estetik zövqünü, dünyagörüşünü və mənəvi dəyərlərini əks etdirən qədim və zərif əl işləri təqdim olunub.

Ekspozisiyada Azərbaycan Milli Xalça Muzeyinin qızıl fondundan – XIX əsrə və müasir dövrə aid xovlu və yastı toxunmuş xalçalar, kilimlər, bədii metal işləri, tikmə nümunələri, habelə Xalq rəssamı Eldar Mikayılzadə və yamaq ustası Xalidə Nəsirovanın əsərləri də nümayiş etdirilir.

Tacikistandan xüsusi dəvət olunmuş tikmə ustası Malohat Mirzoyeva ustad dərsi nümayiş etdirib. Ziyarətçilər "gülduzi"-nin yaradılması prosesini izləmək və hətta bəzi tikişləri özləri də sınamaq imkanı əldə ediblər. Tədbir Azərbaycan və Tacikistan incəsənət ustalarının ifasında musiqili çıxışlar və ənənəvi tacik mətbəxinin təamlarının təqdimatı ilə yekunlaşıb.

Sərgi oktyabrın 25-dək davam edəcək.

***Arzu ƏLİYEVA***
***XQ***

# Travmatoloqlarımız Çindən qayıdıb

**Azərbaycanla Çin arasında əlaqələr Prezident İlham Əliyevin bu ölkəyə səfəri və iki ölkə arasında VİZA rejimi ləğv olunduqdan sonra günbəgün artır.**

Ötən həftə azərbaycanlı travmatoloqlar Pekində keçirilən "Beynəlxalq Artoplastika Seminarı– 2025"-də iştirak etmək üçün Çində işgüzar səfərdə olublar. Seminara qatılan travmatoloqlar konfransda, həmçinin çıxış etmək imkanı əldə ediblər.

**Travmatoloq Sənan Aşırov Pekin səfərində diqqətçəkən məqamlardan və Bakıya hansı yenilikləri gətirəcəyi barədə açıqlamasında bildirib:**

– Pekin səfərimizdə biz müxtəlif təlimlərdə iştirak etdik. Revizion diz, bud–çanaq endoprotez əməliyyatlarının Robotik Naviqasiyanın dəstəyi ilə icra edilməsi texnologiyası ilə tanış olduq. Bu təlimlərin əsas məqsədi mürəkkəb revizion əməliyyatlarda daha dəqiq texniki bacarıqlar əldə etmək və robotik cərrahiyyənin verdiyi üstünlükləri klinik praktikaya tətbiq etməkdir. Səfər zamanı bizə, eyni zamanda, Pekin Universitetinin professor heyəti ilə əməliyyatlarda birbaşa iştirak şansı da yarandı.

Çin bu gün tibbdə texnologiya, kompüterləşmə və marketinqi ilə çox irəlidədir. Təqdim olunan robotik naviqasiyada həkim əvvəlki qaydada əməliyyatını icra edir, sadəcə robotun köməyilə ilə kəsilmə, yonulma və s. millimetr dəqiqliyi ilə hesablanır, ölçülür. Burda artıq gözəyarı işləmək, texniki səhv qeyri-mümkündür.

Sənan Aşırov açıqlamasının sonunda bildirib ki, bu texnologiyaları Azərbaycana gətirməyin zamanı yetişib. Və tezliklə Bakı Sağlamlıq Mərkəzinə bu texnologiya gətiriləcək.

***Z.HÜSEYNLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 207 (30901) 27 sentyabr 2025-ci il, şənbə

## İDMAN

## Stolüstü tennisçilərimiz finalda

**Dünən Qəbələ Olimpiya İdman Kompleksində III MDB Oyunları çərçivəsində stolüstü tennis yarışlarına start verilib.**



İlk gündə Azərbaycanın qadınlardan ibarət komandası yarımfinalda Özbəkistanı 2:1 hesabı ilə məğlub edərək finala yüksəlib.

Kişilər arasında stolüstü tennis üzrə komanda yarışlarında da finalçılar müəyyənləşib. Yarımfinalda milli komandamız Özbəkistana 2:0 hesabı ilə qalib gəlib. Rusiyalılar isə Qazaxıstanı üstələyib.

Hər iki komandamız bu gün finalda Rusiya millisi ilə üz-üzə gələcək.

## Premyer Liqada VI tur

**Dünən Misli Premyer Liqasında VI tura start verilib.**



Açılış matçında "Zirə" Quba Olimpiya İdman Kompleksində "İmişli" ilə üz-üzə gəlib. Oyun 1:1 hesabı ilə heç-heçə başa çatıb. Beləliklə, bu görüşdən sonra bakılıların 12, bölgə təmsilçisinin isə 8 xalı var.

Günün ikinci qarşılaşmasında "Qarabağ" "Azərsun Arena"da "Qəbələ"ni qəbul edib. Ölkə çempionları qonaqları 2:0 hesabı ilə məğlub edərək xallarının sayını 10-a çatdırıb.

Qeyd edək ki, tura sabah yekun vurulacaq.

## Dünya çempionatında 2 qızıl medal

**Yunanıstanın Katerini şəhərində çimərlik güləşi üzrə U-17 dünya çempionatı başa çatıb. 26 ölkədən 170 idmançının qatıldığı mötəbər yarışda baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında ölkəmiz 10 güləşçi ilə təmsil olunub.**



Ülviyyə Musayeva (55 kq) yarımfinalda Polşa, finalda isə Yaponiya güləşçisinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Nihad Süleymanlı (80 kq) da eyni uğura imza atıb. Yarımfinalda İran, finalda isə Gürcüstan güləşçisinə heç bir şans tanımayan həmyerlimiz qızıl medalı qazanıb.

Finalın bir addımlığında iranlı rəqibinə məğlub olan Elgün Kərimli (90 kq) moldovalı həmkarı üzərində 5:0 hesablı qələbə qazanaraq dünya üçüncüsü olub.

Beləliklə, güləşçilərimiz mundialda 2 qızıl və 1 bürünc medal qazanıblar. Oğlanlardan ibarət komanda 62 xal toplayaraq dünya üçüncüsü olub. Cəmi 2 qızdan ibarət heyət isə 25 xalla Moldova və Puerto-Riko ilə 4-6-cı yerləri bölüşüb.

***Qabil YUSİFOĞLU***
***XQ***

*27 Sentyabr Dünya Turizm Günüdür*

# Turizm insanları və ölkələri qovuşdurur

**Hər il sentyabrın 27-də qeyd olunan Dünya Turizm Günü qlobal miqyasda turizmin sosial, mədəni və iqtisadi inkişafdakı rolunu xatırladan mühüm bir tarixdir. Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatı (UNWTO) tərəfindən 1979-cu ildə təsis olunan bu günün məqsədi insanların diqqətini turizmin iqtisadiyyatdakı payına, xalqlar arasında mədəni dialoqun güclənməsinə və davamlı inkişaf hədəflərinə verdiyi töhfəyə yönəltməkdir.**




Müasir dünyada turizm, sadəcə istirahət və əyləncə sektoru deyil, həm də qlobal iqtisadiyyatın ən dinamik sahələrindən biridir. Statistikalara görə, turizm dünya ÜDM-in təxminən 10 faizini təşkil edir, milyonlarla insan üçün məşğulluq mənbəyidir. Bu sahə, həmçinin infrastrukturun inkişafına, xidmət sektorunun təkmilləşməsinə və beynəlxalq əməkdaşlığın güclənməsinə xidmət edir.

Azərbaycan üçün də turizm milli iqtisadiyyatın şaxələnməsi siyasətində xüsusi yer tutur. Xəzərin sahilində yerləşən Bakıdan tutmuş dağ turizminin inkişaf etdiyi bölgələrə qədər ölkənin hər guşəsi beynəlxalq qonaqlar üçün maraqlı imkanlar yaradır. UNESCO-nun Dünya İrs Siyahısına daxil olan Qobustan qaya rəsmləri, İçərişəhər və Şəki Xan Sarayı Azərbaycanı turizm xəritəsində fərqləndirən əsas nümunələrdəndir. Dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələri, viza prosedurlarının sadələşdirilməsi, beynəlxalq tədbirlərin Bakıda təşkili ölkənin turizm imkanlarını daha da genişləndirmişdir.

Lakin çağdaş turizm yalnız iqtisadi qazanc mənbəyi deyil, həm də mühüm ekoloji və sosial məsuliyyət tələb edən sahədir. Dünya ölkələri üçün əsas hədəflərdən biri dayanıqlı turizm modelinin qurulmasıdır. Bu model ekosistemin qorunması, yerli icmaların rifahı və mədəni irsin yaşadılması ilə sıx bağlıdır. İqlim dəyişikliyi, kütləvi turizmin təbiətə təsiri və rəqəmsal platformaların sürətli inkişafı turizmin gələcəyini müəyyən edən əsas faktorlar kimi qiymətləndirilir.

Dünya Turizm Günü həm də xalqlar arasında ünsiyyətin və sülhün təşviqi baxımından əhəmiyyət daşıyır. Mədəniyyətlərarası əlaqələrin güclənməsi, tolerantlıq və qarşılıqlı hörmət müasir dünyada sabitlik üçün vacib şərtlərdir. Turizm isə bu dəyərlərin həyata keçməsi üçün ən effektiv vasitələrdən biri hesab olunur.

Dünya Turizm Günü yalnız bayram xarakteri daşımır. O həm dövlətlər, həm də cəmiyyət üçün bir çağırışdır – dayanıqlı inkişafın təmin olunması, mədəni irsin qorunması, ekoloji balansın saxlanması və insanların rifahına yönəlmiş siyasətlərin formalaşdırılması çağırışı. Azərbaycanın bu istiqamətdə atdığı addımlar, turizmi strateji sahə kimi inkişaf etdirmək səyləri ölkənin beynəlxalq mövqeyini gücləndirməklə yanaşı, həm də milli maraqların təmininə xidmət edir.

***S.ELAY***
***XQ***

# Nizami və Rustaveli: qonşu xalqların mədəni körpüsü

**Gəncə şəhərində Azərbaycan və Gürcüstan arasında elmi-mədəni əməkdaşlığın möhkəmlənməsinə həsr olunmuş beynəlxalq səviyyəli mühüm tədbir - "Nizami Gəncəvi və Şota Rustaveli-mədəniyyət kəsişmələri" mövzusunda birinci Azərbaycan–Gürcüstan konfransı keçirilib.**



Tədbir Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi, İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Şota Rustaveli adına Gürcüstan Ədəbiyyatı İnstitutu, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Gəncə Şəhər İcra Hakimiyyəti və Gürcüstanın aidiyyəti qurumlarının birgə təşkilatçılığı ilə baş tutub.

Konfransda hər iki ölkənin tanınmış alimləri, elm və ictimaiyyət nümayəndələri, o cümlədən akademik Fuad Əliyev, professor İrma Ratiani, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısının müavini Adil Tağıyev və Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze çıxış ediblər.

Tədbir Ulu öndər Heydər Əliyevin və Vətən müharibəsində şəhid olan qəhrəmanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Konfrans çərçivəsində AMEA-nın Gəncə Bölməsinin foyesində Nizami Gəncəvi və Şota Rustavelinin irsinə həsr olunmuş sənət sərgisi nümayiş olunub. Sərgi haqqında ziyarətçilərə sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Həşimova ətraflı məlumat verib.

Akademik Fuad Əliyev çıxışında qeyd edib ki, Azərbaycan və Gürcüstan arasında mövcud dostluq və əməkdaşlıq əlaqələri bu gün daha da genişlənir. Prezidentlər İlham Əliyev və Mixeil Kavelaşvilinin 2025-ci ildə Bakıda keçirdiyi görüşün elmi müstəviyə də müsbət təsir etdiyini bildirən akademik bu konfransın iki xalq arasında mədəni yaxınlığın sübutu olduğunu vurğulayıb.

Şəhər icra hakimiyyəti başçısının müavini Adil Tağıyev çıxışında qeyd edib ki, Azərbaycanın qazandığı Böyük Qələbə bölgədə yeni əməkdaşlıq imkanları yaradıb. Bu konfrans da Azərbaycan-Gürcüstan əlaqələrinin elmi və mədəni istiqamətdə inkişafına mühüm töhfə verir.

Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze tədbirin təşkilatçılarına təşəkkür edərək bu cür layihələrin iki xalq arasında tarixi dostluğun rəmzinə çevrildiyini bildirib.

Konfransda bir sıra elmi məruzələr dinlənilib. Dosent Zəhra Allahverdiyeva Nizami irsinin Rustaveli yaradıcılığına təsirindən danışıb. Miranda Kaşalaşvili iki şairin əsərlərindəki məhəbbət anlayışını müqayisə edib. Dosent Əlimuxtar Muxtarov Nizaminin Gəncəsi barədə, professor İvane Amirxanaşvili isə "Biz yenə bərabərik" adlı məruzə ilə çıxış edib.

Simuzər Qafarlı Azərbaycan və Gürcüstanın tarixi və ədəbi körpüləri, Təranə Verdiyeva isə ədəbi əlaqələri araşdırıb. Sənətşünaslar Xəzər Zeynalov və Minayə Dəyanət-Feyzullayeva isə konfransda ədəbiyyatla incəsənətin sintezindən danışıblar.

Tədbir çərçivəsində gürcüstanlı qonaqlara AMEA-nın 80 illik yubileyinə həsr olunmuş suvenir xalçalar və elmi nəşrlər hədiyyə olunub. Onlar həmçinin Nizami Gəncəvinin məqbərəsini, Nizami Muzeyini və görkəmli gürcü şairi Nikoloz Barataşvilinin Gəncədəki baralyefini ziyarət ediblər.

Professor İrma Ratiani konfransın nəticəsi olaraq artıq birgə elmi monoqrafiyanın nəşr edildiyini, layihənin ikinci mərhələsində isə müxtəlif sahələri – təsviri sənət, musiqi, teatrı əhatə edən multidissiplinar tədqiqatların planlaşdırıldığını açıqlayıb.

Dosent Aygün Bağırlı bildirib ki, AMEA tərəfindən hazırlanmış "Nizami Gəncəvi və Şota Rustaveli" kitabı artıq gürcü və ingilis dillərində də nəşr olunub. Bu, iki xalqın ortaq dəyərlərinin dünyaya tanıdılması baxımından əlamətdar hadisədir.

Konfrans iştirakçıları gələcəkdə bu cür tədbirlərin Bakıda, Tbilisidə, Kutaisidə və digər şəhərlərdə davam etdiriləcəyinə ümid etdiklərini bildiriblər.

***Hamlet QASIMOV***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə**

# "Fəlsəfəm mənim" – poetik hikmət axtarışı

**Respublika Gənclər Kitabxanasında Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, şair Rafiq Ələkbərin "Fəlsəfəm mənim" adlı kitabının təqdimatı olub.**




Tədbirdə yazıçı, tərcüməçi, filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli, "Yeni təfəkkür" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Şəmsiyyə Kərimova, tibb elmləri üzrə fəlsəfə doktoru Alim Şıxəliyev, şair, yazıçı Hikmət Məlikzadə, "Çapar" nəşriyyatının baş redaktoru Dilqəm Əhməd, "Söz" qəzetinin baş redaktoru, şair Arif Musa, elm, mədəniyyət və mətbuat nümayəndələri iştirak ediblər.

AYB-nin üzvü, şairə Xatirə Fərəcli şairin həyat və yaradıcılığı, müxtəlif illərdə işıq üzü görən kitabları, layiq görüldüyü təltif və mükafatlar haqqında danışıb.

Məclisdə şairin poetik yaradıcılığı, sənət özəllikləri, tərcümə edilən yaradıcılıq nümunələri haqqında müzakirələr aparılıb, yaradıcılığı müxtəlif aspektlərdən geniş təhlil olunub. Bildirilib ki, ötən əsrin 80-ci illərindən bədii fəaliyyətə başlayan Rafiq Ələkbər yaradıcılığının ana xəttini türkçülük və turançılıq, Vətənə və torpağa bağlılıq təşkil edib.

Sonda şair Rafiq Ələkbər yeni şeirlərini səsləndirib.

***R.İLQAR***
***XQ***

## Hava

# Arabir yağış yağacaq, güclü külək əsəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 14-16, gündüz 16-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 millimetr civə sütunu, nisbi rütubət isə 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 12-16, gündüz 18-23, dağlarda gecə 3-6, gündüz 6-9 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Goranboy rayonundan Məhərrəm Quliyev Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lerik rayonundan Əkbər Abbasov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3528**
**SİFARİŞ 1944**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**